# İctimai yetkinlik

# Qurani-kərimin baxışı

## Həsən Səffar

### Müqəddimə

Qurani-kərim yalnız alimlərin və mütəxəssislərin faydalanacağı akademik mövzulardan bəhs edən bir kitab deyil. Qurani-kərim Allahın insanlara nazil etdiyi bir kitabdır. Allah-təala buyurur: **"(Ya Peyğəmbər!) Biz Kitabı (Quranı) insanlar üçün sənə haqq olaraq nazil etdik..."** *(əz-Zumər, 41)*

Allah-təala bu kitabı vəsf edərk buyurur: **"İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir"** *(əl-Bəqərə, 185).* **"Bu, (belə əhvalatlar) insanlardan (xalqdan) ötrü (olub keçənlərə dair) bir xəbər, müttəqilərdən ötrü isə hidayət (doğru yola göstəriş) və nəsihətdir"** *(Ali-İmran, 138).* **"Bu (Quran) insanlar üçün elə bir moizədir..."** *(İbrahim, 52)*

Allah-təala Qurani-kərimdə: **"Allah insanlar üçün belə misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar!"**[1] – buyuraraq insanlara müxtəlif məsəllər çəkmişdir. Quran **"insanlara bir nur, doğru yolu göstərən rəhbər və rəhmətdir..."** *(əl-Qəsəs, 43)*

[1] İbrahim surəsi, ayə 25.

Qeyd etdiklərimizdən əlavə çoxlu ayələr vardır ki, Qurani-kərimin Allah-təala tərəfindən insanlara yönəlik xitab olunduğunu bir daha təkid edir. Hər bir insan bu ilahi xitabı ona yönəlmiş bir xitab kimi qəbul etməli, onunla bu prinsipə əsasən davranmalı, onu başa düşmək üçün çalışmalı, onun vasitəsilə həyatnda doğru yolu tapmalıdır. Lakin təəssüflər olsun ki, müsəlmanların əksəriyyəti bu həqiqətdən qəflətdədirlər. Onlar ibadət və bərəkət əldə etmək məqsədilə Qurani-kərimin qiraəti ilə kifayətlənir, bu ilahi kitabın dərk olunmasını alimlərə və mütəxəssislərə həvalə edirlər. Halbuki Qurani-kərim hamını fikirləşməyə, ayələrinin məzmununu düşünməyə dəvət edir. Belə ki, Allah-təala buyurur: **"Onlar Quran barəsində düşünməzlərmi?"** *(ən-Nisa, 82)* Allah-təala buyurur: **"(Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"** *(Sad, 29)*

Hər bir insan istedadı və idrak səviyyəsi qədər Qurani-kərimdən faydalana bilər. İnsan nə qədər çox istedada və idrak gücünə sahibdirsə, bir o qədər çox fayda və bilgi əldə edəcəkdir. Alimlər, fəqihlər elmi bacarıqları sayəsində Qurani-kərimin bütün ayələrini və başqa dini mənbələri tədqiq edərək şəriət hökmlərini çıxaran kəslərdir.

Quranın ayələri insanın fitrətinə xitab edir, onun əqlini oyadır, insanın qarşılaşdığı vəziyyətləri və çətinlikləri həll edir. Quran insanın bəsirət və ağılla qərar verməsi, öz yolunu seçməsi üçün onun hərəkətlərini və davranışlarını tənizmləyir.

İnsanın qarşılaşdığı ən böyük problem onun öz cinsindən olanlarla davranış problemi, ictimai mühitlə əlaqə qurmasıdır. Məhz bu cəhətdən

Qurani-kərimin ayələri insan həyatındakı bu sahəni geniş surətdə əhatə etmişdir.

Oxucunun qarşısında olan bu səhifələr Quran ayələri barədə bəzi düşüncələri özündə ehtiva edir. Həmin düşüncələr ictimai münasibətlər, bu münasibətlərin yönləndirilərək ən yetkin və mütərəqqi mərhələyə çatdırılması, eləcə də eqoizm, təəssübkeşlik və təsir atına düşmə kimi amillərdən xilas olmaq mövzularından bəhs edən Qurani-kərimin bəzi ayələri barədə söylədiyim mühazirələrdən ibarətdir.

Ümid edirəm ki, bu düşüncələrin nəşr edilməsi ictimai maarifləndirmə yolunda müəyyən rol oynayacaq. Müvəffəqiyyət bəxş edən isə Allahdır!

Həsən Səffar

24 zilhiccə 1440 h.q

27 iyul 2019.

## Birinci fəsil

## “Quran barəsində düşünməzlərmi?”

Quranı düşünmək ayələrin mənasını düşünmək və məzmununu dərk etməkdir. Ərəb dilində buna “tədəbbür” deyilir. Yəni bir şeyin arxasında gizli qalan həqiqəti anlamaq. Bu söz bir şeyin arxası mənasında olan “dubrun” sözündən götürülmüşdür.

Qurani-kərimdəki: **“Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?”**[2] – ayəsi Quran ayələrini eşidən, onu tilavət edən, lakin məzmun və məqsədinə varmayan münafiqlərdən bəhs edən ayələr sırasında nazil olmuşdur. Ayənin orijinalında qeyd edilən “əqfal” (kilidlər) sözü əslində qayıtmaq mənasını bildirən “quflun” və ya quru əşya mənasını bildirən “qəfil” sözündən götürülmüşdür. Çünki insanlar qapını bağladıqda ona qıfıl vurur və həmin evə gələn hər kəs qıfılı gördükdə geri qayıdır. Həmçinin, qapıya vurulan qıfıl açılması çətin olan möhkəm bir şeydən olur ki, başqalarının evə daxil olmasına mane olsun. Məhz bu cəhətdən sözü gedən kəlmə bilginin həqiqətindən uzaq olan insanın qəlbini ifadə etmək üçün istiarədir. Allah həmin şəxsin qəlbini möhürləmiş və qıfıllamışdır. Artıq həmin adamın qəlbi Quranın mənasını və əzəmətini qəbul edə bilmir.

Qəfil sözü isə quru bitki mənasındadır. Artıq həmin bitki nə günəşin şüalarından, nə də havadan faydalana bilmir. Burada isə bu söz istiraə edilərək Rəbbinin kitabına biganə yanaşan, mənasını düşünməyən

[2] Muhəmməd surəsi, ayə 24.

və ayələrinin məqsədini anlamayan qəlb mənasındadır. Bu cür qəlb sanki quru bir ağacdır, öz gözəlliyini və qüvvətini itirmişdir, ətrafındakı torpaqdan, sudan və işıqdan istifadə etmək qabiliyyətini artıq itirmişdir.

Bu məzmunda ən-Nisa surəsində belə buyurulur: **“Onlar Quran barəsində (onun Allah kəlamı olması haqqında) düşünməzlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (ixtilaf, uyğunsuzluq) tapardılar”** *(ən-Nisa, 82)*.

Qurani-kərimi düşünməyin, ondan öyrənməyin zəruriliyinə işarə edən ayələrə gəlincə, həmin ayələr Quranın böyük hissəsini əhatə edir. Allah-təala buyurur: **“(Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!”** *(Sad, 29)*

**Səthi qiraət**

Müsəlmanların əksəriyyəti Quranı oxuyur və onu böyük tuturlar. Lakin çox təəssüflər olsun ki, bu qiraət sadəcə oxunuş səviyyəsində qalır və səthidir. Belə qiraətlə Quranın mənasına və məzmununa nufuz edilmir. Məhz bu cəhətdən müsəlmanların həyatı çox vaxt Quran ayələri ilə aşkarcasına təzad təşkil edir. Müsəlmanlar Quranı oxuyurlar, lakin Quranın göstərişlərinə cavab vermirlər. Çünki Quranın göstərişlərindən təsirlənməyin birinci mərhələsi ayənin mənasını başa düşməkdir. Quran oxuyan şəxs ayənin mənası barədə düşünməlidir ki, ayənin onu yönəltmək istədiyi nəticəyə çata bilsin. Çünki tədəbbür (düşünmək) bir şeyin arxasındakını görüb dərk etməkdir. Lakin insanların əksəriyyəti ayələrin mənalarını anlamq üçün zəhmətə qatlaşmaq istəmirlər. Quranı yalnız yas

mərasimlərində, namazda və ya dini münasibətlərdə oxuyurlar. Lakin bu cür qiraətin demək olar ki, düşünmədən Quran oxuyanların real həyatında heç bir təsiri yoxdur. Bunun başlıca səbəblərindən biri onların Quranı anlamadan oxumalarıdır. Bu hal insanın bilmədiyi hər hansı bir dildə olan sözləri oxumasına bənzəyir. Necə ki, ərəb olmayan biri mənasını anlamasa da ibadətdən dolayı Quranı oxuyur.

**Qurani-kərimin ayələrini başa düşə bilərikmi?**

Belə bir fikir formalaşıb ki, adi insan Qurani-kərimin mənalarını başa düşə bilməz. Məhz alimlər və təfsirçilər Qurani-kərimin mənasını anlaya bilərlər. Bu düşüncə insanlarla Qurani-kərimi düşünmək arasında böyük uçurum yaratmışdır. Bu səhv düşüncədir. Qurani-kərim insanları, həm də bütün insanları onu düşünməyə  və fikirləşməyə səsləyir. Allah-təala buyurur: **"(Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"** *(Sad, 29)* Qurani-kərim yalnız ayələrini üzündən oxumaq və təbərrük etmək üçün nazil olmamışdır. Qurani-kərim məhz onu düşünmək, ayələrinin mənasını anlamaq və sözlərinin arxasındakı həqiqətləri dərk etmək üçün nazil olmuşdur. Ola bilər bəziləri desin ki, Quran ayələrinin mənası mürəkkəbdir və biz onu başa düşə bilmirik. Bu sözdə nisbətən doğruluq var. Çünki Qurani-kərimlə bizim aramızda dil baryeli var. Hətta bu dili bilənlər üçün Quranın bəzi kəlmələrinin mənaları doğru anlaşılmır. Lakin bu hal Qurani-kərimin, sadəcə, bəzi kəlmələri və ayələrinə aid ola bilər, bütünlüklə Quranın hamısına şamil deyildir. Qurani-kərim bu fikri inkar edərək buyurur: **"And olsun ki, Biz Quranı (ondan) ibrət almaq (öyüd-**

**nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?!"** *(əl-Qəmər, 17)* Qurani-kərim mürəkkəb, qaranlıq və çətin deyil. Bu ayə Qəmər surəsində dörd dəfə təkrar olunmuşdur. Allah-təala başqa bir ayədə buyurur: **"Bu, (belə əhvalatlar) insanlardan (xalqdan) ötrü (olub keçənlərə dair) bir xəbər, müttəqilərdən ötrü isə hidayət (doğru yola göstəriş) və nəsihətdir"** *(Ali-İmran, 138)*. Quran insanların sadəcə müəyyən bir hissəsini təşkil edən alimlər üçün deyil, bütün insanlar üçündür. Məhz buna görə də İmam Zeynulabidin (ə) buyurub: *"Quranın ayələri xəzinələrdir. Hər dəfə bir xəzinə açdıqda onun içində nə olduğuna baxmalısan"*.[3]

Bəli, şəriət hökmlərindən bəhs edən ayələri araşdırıb şəriət hökmlərini istinbat etmək istəyən insanlar müəyyən bacarığa və bilgilərə sahib olmalıdırlar. Lakin şəriət hökmlərindən bəhs edən bəzi ayələr belə, aydın olduğu üçün adi insanlar tərəfindən də başa düşüləndir. Hədislərin birində Əbdüləla Mövla Ali Salim belə nəql edir: *"İmam Cəfər Sadiqə (ə) dedim: "Yol gedərkən yıxıldım və dırnağım sındı. Barmağımın üzərini sarımışam. Dəstəmaz alarkən necə edim?" İmam Cəfər Sadiq (ə) buyurdu: "Bu və buna bənzər məsələləri Allahın kitabından öyrənə bilərsən. Allah-təala buyurur:* ***"(Allah) dində sizin üçün heç bir çətinlik yeri qoymadı..."***[4] *Sarğının üzərindən məsh çək"*.[5]

Bu hədisdə İmam Sadiq (ə) sual soruşan şəxsə təkcə həmin məsələnin hökmünü deyil, ona bənzər məsələlərin də hökmünü istinbat etməyin yolunu öyrədir. Hər bir müsəlman **" (Allah) dində sizin üçün heç**

---

[3] Muhəmməd bin Yəqub Kuleyni, əl-Kafi, c. 2, səh. 906, hədis 2.
[4] əl-Həcc, 78.
[5] Məhəmməd bin Həsən Tusi, Təhzibul-əhkam, c. 1, səh. 363, hədis: 1097.

**bir çətinlik yeri qoymadı”** qaydasını əsas götürə bilər. Allah-təala yerinə yetirilməsi insan üçün çətinlik yaradan hər hansı bir dini hökmün həmin tərzdə yerinə yetirilməsini əmr etmir. Belə bir halda insanın vəzifəsi həmin hökmü ona çətinlik yaratmayan tərzdə yerinə yetirməkdir. Şeyx Tusi “Məcməul-bəyan” kitabında düşünməyə əmr edən ayənin təfsirində belə deyir: *“Bu ayə “Quranın zahirini hədisə istinad etmədən təfsir etmək icazəli deyil” deyənlərin sözlərinin yanlış olduğuna dəlalət edir”.*[6]

Qurani-kərim üzündən oxunuş üçün deyil, tətbiq olunmaq üçün nazil olduğunu vurğulayır. Qurani-kərim bəşəriyyətə xoşbəxtlik bəxş etmək, bəşəriyyəti ilahi rəhmətdən qovulmuş Şeytanın pəncəsindən, maddi aləmə bağlılığın qandallarından, yer üzərində təkəbbürlükdən, cəhalətdən, gerilikdən və həvayi-nəfsə uymaqdan xilas etmək üçün nazil olmuşdur.

**Quranı düşünmək hamıdan tələb olunur**

**“Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?”**[7] – ayəsi müəyyən bir qrupu ayırmadan bizim hamımıza Allahın kitabını düşünməyi əmr edir. Bununla da Quranın bütün insanlar üçün göndərilmiş olduğunu bəyan edir. Bütün insanlara vacibdir ki, Quranı düşünsünlər, onun xəzinələrini üzə çıxarsınlar və onun kölgəsində kölgələnsinlər. Əgər real vəziyyətimizə nəzər salsaq, görərik ki, Quranı düşünməyimiz, sivilizasiyadan əldə etdiyimiz nəsibimiz qədər zəif səviyyədədir. Bu Allah-təalanın sünnələrindən (varlıq aləmində təyin etdiyi qayda-qanunlardan) biridir. Allah-təala buyurur: **“Əgər o**

---

[6] Şeyx Tusi, Məcməul-bəyan, c. 9, səh. 174.
[7] Muhəmməd surəsi, ayə 24.

**məmləkətlərin əhalisi iman gətirib (pis əməllərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq (göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq). Lakin onlar (öz peyğəmbərlərini) yalançı hesab etdilər, Biz də onları qazandıqlarına (qazandıqları günahlara) görə məhv etdik"** *(əl-Əraf, 96).* Əgər biz öz vəziyyətimizlə başqa ümmətlərin vəziyyətini müqayisə etsək, bir çox sahədə İslamdan uzaq olan müsəlmanlar olduğumuzu görəcəyik. Halbuki bizdən başqaları müsəlman olmadıqları halda İslamın təkid etdiyi qaydaların çoxunu tətbiq edirlər və bizdən fərqli olaraq İslamın tələb etdiyi vəziyyəti yaşayırlar. Çünki biz onların həyatın hər bir sahəsində düşüncəyə, təfəkkürə önəm verdiklərini görürük. Onlar böyük kəhkəşanlar barəsində düşündükləri kimi kiçik zərrə barəsində də düşünür, Quranın bizə düşünülməsini əmr etdiyi varlıq aləminin qanunlarını kəşf edir, Quranın dəvət etdiyi işlərin nizama salınması, insan övladına hörmətlə yanaşmaq və məsuliyyət daşımaq kimi davranış qaydalarını tətbiq edirlər. Bu sözlər onları mütləq surətdə tərifləmək anlamında deyil. Lakin biz yaşadığımız aləmə real olaraq nəzər salmalıyıq. Qurani-kərimin bizə əmr etdiyi kimi yaxşını götürməli və pis olanı tərk etməliyik.

Biz Qurani-kərimin ayələrinə yaxınlaşmalı, Quran ayələrini anlamaq qüdrətimizin olması ilə bağlı özümüzə inanmalı və Quranı real həyatımıza tətbiq etməliyik. Allah-təala bizi bu işə səsləyir və bu işdə bizə kömək olacaqdır. Allah-təala buyurur: **"And olsun ki, Biz Quranı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?!"** *(əl-Qəmər, 17)*

Qurani-kərimin məzmunu barədə düşünmək və fikirləşmək vasitəsilə aşağıdakı müxtəsər olaraq qeyd etdiyimiz hədəflərə çata bilərik:

– Quranı düşünmək onun ayələrindən faydalanmaq və təsirlənməkdir: **“Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar (belə) deyirlər: “Ey Rəbbimiz! Biz iman gətirdik, bizi (haqqa) şahid olanlarla bir yerə yaz!”** *(əl-Maidə, 83)*

– Quranı düşünmək onun dəyərlərini anlamaq və dəvət etdiyi prinsipləri fikirləşməkdir: **“Ey kitab əhli! Sizə kitabda (Tövratda və İncildə) gizlətdiyiniz şeylərin bir çoxunu bildirən, bir çoxunu da sizə bağışlayıb üstünü vurmayan (və ya sizdən bir çoxunu bağışlayan) Peyğəmbərimiz gəldi. Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab (Quran) gəldi. Allah Öz lütfünə sığınanları onunla (Peyğəmbər və Quran vasitəsilə) əmin-amanlıq (sülh) yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!”** *(əl-Maidə, 15,16)*

– Quranı düşünmək Quran yolu ilə insani problemlərin həll olunmasıdır. **“Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik. O, zalımların (kafirlərin) ancaq ziyanını artırır”** *(əl-İsra, 82).*

– Quranı düşünmək onda olanlara əməl etməkdir. **“(Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!”** *(Sad, 29)*

## Tərk olunmuş Quran

Allah-təala buyurur: **“Peyğəmbər də “Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!” – deyəcək”** *(əl-Furqan, 30).* Bu mübarək ayədə Rəsulullah (s) qövmünün Qurani-kərimi tərk etməsindən dolayı Allah-təalaya şikayət edir. Ayənin orijinalında “ittəxəzu” sözünün işlədilməsi göstərir ki, Quranı tərk etmək onların Qurani-kərimlə davranış tərzidir.

Təfsir alimləri bu ayənin bəhs etdiyi zamanla bağlı, yəni bu şikayətin Peyğəmbərin (s) zamanında baş vermiş olması, yaxud Peyğəmbərin (s) qiyamət günü Allah-təalaya belə şikayət edəcəyi xüsusunda fərqli fikirdədirlər. Bəzi təfsirçilər deyirlər ki, Rəsulullah (s) qövmünə Quran oxuyur, onlar isə təkəbbürlük göstərərək Qurana qulaq asmaqdan imtina edirdilər. Allah-təala bu barədə buyurur: **“Kafir olanlar (öz dostlarına): “Bu Quranı dinləməyin, o oxunduqda (eşidilməsin deyə) səs-küy (şuluqluq) salın ki, bəlkə, (bununla Muhəmmədə) qalib gələsiniz!” – dedilər”.** *(Fussilət, 26)*

Lakin bir qrup təfsirçilər bu şikayətin qiyamət günü olacağı fikrini əsas tuturlar. Ayənin orijinalında “qalə” (dedi) feli keçmiş zaman feli olsa da, gələcək zamanda baş verəcək bir şeyin, həqiqətən də, olacağına dəlalət edir. Bu, gələcəkdə baş verəcək bir hadisənin artıq baş vermiş kimi təqdim edilməsi (yəni, baş verəcəyinə şübhə yoxdur)  anlamındadır. Bu mənanı məhz qeyd olunan ayənin ümumi kontekstindən əldə edə bilərik. Allah-təala buyurur: **“O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: “Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutardım; Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim; And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı.**

**Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər). Peyğəmbər də "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" – deyəcək"** *(əl-Furqan, 28-30).*

Hədislər də bu məsələni təkid edir və Quranı tərk edənləri pisləyir. Fəzl bin Şazan deyir ki, İmam Rzanın (ə) dəfələrlə belə dediyini eşitdim: *"Əgər kimsə desə ki, nə üçün (möminlərə) namazda Quran surələri oxumaları əmr olunub? Cavabında belə deyilər: "Quran tərk olunmasın və itməsin, Quran insanların arasında qorunsun və aradan getməsin deyə".*

İmam Baqir (ə) belə deyir: *"Rəsulullah (s) buyurub: "Qiyamət günü yenilməz qüdrət sahibi olan Allahın hüzuruna ilk olaraq mən, Allahın kitabı və mənim əhli-beytim gələcək. Sonra ümmətim gələcək. Sonra mən onlardan soruşacam ki, Allahın kitabına və əhli-beytimə nə etdiniz?"*

İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: *"İnsanın oxuyub sonra tərk etdiyi Quran surəsi onunla birlikdə olar. Qiyamət günü həmin surə ən gözəl surətdə gələr və ona salam verər. Adam ondan soruşar: "Sən kimsən?" Surə ona deyər: "Mən filan surəyəm. Əgər sən mənə əməl edib məndən yapışsaydın, səni bu dərəcədə qərarlaşdırardım".*

Quranı tərk etməyin müqabilində ona əhəmiyyət göstərmək və önəm vermək dayanır. Aşağıdakı iki cəhəti mülahizə etmək olar:

**Quranın tilavətini və hifzini tərk etmək**

Bəzi insanlar var ki, Qurana olduqca böyük ehtiram göstərir, hər vaxt Quran tilavət edir, əzbərləməyə və insanlar arasında Quranı yaymağa çalışırlar. Bu vəziyyət Qurana önəm verməyin ən bariz nümunəsidir. Buna əks olaraq, Qurana hörmətlə yanaşmayan, onu oxumayan, düşünməyən, ondan heç bir şeyi əzbər bilməyən şəxslər vardır. Buna əsasən də

müsəlman şəxs Qurani-kərimi oxumaq üçün müəyyən gündəlik vaxt ayırmalıdır. Ata-babalarımız bu üsluba riayət etmişdir. Biz də övladlarımızı bu minvalla tərbiyə etməliyik. Bir hədisdə İmam Sadiqin (ə) belə buyurduğu nəql olunur: *"Sizlərdən bazarda alış-verişlə məşğul olan bir tacirin evinə dönərkən gecə yatmamış Qurandan bir surə oxumasına heç nə mane olmaz. Onun oxuduğu hər ayəyə on savab yazılar və onun on günahı silinər".* Beləcə, insan Allah zikri ilə məşğul olaraq yatır. Həmçinin, bu qiraət onun gün ərzində yaşadığı və sabah arzulayacağı şeyləri anlamasına kömək edir. Quranı açmadan və onu dinləmədən günlər və həftələri ötürən kəs Quranı tərk etmiş hesab olunur. Qiyamət günü Peyğəmbər (s) onun qarşısında dayanıb deyəcək: Nə üçün yatmaq, yemək-içmək, görüşlər keçirmək, seyr etmək və dinləmək kimi gündəlik işlərini tərtibləyib öz vaxtından Quran üçün bir pay ayırmadın?! Nə üçün Quran oxumadın?! Nə üçün Quran dinləmədin?!

Bəzi insanlar düşünmədən Quran oxumağın faydasız olduğunu iddia edir. Onların iki növ Quran tilavəti ola bilər: səthi tilavət və dərin tilavət. Qurani-kərimin bir necə məqsəd üçün oxunulması mümkündür.

**Qurani-kərimin mənasını düşünməyi tərk etmək**

Bəlkə də bu əsr Qurani-kərimə diqqət yetirilməsi baxımından ən parlaq əsrdir. Bu diqqətin təzahürləri müxtəlif çalarlarda geniş şəkildə özünü göstərir. Hal-hazırda 25-dən çox radio dalğasında Qurani-kərim tilavəti və Quranla bağlı verlişlər yayımlanır. Bu, Səudiyyə, İran, Misir, Mərakeş, Əlcəzair, Tunis, İordaniya, Sudan, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt və Bəhreyn kimi ölkələrdə geniş yayılıb.

Qurani-kərim müxtəlif dillərdə və çoxsaylı tirajlarla çap olunur. Kral Fəhd adına "Qurani-kərimin çapı" cəmiyyəti dünyada mətbəə müəssisələri içərisində ən böyüklərindəndir. Bu müəssisənin ümumi sahəsi 2250000 kv/m ərazini əhatə edir. Orada iki min insan işləyir. Burada illik 13 milyon tirajla müxtəlif ölçülərdə kitab çap olunur. Müəssisənin indiyədək çap etdiyi Quran nüsxələrinin sayı 320 milyon tirajdan çoxdur. Burada Qurani-kərimin 78 dildə tərcüməsi çap olunmuşdur.[8]

Bu əsrdə elə yaradıcı qarilər vardır ki, öz qiraətləri və incə səsləri ilə qəlbləri fəth etmişlər. Həmçinin, minlərlə, hətta on minlərlərlə Quran hafizləri vardır. Müxtəlif İslam ölkələrində Qurani-kərimin əzbərlənməsi müsabiqələri keçirilir. Qurani-kərimin təlimi və əzbərlənməsi üçün mədrəsələr və mərkəzlər təsis olunmuşdur. Son zamanlarda "Rabitətul-aləmil-İslami" mərkəzinin nəzdində Qurani-kərimin əzbərlənməsi heyəti təsis edilmişdir. Bu heyətin Qurani-kərimin əzbərlənməsi üçün geniş miqyaslı proqramı vardır. Bu heyət 65 dövlətdə Quran məktəbləri və təlim ocaqları, Quran təlimi məqsədli 72 institut təsis etmişdir. Həmin institutlarda yüz minlərlə qız və oğlan tələbələr oxuyurlar. Bu mərkəzin Quran hafizlərinin sayı dünya ölkələri üzrə 63 mindən çoxdur.[9] Bununla yanaşı, Qurani-kərimlə bağlı çoxlu sayda müəssisələr və mərkəzlər vardır. Şübhəsiz ki, Allah-təalanın müqəddəs kitabına bu kimi diqqətin göstərilmməsi, əhəmiyyətin verilməsi müsəlman şəxsin qəlbinə sərinlik gətirir, iftixar və fərəh hisləri aşılayır. Lakin meydana belə bir sual çıxır: Bu kimi əhəmiyyətli fəaliyyətlər müsəlmanların vəzifəsini və Qurani-

[8] əl-Mədinə qəzeti, 13 iyul, 2019.
[9] əl-Cəzirə qəzeti, 21 iyun, 2019.

kərim qarşısında daşıdıqları məsuliyyəti tamamilə əhatə edirmi? Bu kimi fəaliyyətləri yerinə yetirməklə Rəsulullahın (s) öz qövmünün Quranı tərk etməsi ilə bağlı Rəbbinə etdiyi şikayətin əhatə dairəsindən çıxırlarmı?

**Quranı tərk etdilər...**

Qurani-kərim bizə xəbər verir ki, Rəsulullah (s) Rəbbinin qarşısında insanların Quranı tərk etməsini xəbər verəcəkdir. Allah-təala buyurur: **"Peyğəmbər də "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" – deyəcək"** *(əl-Furqan, 30).* Ayənin orijinalında "ittəxəzu" sözünün işlədilməsi göstərir ki, Quranı tərk etmək onların Qurani-kərimlə davranış tərzidir.

İnsanın ona göndərilmiş bir məktubla davranışı həmin məktubu göndərən şəxsin onun yanındakı məqamından asılıdır. Əgər məktub göndərən onun nəzərində əhəmiyyətli biridirsə, onun göndərdiyi məktuba son dərəcə böyük əhəmiyyət verəcəkdir. Əgər məktub göndərən onun nəzərində adi insandırsa, onun göndərdiyi məktubun aqibəti biganəlik və laqeydlik olacaqdır. Biz məsəlman olaraq Qurani-kərimin Allah-təala tərəfindən bizə və bütün insanlara göndərilmiş risalət və mesaj olduğuna etiqad edirik. Bizi yaradan, bizə ruzi bəxş edən, həyatımız və ölümümüz əlində olan Allahın lütf edərək bizə göndərdiyi risalətə necə laqeyd münasibət bəsləyə bilərik?!

Bu risalət (Quran) aləmlərin Rəbbinə xidmət üçün hər hansı tələbləri ehtiva etmir. Çünki Allah bütün aləmlərdən zəngindir. Bu risalə nur və hidayət yoludur. İnsanın həyat yoluna işıq saçır, onu xeyrə və xoşbəxtliyə yönləndirir. **"Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) ən doğru yola (islama) yönəldir..."** *(əl-İsra, 9)*

Bəs görəsən böyük bir mənbədən gələn bu böyük risaləyə qarşı laqeyidliyin səbəbi nədir?!

### Qurani-kərimin məzmunu və üslubları

Qurani-kərimin iki tərəfi vardır: Forması – Qurani-kərimin içində olan ayələr və sözlər məcmusu. Məzmunu – Qurani-kərimin ayələrinin ehtiva etdiyi dəyərlər, üslublar, qanun və qaydalar.

Əgər yalnız tilavət, hifz, təfsir və Quranın nəşri baxımından Quranın kəlmələri və sözləri kimi yalnız surətinə diqqət etmək tələb olunan bir iş olsa da, Quranın məzmununa varmadan, təbliğ etdiyi dəyərlərə əməl etmədən, dəvət etdiyi üslubları həyata keçirmədən, təqdim olunan ilahi hökmləri tətbiq etmədən yalnız bununla kifayətlənmək yetərli deyil. Quranın ayələrini oxumağın və hifz etməyin dəyəri onun vasitəsilə hidayət olunmaq, mənalarını real həyatda tətbiq etmək məqsədindən irəli gəlir. Quranın tilavəti və hifz olunması onun əməli tətbiqindən kənar olarsa, bu, Allah-təalanın qəzəbinə səbəb olar. Qurani-kərimin ayələri, hədislər və rəvayətlər bu məsələni aşkarcasına bəyan edir.

Qurani-kərim onun ayələrini oxuyub, lakin xeyirli dəyərlərinə əməl etməyənləri şiddətlə qınayır. Allah-təala buyurur: **“Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki özünüz kitab (Tövrat) oxuyursunuz. Məgər (çirkin əməllərinizi) başa düşmürsünüz?”** *(əl-Bəqərə, 44)*

Qurani-kərim əvvəlki dinlərin adıcıllarının bir-birini ittiham etmələrini, müqəddəs kitablarında oxuduqları əxlaqi dəyərlərə riayət etməmələrini pisləmişdir. Allah-təala buyurur: **“Yəhudilər dedilər:**

**“Xaçpərəstlər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər”. Xaçpərəstlər də: “Yəhudilər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər “, -söylədilər. Halbuki onların hər ikisi kitab (Tövrat və İncil) oxuyur...”** *(əl-Bəqərə, 113)*

Qurani-kərim bəşəriyyətin inkişafı və xoşbəxtliyi üçün ən üstün proqramı özündə ehtiva edir. Bu Qurana əsaslanan, onu daşıyan bir ümmət Quranın məfhumlarını yaşadan reallığı ilə elə bir ideal cəmiyyət nümunəsi təqdim etməlidir ki, başqa ümmətləri özünə tərəf cəlb edə bilsin və onları Quran yoluna cəzb etsin. Lakin, doğrudan da, təssüflər olsun ki, Qurani-kərimin hidayəti ilə ümmətin reallığı arasında böyük bir uzaqlaşma vardır. Ümmət Quranın nurundan və hidayət edən şüalarından istifadə etməyərək həyatın bir çox sahələrində gerilik və bədbəxtlik yaşayır. Bu isə Qurani-kərimin nəql etdiyi kimi yəhudilərin vəziyyətinə bənzəyir. Allah-təala onlara Tövratı nazil etmişdi. Lakin onlar Tövrat qarşısında öz məsuliyyətlərini yerinə yetirmədilər. Allah-təala buyurur: **“Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər (Tövrata yükləndikdən sonra onu daşımayanlar, Tövrata iman gətirdikdən, onu oxuyub öyrəndikdən sonra hökmlərini lazımınca yerinə yetirməyənlər) belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) ulağa bənzərlər...”** *(əl-Cumuə, 5)*

Ulaq daşıdığı elm və mərifət yükündən bir şey istifadə edə bilərmi? Ulaq fəhm qabiliyyətinə sahib deyil. Onun belə bir istifadəyə imkanı da yoxdur. Həmçinin, ilahi kitablardan və səmavi risalətlərdən ən üstününü daşıyan, lakin tətbiq və əməl iradəsinə sahib olmayan ümmətin vəziyyəti də belədir. Allah-təala buyurur: **“Və ayələrimiz ona oxunduğu zaman**

**onları eşitmirmiş, qulaqlarında ağırlıq (karlıq) varmış kimi təkəbbürlə arxasını çevirər. (Ya Rəsulum!) Sən də ona şiddətli bir əzabla (axirətdə cəhənnəm odunda yanacağı ilə) müjdə ver!”** *(Loğman, 7)*

Başqa bir ayədə buyurur: **“O, Allahın ayələrinin özünə oxunduğunu eşidir, sonra guya onları eşitmirmiş kimi (Allahın əmrinə qarşı) təkəbbür göstərərək (küfründə) israr edib durur. (Ya Peyğəmbər!) Beləsinə şiddətli bir əzabla müjdə ver!”** *(əl-Casiyə, 8)* Doğrudur, bu ayələr İslamı qəbul etməkdən imtina edən kafirlərdən bəhs edir. Lakin eyni zamanda Qurani-kərimə qarşı nadanlıq nümayiş etdirmək və ona müxalif çıxmaqda israr etməklə mənfi davranışdan bəhs edir. Bu xüsusiyyəti daşıyan kəs özünü müsəlmanlardan və möminlərdən hesab etsə də Allahın şiddətli əzabına layiqdir.

Qurani-kərimə əməl etməkdə laqeyidlik göstərməkdən və yalnız Quranın zahirinə əhəmiyyət verməkdən çəkindirən hədislərə və rəvayətlərə gəlincə, bunlar olduqca çox saydadır. Həmin rəvayətlərdən bəzilərini qeyd edirik:

İbn Kəsir **“Verdiyimiz kitabı layiqincə (təhrif etmədən) oxuyanlar”**[10] ayəsinin təfsirində İbn Abbasdan və Abdullah bin Məsuddan bunun “layiqincə əməl etmək” mənasında olduğunu nəql etmişdir.[11]

---

[10] Bəqərə surəsi, ayə 121.
[11] İsmayıl bin Kəsir Qurəşi Diməşqi, “Təfsirul-Quranil-azim”, c. 1, səh. 314, 315.

Ənəs bin Malik Rəsulullahın (s) belə buyurduğunu nəql edir: *"Quran tilavətlə, elm isə nəql etməklə deyil. Quran hidayətlə, elm isə anlamaqladır"*.[12]

İbn Ömər belə nəql edir: *"Quranı oxu ki, səni pis əməllərdən çəkindirsin. Əgər səni pis əməllərdən çəkindirmirsə, Quran oxumamısan"*.[13]

Rəsulullahdan (s) nəql olunan bu hədis nə qədər dəhşətlidir! Rəsulullah (s) buyurub: *"Nə qədər Quran oxuyan vardır ki, Quran ona lənət edir"*.[14] Lakin bu hədis aşkar bir həqiqəti izah edir: kim Allah-təalanın bu ayəsini: **"Bilin ki, zalımlar Allahın lənətinə gələcəklər!"**[15] – oxuyub sonra da zülm edirsə; kim Allah-təalanın bu ayəsini: **"Sonra (Allaha) dua edib yalançılara Allahın lənət etməsini diləyək!"**[16] – oxuyub bilərəkdən yalan söyləyirsə, həmin şəxs və ona bənzər olanlar bu hədisin əhatə dairəsində olanlardır.

İmam Cəfər Sadiqin (ə): **"Verdiyimiz kitabı layiqincə (təhrif etmədən) oxuyanlar həmin kitaba iman gətirənlərdir... "**[17] – ayəsinin təfsiri barədə belə buyurduğu nəql olunur: *"Ayələrini tərtillə oxuyarlar, onunla dində anlayışlarını artırarlar, hökmlərinə əməl edərlər, vəd etdiyi mükafatları arzulayarlar, vəd etdiyi cəzalardan qorxarlar, əhvalatlarından ibrət alarlar, əmrlərinə əməl edərlər, qadağalarından çəkinərlər. Allaha and olsun ki, layiqincə oxumaq Quranın ayələrini*

---

[12] Əlauddin Əli Muttəqi, "Kənzul-ummal", hədis 2462.
[13] Əlauddin Əli Muttəqi, "Kənzul-ummal", hədis 2776.
[14] Məhəmməd Baqir Məclisi, "Biharul-ənvar", c. 89, səh. 185.
[15] Hud surəsi, ayə 18.
[16] Ali İmran surəsi, ayə 61.
[17] Bəqərə surəsi, ayə 121.

*əzbərləmək, hərflərini öyrənmək, surələrini üzündən oxumaq, onda birini və beşdə birini öyrənmək deyil. Quranın hərflərini qoruyub mənalarını itirdilər. Layiqincə oxumaq ayələrini düşünmək və hökmlərinə əməl etməkdir. Allah-təala:* ***"(Ya Peyğəmbər! Bu Quran) sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"***[18] *– deyə buyurur".*[19]

İmam Sadiqin (ə) *"Quranın hərflərini qoruyub mənalarını itirdilər"* sözü çox dərin mənalı sözdür. Bu söz Quranın zahirinə əhəmyyət verməklə onun dəyərlərinə və təlimlərinə əməl etmək arasında fərq qoyur.

**Həyat proqramı**

Qurani-kərim insanın qiraətinə qulaq asmaq üçün sırf ədəbi nəsr mətni deyil. Quran insanın müşahidə etməyə həvəs göstərdiyi elmi eksponat deyil. Quran insanın tilavət edərək təbərrük götürdüyü zikrlər və virdlər məcmusu deyil. Qurani-kərim bütün bunların fövqündə olan hidayət mesajı, həyat proqramı, fəaliyyət düsturu, quruculuq və islahat layihəsidir.

Müsəlman olan şəxs hər bir Quran ayəsi ilə əmələ dəvət və mükəlləfiyyət qərarı əsas etibarı ilə davranmalı, həyatını formalaşdırmalı, Quranın hidayəti işığında və göstərişləri əsasında yaşayışını tənzimləməlidir.

Ümmətin Qurani-kərimə qarşı tələb olunan diqqəti onun Quranı həyatın müxtəlif sahələrinə hakim etməsi, Quranın dəvətini qəbul etməsi

---

[18] Sad surəsi, ayə 29.
[19] Vəram bin Əbu Firas, Tənbihul-xəvatir və nuzhətun-nəvazir, c. 2, səh. 236.

və müxtəlif sahələrdə Quranın metodlarını və qanunlarını tətbiq etməsidir. Əgər ümmət Quranın metodlarından üz çevirərsə, Quranın dəyərləri onun həyatından uzaq olarsa, onun hökmlərini başqa qanunlarla əvəzləyərsə, məhz bu vəziyyət Quranı tərk etməyin göstəricilərindəndir. Belə olduqda Qurana zahiri, formal diqqət yetirmək Allah qarşısında ümmətə fayda verməyəcəkdir. Həmçinin, ümmət Quranın hidayətindən əməli surətdə faydalanmazsa və Quran ayələrini icra və tətbiq etməzsə Quranın həqiqi dəyərlərindən faydalana bilməyəcəkdir.

Əgər ümmətin bugünkü reallığına nəzər salsaq, Quran ayələrinin səslədiyi dəyərlərin və meyarların işığında ümmətin vəziyyətini tədqiq etsək, Quranın prinsipləri ilə ümmətin yaşayışının reallığı arasında böyük fasilə və geniş uçurum olduğunu görərik.

**Kainat kitabına nəzər salmaq**

Ümmətin reallığı ilə Quranın dəvəti arasındakı fərqləri görən şəxsin qarşılaşdığı ilk məsələlərdən biri kainat və təbiətlə davranış məsələsidir. Belə ki, Qurani-kərimin ayələrinin əksəriyyəti kainat kitabına nəzər salmağa, kainatın sirlərini aşkar etməyə və kainatın hərəkətinə hakim olan qanunları öyrənməyə dəvət edir. Çoxlu sayda Quran ayələri təbiət təzahürlərinin adlarını və təbiətdəki varlıqların adlarını özündə ehtiva edir. Bu isə təbiət və kainat mövzularına əhəmiyyət verilməsinə aşkar işarədir. Belə ki, Quran surələrinin bəzilərinin bu adlarda olduğunu görürük: Bəqərə (inək), Ənam (davar), Rəd (göy gurultusu), Nəhl (bal arısı), Kəhf (mağara), Nur (işıq), Nəml (qarışqa), Ənkəbut (hörümçək), Duxan (tüstü), Tur (dağ), Nəcm (ulduz), Qəmər (ay), Hədid (dəmir), Cinn (cinlər), İnsan, Təkvir (bükülmə), İnfitar (parçalanma), İnşiqaq (yarılma),

Buruc (bürclər), Fəcr (dan yeri), Şəms (günəş), Leyl (gecə), Duha (səhər və ya səhər işığı), Tin (əncir), Ələq (laxtalanmış qan, yaxud ana bətninə yapışmış rüşeym), Əsr (axşam çağı), Fələq (sübh), Nas (insanlar).

Qurani-kərimdə insana dəfələrlə təbiət və kainat məsələləri barədə düşünmək əmr olunur. Allah-təala buyurur: **"İnsan hələ bir yeməyinə baxsın! (Görsün ki, ona necə ruzi verdik). Həqiqətən, Biz yağışı bol yağdırdıq. Sonra yeri gözəl yaratdıq (yaxşı yardıq). Belə ki, orada dən (dənli bitkilər) göyərtdik"** *(Əbəsə, 24-27).*

**"Elə isə insan nədən yaradıldığına (bəsirət gözü ilə) bir baxsın! O, axıb tökülən bir sudan (nütfədən) yaradılmışdır. (O su kişilərin) bel sümüyündən, (qadınların isə) köks sümüyündən çıxar!"** (ət-Tariq, 5-7)

**"De: "Bir gör göylərdə və yerdə (Allahın birliyini və qüdrətini sübut edən) nələr var..."** *(Yunus, 101)*

**"Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə (baxmırlar ki) necə ucaldılmışdır? Dağlara (baxmırlar ki) necə dikəldilmişdir? Və yerə (baxmırlar ki) necə döşədilmişdir?"** *(əl-Ğaşiyə, 17-20)*

Qurani-kərimdə təbiətə və kainata bu qədər geniş yanaşma ilk öncə insanın Yaradanın tövhidinə iman gətirməsi, yer üzünü abadlaşdırması və varlıq aləminin mənfəətlərindən istifadə etməsi hədəfini güdür.

İnsan Allahın varlıq aləmindəki xəlifəsidir. Yer üzünün abadlaşdırılması ondan tələb olunan bir vəzifədir. Həyatda olan bütün güclər və imkanlar insanın istifadəsi üçün hazırdır və onun xidmətindədir. Allah-təala buyurur: **"Göylərdə və yerdə nə varsa, hamısını Öz**

**tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!”** *(əl-Casiyə, 13)*

Bu, Quranın dəvətidir. Bəs müsəlmanların bu dəvətə nisbətdə reallıqları necədir? Təbiət elmlərinə və varlıq aləminə münasibətləri necədir? Bu sahədə elmi və əməli nəaliyyətləri hansı səviyyədədir?

Yer üzündə yaşayan ümmətlərin bilgi və elm yolunda bir-birilə rəqabət apardıqları, kəşflər və ixtiralar etdikləri, elmi və texnoloji inkişafda çoxlu nailiyyətlər əldə etdikləri halda Quran ümmətinin öz yerində, sivilizasiya və elmin hərəkətindən kənarda qalması təəssüfedici məqam deyilmi?

İman gətirdiyi Quranı “Oxu!” deyərək bilgiyə dəvət etməklə başlayan, Quranındakı ayələrin çoxu varlıq aləminə nəzər salmağa yönəldən bir ümmət necə ola bilər ki, cəhalət və irtica bataqlığında yaşayır, inkişaf etməkdə olan dövlətlər sırasında yer tutur və üçüncü aləm hesab olunur?

Bəzi statistik məlumatlar göstərir ki, ərəb ölkələrində elmi tədqiqatlar sahəsində çalışan alimlərin sayı hər milyona 136 nəfər düşür. Halbuki Yaponiyada bu say hər milyona 5000 min nəfər, Amerika Birləşmiş Ştatlarında, 4374 nəfər, Avropa Birliyində isə 2439 nəfərdir.

Elmi məhsuldarlıq və nəşriyyatla əlaqədar olaraq, bir sıra araşdırmalar göstərir ki, Amerika Birləşmiş Ştatları kimi bəzi ölkələrin payı qlobal miqyasda nəşr olunan elmi araşdırmaların 35 %-ni təşkil edir, amma bütünlükdə ərəb ölkələrinin bu qlobal elmi nəşrlərdəki payı heç 1%-

i keçmir.[20] Bütünlükdə ərəb ölkələrində 580 mərkəz var ki, bu da dünyada mövcud olan və sayı 8162-ə çatan ümumi mərkəzlərin 7,49 %-ni təşkil edir. Hətta ərəb ölkələri (bu göstərici ilə) daha çox mərkəzə sahib olan iyirmi beş ölkənin siyahısından da kənarda qalmışdır. Halbuki İsrail bu siyahıda 19-cu yerdədir. Elmi araşdırmalara ayrılan maliyyə məsələsində də ərəb ölkələrinin ayırdığı maliyyə son dərəcə aşağıdır. Belə ki, onun ümumi miqdarı 1,7 milyard dollara çatır, yəni ümumdaxili məhsulun 0,3 %-ni təşkil edir. İsrail isə elmi araşdırmalara ümumdaxili məhsulunun 4,7 %-ni xərcləyir. İsveç ümumdaxili məhsulunun 3,3, İsveçrə və Yaponiya isə 2,7 %-ni xərcləyir.[21]

Müsəlmanların başı keçmişdəki şanlı günlərdən dəm vurmağa, mübahisələrə və məzhəb ixtilaflarına, eləcə də səthi, əhəmiyyətsiz maraqlara qarışdığından onlar Quranın təbiət elmlərinə və canlı aləmə aid elmlərə diqqət yetirməklə bağlı açıq-aydın çağırışlarına və sıx-sıx dəvətlərinə maraq göstərmirlər. Halbuki onlar həmin ayələri Quran tilavətinin (televiziya və radiodakı) yayımlarında gözəl təcvidlə oxuyan qarilərdən, həmçinin, müxtəlif məclislər və münasibətlərdə eşitməkdədirlər. Məgər bu, Quranı əməl və tətbiq səviyyəsində tərk etməyin təsdiqi deyilmi?!

**İctimai münasibətlər sistemi**

İnsanlar arasındakı münasibətləri ədalət və yaxşılıq əsasında tənzimləmək Quranın və bütün səmavi dinlərin nazil olmasının ən mühüm hədəflərindəndir. Allah-təala buyurur: **“Biz peyğəmbərlərimizi açıq-**

---

[20] Səudiyyə xəbər agentliyi, 13 zülqədə, 1440-cı il (h.q.) https: // www.spa.gov.sa 1947407.

[21] Elmi araşdırma inkişafın açarıdır, “körfəz haqqında rəylər” saytı.

**aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər”** *(əl-Hədid, 25)***.** Ona görə də Qurani-kərimin ayələrində bu məsələyə diqqət yetirilmiş və insanın həm fərd, həm də cəmiyyət olaraq digər insanlara münasibətlərində riayət etməli olduğu əsas prinsiplər vurğulanmışdır. Bu prinsiplər insanların vahid nəsildən olmalarının və onun fərdlərinin dəyər və hörmət baxımından bərabərliyinin tanınmasından, onların insanlıq ləyaqətindən istifadə etmələrindən, insan azadlığına hörmət edilməsindən və onun mənəvi və maddi hüquqlarının qorunmasından qaynaqlanır. Cəmiyyətin üzvləri ilə onun müxtəlif təbəqələri və qüvvələri arasındakı, sonra da cəmiyyətlə insan ailəsi çərçivəsində digər cəmiyyətlər arasındakı münasibətlərin sağlamlığı Quran ayələri və dini qanunlar üçün əsas bir hədəf və başlıca məqsəd təşkil edir. Bu səbəbdən, Quran ayələrinin böyük bir hissəsi ictimai münasibətlər məsələsini ümumi bir metod və qismən qanun kimi izah etmişdir. Qurani-kərim xalqlar və bəşər sivilizasiyaları arasında tanışlıq və qarşılıqlı hörmət prinsipini vurğulamışdır. Onların aralarındakı münasibət münaqişə və toqquşma münasibəti deyil, əksinə, tanışlıq, birgəyaşayış və dialoq münasibətidir. Allah-təala buyurur: **“... Bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq”**[22]. Quran öz ardıcıllarını fərqli dində olan digər cəmiyyətlərə qarşı, onlar sülh münasibətində olduqları və düşmənçilik etmədikləri halda, ədalət və xeyirxahlıq yolunu tutmağa yönləndirir. Allah-təala buyurur: **“Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan**

[22] əl-Hucurat, 13.

**kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!”** *(əl-Mumtəhinə, 8)* Eyni zamanda, onları başqalarına pislik etməkdən, hətta onlarla dini mübahisə zamanı söhbət və danışıq səviyyəsində onların hisslərini incitməkdən çəkindirmişdir. Allah-təala buyurur: **“Kitab əhlinin zülm edənləri (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!”** *(əl-Ənkəbut, 46)* Həmçinin digər iki ayədə buyurur: **“İnsanlarla xoş danışın”** *(əl-Bəqərə, 83).* **“Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın”** *(əl-Əraf, 85).* İslam cəmiyyəti daxilində isə düşmənçilik və qarşıdurmadan çəkindirmişdir. Allah-təala buyurur: **“Bir-birinizlə çəkişməyin, yoxsa süstləşib zəifləyər və gücdən düşərsiniz”** *(əl-Ənfal, 46).* Habelə, (Quran öz ardıcıllarına) əməkdaşlıq və həmrəyliyi əmr etmişdir. Allah-təala buyurur: **“Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun”** *(əl-Maidə, 2).* Həmçinin, Quran zülmü qadağan etmiş, insanları öz işlərini və problemlərini müzakirə etməkdə məsləhətləşməyə və müştərək olmağa çağırmışdır. Allah-təala buyurur: **“İşlərini öz aralarında məsləhət-məşvərətlə görərlər”** *(əş-Şura, 38).* Eləcə də Qurani-kərim insanları dinləri ilə bağlı ittiham etməyi qadağan edir. Allah-təala buyurur: **“Sizə müsəlman olduğunu bildirən (salam verən) bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: “Sən mömin deyilsən!” – deməyin!”** *(ən-Nisa, 94)* Bundan başqa, Quran bir çox ayədə hər hansı bir maddi və ya mənəvi haqla bağlı həddi aşmamaq barədə xəbərdarlıq etmişdir. Allah-təala buyurur: **“Və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!”** *(əl-Maidə, 87)* Bu səbəbdən, Quranı qəbul edən ümmətin ədalət, azadlıq, ləyaqətə hörmət və hüquqların qorunması

prinsiplərinə riayət edərək ən yaxşı ictimai sabitliyi yaşaması gərəkdir. Lakin ümmətin durumuna daha yaxından nəzər saldıqda onun əksər cəmiyyətlərinin ictimai sabitliyin olmamasından əziyyət çəkdiyi məlum olur. Bunun qarşılığında isə digər cəmiyyətlər plüralizmi qəbul etmək, başqalarının fikrinə hörmətlə yanaşmaq və ictimai məsələlərdə əlbir olmaq nəticəsində bir növ sabitlik əldə edirlər. Qurani-kərim ümmətin birliyinə çağırır və vəhdətə səsləyən ayələr gecə-gündüz müsəlmanların qulağına oxunur. Eynilə Allah-təalanın bu sözü kimi: **"Bu (tövhid dini İslam) tək bir din olaraq sizin dininizdir, Mən də sizin Rəbbinizəm. Məndən (əzabımdan) qorxun!"** *(əl-Muminun, 52)* Həmçinin, Onun bu kəlamı kimi: **"Hamılıqla Allahın ipindən (dinindən, Qurandan) möhkəm yapışın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın!"** *(Ali-İmran, 103)* Və uca Allahın bu sözü kimi: **"Bir-birinizlə çəkişməyin, yoxsa süstləşib zəifləyər və gücdən düşərsiniz"** *(əl-Ənfal, 46).* Və digər bu kimi ayələr.

Elə isə, bəs niyə ümmət bir çox ölkələrdə parçalanma və daxili qarışıqlıq vəziyyətində yaşayır? Halbuki avropalılar müxtəlif dilləri, çoxlu millətləri, fərqli məzhəbləri və bir-birilə rəqabət aparan siyasi və iqtisadi maraqları olmasına rəğmən birgə yaşayırlar? İndi onlar gündən-günə təkmilləşən Avropa Birliyi çərçivəsində birliklərini möhkəmləndirməkdədirlər və oradakı ölkələrin sayı artıq iyirmi səkkiz Avropa ölkəsinə çatmışdır.

Ümmətin daxili münasibətlərinin pozulması sahəsində yaşadığı acı reallıq Quranın ictimai münasibətləri tənzimləmək üçün təsbit etdiyi böyük prinsipləri bilməzdən gəlməsi və onlara etinasızlığının nəticəsidir. Bu isə, Quranın tərk edilməsinin açıq-aydın təsdiqidir.

## Quran şəfadır

Quran özünü qəlblərdə olanların şəfası olaraq vəsf etmişdir. Təbii ki, şəfa deyildikdə ağıla xəstəlik mövzusu gəlir. Çünki şəfa xəstəlik və ağrı vəziyyətini aradan qaldırmaq deməkdir. “Filankəs sağaldı”, - deyildikdə bu o deməkdir ki, o, xəstə idi. Əgər Qurani-kərim özünü şəfa hesab edirsə, deməli, o, eynilə cismin xəstəliyə yoluxması kimi, bəşər övladlarının ruhlarının da xəstəliklərə yoluxacağı ehtimalını qabaqcadan bildirir. Cismin xəstələnməsi hansısa orqanda, yaxud bədən üzvlərindən birində nasazlığın olması və bu nasazlığın həmin üzvün öz funksiyasını təbii şəkildə yerinə yetirməsinə mane olması deməkdir. Bunun nəticəsində isə zəifləmələr, ağrılar və ağırlaşmalar əmələ gəlir. İnsanın cismində xəstəlik yarandıqda o, dərhal onu müalicə etməyə başlayır. Çünki xəstəliyin qalması ona problemlər yaradır. Həmçinin, xəstəliyin müalicə olunmaması onun daha da inkişaf edib artmasına səbəb olur. Eynilə bunun kimisinə nəfs də düçar olur. Nəfs – insanda mövcud olan duyğular, hisslər, instinktlər məcmusu və insanın onlarla davranış və onları məmnun etmə üsuludur. İnsanın hər bir instinkti, hər bir hissi və hər bir cəhəti onun nəfsinin (psixikasının) formalaşmasında mühüm rol oynayır. İnsan həyatının düzəlməsi yalnız bu instinktlərin düzəlməsindən və onların hər birinin yaradılış məqsədi olan öz təbii rolunu oynamasından asılıdır. Mənəvi aspektdəki problem budur ki, onun xəstəliklərinin bir çox əlamətlərini hiss etmək çətindir. O dərəcədə ki, insan həyatını hər şey normal və yolunda imiş kimi davam etdirirkən nəfsində (ruhunda) ən pis və həm özü, həm də bütün insanlıq üçün ən təhlükəli xəstəlikləri daşıyır. İlk başda nəfsi (mənəvi) xəstəlik sadə görünə bilər, lakin o, sonra o dərəcədə böyüyür ki, insanın öz tarazlığını itirməsinə, onun həm Rəbbi,

həm özü, həm də insanlarla münasibətində axsamalara səbəb olur. Bu səbəbdən, cismimizin nasazlığını müalicə etdiyimiz kimi, nəfsimizi də müalicə etməyimiz zəruridir ki, onun xəstəliyi artıb daha da təhlükəli olmasın və nəticədə intizamlı insanın bu dünyadakı həyat yolunu ağırlaşdırmasın. Bəlkə də bu məsələ insanlara açıq-aydın bəllidir. Lakin düşündürücü sual odur ki, bu nəfsi xəstəlikləri necə müalicə edək?

İnsan tibbi texnologiya və lavazimatlar baxımından indiki vəziyyətinə gəlib çatana qədər bir çox qurbanlar vermiş və təcrübələrdən keçmişdir. Nəticədə o, səhiyyə sahəsində həkimlərə, əczaçılara, xəstəxanalara və klinikalara sahib olaraq, dünən həkimlərə gizli qalan və ya müalicə edilə bilinməyən bir çox xəstəlikləri aşkara çıxarıb müalicə edə bilmişdir.

Nəfsi xəstəliklərin də müalicəyə ehtiyacı vardır. Əgər insan ağlını və instinktini tərk edərsə, bəlkə də bir çarə tapa bilər, ancaq bunun üçün o, çox əziyyətlər çəkəcək və uzun müddət qarışıqlıq içində yaşayacaq. Məsələni daha da təhlükəli edən odur ki, bütün səylərini insanlara narkotik vasitələr verməyə, onların nəfslərinə və ağıllarına müdaxilə etməyə həsr edən güc mərkəzləri qədər insan bədənini çökdürməyə, ağırlaşdırmağa çalışan güc və maraq mərkəzləri yoxdur. Yaradan Allah bəşəriyyətin nəfsi və mənəvi xəstəliklərdən xilas olması üçün müalicəni bir sıra peyğəmbərlər və mürsəllərdən sonra yekun şəkildə gələn və Qurani-kərimdə təmsil olunan bu ilahi hidayətlə xülasələşdirmişdir. Bu səbəbdən, nəfsi və mənəvi xəstəliklərin təhlükələrinə məruz qalan bütün insanlara xitab olsun deyə, Quranın ifadəsi bu şəkildə gəlmişdir: **“(Ey insanlar!) sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana (cəhalətə, şəkk-şübhəyə, nifaqa) bir şəfa, möminlərə hidayət və mərhəmət (Quran)**

**gəlmişdir!”** *(Yunus, 57) “Sizə gəlmişdir”* yəni, sizdən ötrü, sizin (xeyiriniz) üçün nəzərdə tutulmuşdur.

**Tərbiyənin mərhələləri**

Sonra bu mübarək ayə tərbiyə və paklama mərhələlərindən danışır[23]:

**Birinci mərhələ:** Gözəl öyüd-nəsihət mərhələsi: **“Rəbbinizdən bir öyüd-nəsihət”**.

**İkinci mərhələ:** Ruhu rəzil xislətlərdən və nöqsanlardan paklamaq: **“ürəklərdə olana (cəhalətə, şəkk-şübhəyə, nifaqa) bir şəfa”**.

**Üçüncü mərhələ:** Doğru bilgilərə, gözəl əxlaqa və saleh əməllərə hidayət: **“hidayət”**.

**Dördüncü mərhələ:** Mərhəmət, nemət və səadətdə möhkəmlənmək mərhələsi: **“möminlərə bir mərhəmət”**.

Peyğəmbərdən (s) nəql olunan bir hədisdə o Həzrət buyurur : *“Quran dərmandır”*[24]. Əbəttə ki, nəfsin xəstəliklərinə və ruhun dərdlərinə. İmam Əli (ə) Quran barəsindəki xütbəsində buyurur: *“Bilin ki, bu Quran elə bir nəsihət edəndir ki, əsla aldatmaz, elə bir hidayət edəndir ki, heç vaxt azdırmaz, elə bir danışandır ki, əsla yalan deməz. Bu Quranla oturub söhbət edən (Quranı anlayaraq oxuyan) hər kəs ondan artım və ya əskilmə ilə - hidayətinin artması və ya mənəvi korluğunun (cahilliyinin) azalması ilə ayrılar. Və bilin ki, kimsənin Qurandan (Quranla bərabər olduqdan) sonra yoxsulluğu, ehtiyacı olmaz və kimsənin də Qurandan (Quranla bərabər olmadan) öncə zənginliyi olmaz. Onu xəstəliklərinizə şəfaçı edin*

---

[23] Şeyx Nasir Məkarim Şirazi, əl-Əmsəl, c.6, səh. 353.

[24] Kənzul-ummal, c. 1, səh. 517, hədis: 2310, Biharul-ənvar, c. 89, səh. 67, hədis: 4.

*və ondan çətinlikləriniz üçün kömək istəyin. Həqiqətən, onda ən ağır xəstəliklərin şəfası vardır”*[25] .

## Quran moizədir

Moizə (öyüd-nəsihət) “vəz” sözündəndir . Vəz isə qorxutmaq mənası verən bir kəlmədir. Həmçinin, bu kəlmənin insana xeyiri, yaxşılığı və onun qəlbini riqqətə gətirən bu qəbil şeyləri xatırlatmaq mənasını da daşıdığı deyilir. Allah da Quranı bir moizə olaraq vəsf etmişdir. O uca varlıq buyurur: **“Bu, (belə əhvalatlar) insanlardan ötrü (olub keçənlərə dair) bir xəbər, müttəqilərdən ötrü isə hidayət və moizədir”** *(Ali-İmran, 138).*

Moizə kəlməsinin Qurani-kərimdəki işlənmə yerlərini izlədikdə bu kəlmənin insanın vicdanına, hisslərinə və duyğularına xitab etmək üçün istifadə edildiyini görürük.

İnsana ünvanlanan xitablar əksər hallarda üç növ olur:

1. Ağıla yönəlmiş xitablar. Hansı ki, bu, məntiqli, elmi sözlərdir.
2. İnstinktlərə və şəhvani hisslərə yönəlmiş xitablar. Təbii ki, onları təhrik etmək üçün. Eynilə mənəviyyatsız mahnılarda və tərbiyəsiz filmlərdə olduğu kimi.
3. Vicdana və xoş duyğulara yönəlmiş xitablar. Bu Moizədir. **Moizə**

Moizə elmi xitabdan dəstək alsa da ruha və vicdana daha yaxındır. Çünki əksər insanları, elmi bilgiləri olmasına rəğmən, duyğuları və şəhvani istəkləri təhrik edir. Ancaq çox az insan bildiyini tətbiq etmək üçün iradə sahibi olur. Bu səbəbdən, dini sahədə moizə böyük rol oynayır. Qurani-kərimdə

[25] Nəhcül-bəlağə, 176-cı xütbə.

buyurulur: **“(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl moizə (öyüd-nəsihət) ilə Rəbbimim yoluna dəvət et”** *(ən-Nəhl, 125).* Burada “hikmət” kəlməsi ağıla yönəlik xitaba, isbat və inkar etmək üçün uyğun dəlildən istifadə etməyə və hər şeyi öz yerinə qoymağa işarə edir. “Gözəl moizə” isə cazibəli təsirə malik olan bir üsulla vicdana və batinə ünvanlanır. Allah-təalanın bu kəlamında belə oxuyuruq: **“Bir zaman Loğman öz oğluna nəsihət (moizə) edərək belə demişdi: “Oğlum! Allaha şərik qoşma. Doğrudan da, Allaha şərik qoşmaq böyük zülmdür”.”** *(Loğman, 13).* O, oğlunun xoş duyğularını hərəkətə gətirərək onları oyadır. Ailə münasibətləri haqqında isə Quran belə buyurur: **“(Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət (moizə) edin!”** *(ən-Nisa, 34)* Yəni, sırf rasional (əqli) anlaşma mümkün olmadıqda onlara vicdanla xitab edin. Allah-təala Öz Peyğəmbərinə (s) əmr edir ki, münafiqlərə və əməlisaleh olmayanlara belə xitab etsin: **“Onlar elə şəxslərdir ki, Allah onların ürəklərindəkini (yaxşı) bilir. (Ya Rəsulum!) Sən onlardan üz çevir, onlara öyüd ver (moizə et) və onlara özləri haqqında təsirli söz de!”** *(ən-Nisa, 63)* Onlar dinin haqq olmasından və Peyğəmbərin (s) məqamından məlumatsız deyildilər. Lakin onlar (dünyəvi) maraqları tərəfə yönəlməyə meylli idilər və onların azğın sonluqdan, pis aqibətdən çəkindirilməyə ehtiyacları vardı. Bizim ümumi həyatımızda moizəyə ehtiyacımız var və burada xatırladırıq ki, dini xitab heç də, bəzi insanların xətiblərdən tələb etdiyi və ya universitetin akademik sahəsində olduğu kimi, sırf elmi aspektdən asılı olmamalıdır. Dini sahədə Allahdan qorxmağı, dini vəzifələri, fərdi və ictimai məsuliyyətləri elmi həqiqətlərlə insanın vicdanına, onun nəcib və gözəl hisslərinə mübaliğəsiz və səhlənkarlığa yol vermədən xitab edərək

xatırlatmaq lazımdır. Buna görə də İmam Əli (ə) oğlu İmam Həsən (ə)-a buyurur: *"Qəlbini moizə ilə canlandır"*[26].

Elm hövzələrindəki din mərcələrinin (müctəhidlərin) və böyük alimlərin həyat tarixçələrinə nəzər salsaq, görərik ki, bir çox fəqihlər xətiblərdən və övliyalardan onlara moizə etmələrini, onların ülvi hisslərini oyatmalarını istəyirlər. Məgər o xətib fəqihin və müctəhidin elminə yeni bir şey əlavə edirmi? Sadəcə o, onlara Rəsulullahın (s) kəlamlarını, Əmirəlmöminin (ə)-ın xütbələrini və əhli-beytin (ə) (müxtəlif vəziyyətlərdəki) münasibətlərini söylədikdə onlara məsuliyyətlərini, Allahın sorğu-sualını və onları izləməsini xatırladır. Bu isə moizədir və hər bir insan bundan faydalanmalı, hər bir halda bu, həyatımızdan əskik olmamalıdır. Qurani-kərim, Rəsulullahın (s) buyurduğu kimi: *"Ən təsirli moizədir"*[27]. O, özündə müxtəlif sahələrə aid elmi həqiqətləri ehtiva etsə də, onun ən böyük hissəsini vicdana, batinə xitab edən moizələr təşkil edir. O, insana acizliyini və Allah-təalaya möhtac olduğunu, sonunu, bəlli bir müddətdən sonra ölümə, fənaya məhkum olacağını, eləcə də ona öhdəsində daşıdığı məsuliyyəti, bütün əməl və davranışlarının hesaba alındığını və buna görə qiyamət günü sorğu-sual olunacağını, ən nəhayət, ona axirətdəki aqibətini, Cənnəti, Cəhənnəmi, mükafatı və cəzanı xatırladır. Quran oxuyan şəxs bu daimi və davamlı xatırlatma ilə qarşılıqlı münasibətdə olmalı, onun üzərindən ani olaraq ötüb keçməməli, məsələn, əzab ayələrini vicdanı və şüuru ilə hiss etmədən (duyğusuz bir şəkildə) oxuyub güləməməli, sanki ona aid deyilmiş kimi, bu ayələrə etinasız yanaşmamalıdır. Əksinə, biz Qurana vicdanımızla,

---

[26] Nəhcül-bəlağə, 31-ci xütbə.
[27] Şeyx Səduq, «Mən la yəhzuruhul-fəqih", c. 4, səh. 402.

şüurumuzla diqqət yetirməliyik. Allah-təala buyurur: **“Allah sözün ən gözəlini (Quranı, ayələri) bir-birinə bənzər, (xəbərləri və hekayətləri, əmrləri və qadağaları, vədləri və təhdidləri) təkrarlanan bir kitab şəklində nazil etdi. Ondan (Quranın təhdidlərindən) Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən (öyüd-nəsihətlərindən, vədlərindən) sonra ürəkləri yerinə gəlib qorxuları gedər. Bu (Quran) Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldər. Allahın (layiq olduğu üçün) yoldan çıxartdığı kimsəyə isə heç bir yol göstərən olmaz!”** *(əz-Zumər, 23)*

Quranın hər hansı bir ayəsini oxuyarkən ona ruhən açıl, köksünü aç, çünki o ayə sənin vicdanına və batininə xitab edir. Quranı, bildiyin məlumatlara yeni bir məlumat əlavə edəcək elmi bir kitabı oxuduğun kimi oxuma. Onu sənin vicdanına və batininə xitab edən, səni öz həqiqətinə qaytaran və məsuliyyətini sənin qarşına qoyan (sənə xatırladan) bir moizə kitabı kimi oxu. Bu, Quran oxuyarkən diqqət yetirməli olduğumuz, ümumiyyətlə, dini söhbətlərdə riayət olunmalı bir məsələdir. Çünki dini söhbətlər sırf rasional yöndə olmur, əksinə, insanlar arasındakı sentimental söhbətlərlə qarışdırılır. Kim Qurani-kərimə nəzər salsa, görər ki, o, elmi söhbətlərini fitri və sentimental şəkildə tərtib edir və insanın etməli olduğu tək şey bu söhbətlərin onun ruhuna daxil olub oraya tam yayılmasına imkan verməkdir.

### Gənclər və Qurana qayıdış

Qurana qayıdış bəşəriyyətin, böyük maddi-texnoloji tərəqqiyə nail olmasına rəğmən, əziyyət çəkdiyi səfalət və bədbəxtlikdən qurtuluşudur. Qurana qayıdış İslam ümməti üçün izzət və şərəf qazanmaq, eləcə də ümumi

mədəni gerilik durumunu aradan qaldırmaq yoludur. Elə isə, Allahın kitabına qayıdışın yolu haradan başlayır və bu yürüşə başçılıq edə biləcək şəxslər kimlərdir?

Qurani-kərimin ayələri ilk dəfə əzəmətli peyğəmbərimiz həzrət Məhəmmədə (s) nazil olduqda məhz gənclərin qəlbləri bu mübarək ayələrə qucaq açdı, gənclərin dilləri onları qulaqlara dinlətdi və məhz onların qılınc tutan biləkləri, qolları Quran yolunu həyatda bərqərar etmək üçün mübarizə meydanlarına atıldı. Quranın ayələrini Rəsulullahdan (s) ilk eşidən şəxs həddi-büluğ yaşına çatmış böyük bir oğlan, gəncliyinin ilkin yaşlarında olan Əli ibn Əbu Talib idi. O, Quranın hər bir ayəsini, hər bir hərfini dərk etmişdi. Özünün buyurduğu kimi: "*Məni itirməzdən əvvəl məndən soruşun. Toxumu yarıb cücərdənə, canlıları yaradana and olsun ki, məndən (Quran barəsində) ayə-ayə soruşsanız, sizə hər bir ayənin nazil olduğu vaxtı və kim barəsində nazil olduğunu xəbər verər, eləcə də onun nasix (başqa bir ayənin hökmünü ləğv edən) və ya mənsux (nasix ayə ilə hökmü ləğv olunan) olduğunu, xüsusi və ya ümumi ayə olduğunu, möhkəm (mənası aydın, hökmü bəlli) və ya mütəşabih (çətin anlaşılan, məğzi bəlli olmayan) olduğunu, Məkkə və ya Mədinə ayəsi olduğunu söyləyərəm*"[28]. Digər bir kəlamında isə İmam (ə) buyurur: "*Mən onun (Quran ayələrinin) nasixini də, mənsuxunu da, möhkəmini də, mütəşabihini də daha yaxşı bilir, (mənaca) ayrılmalarını birləşmələrindən, hərflərini mənalarından daha yaxşı ayrıd edirəm. Allaha and olsun ki, mən həzrət Məhəmmədə (s) nazil olmuş hər bir hərfin kimin barəsində, hansı gün və hansı məkanda nazil olduğunu bilirəm*"[29].

---

[28] Şeyx Müfid, «əl-İrşad" kitabı, c.1, səh. 35
[29] Məhəmməd ibn Həsən Səffar, «Bəsairud-dərəcat", səh. 135, hədis: 3.

Vəhyin Rəsulullahın (s) vəfatı ilə kəsildiyi və Quranın nazil olmasının bitdiyi zamana qədər Əli (ə) hələ də ömrünün gənclik çağında idi, belə ki, onun yaşı hələ otuz üçü keçməmişdi.

Qüreyş camaatı içərisində Quranı uca səslə oxuyan ilk şəxs Abdullah ibn Məsud adlı bir gənc olmuşdu. O, İslamı qəbul edən ilk altı şəxsdən altıncısı idi. Onun bu qəhrəman addımı barədə xəbər verən Ürvə ibn Zübeyr deyirdi: *"Məkkədə Rəsulullahdan (s) sonra Quranı ucadan oxuyan ilk şəxs Abdullah ibn Məsud olmuşdur. Belə ki, bir gün Rəsulullahın (s) səhabələri bir yerə toplaşıb dedilər ki, vallah, Qüreyş heç vaxt Quranın onlara ucadan oxunmasını eşitməyib. Bizlərdən kim Quranı onlara dinlədə bilər? Abdullah ibn Məsud dərhal: "Mən", - dedi. Səhabələr dedilər: "Biz onların sənə zərər verəcəyindən qorxuruq. Bunu arxasında güclü və nüfuzlu əşirəti (qəbiləsi) olan birinin etməsini istəyirik ki, qüreyşlilər ona zərər yetirmək istədikdə (əşirəti) onu onlardan qorusunlar". Abdullah ibn Məsud dedi: "Qoyun mən edim, Allah-təala məni qoruyacaq". Beləcə, ertəsi gün İbn Məsud zuha vaxtı (səhərlə günorta arası, günün ən işıqlı saatlarında) məqamın (İbrahim (ə) məqamının) yanına gəldi. Bu zaman qüreyşlilər (Qüreyş qəbiləsinin müşrik başçıları Kəbənin yaxınlığında) həmişə toplaşdıqları yerdə idilər. Abdullah məqamın yanında dayanıb uca səslə bu ayələri (ər-Rəhman surəsinin ilk iki ayəsini) oxudu:* ***"Bismillahirrəhmanirrəhim. Rəhman! (Mərhəmətli olan Allah!) (Öz peyğəmbərinə) Quranı öyrətdi".*** *Ardınca o, Qüreyşin toplaşdığı yerə gələrək orada da ayələr oxudu. Onlar diqqətlə qulaq asıb (bir-birinə) dedilər: "Bu Ümmü Əbdin oğlu nə deyir belə?" Bəziləri dedi ki, o, Məhəmmədin gətirdiklərindən oxuyur. Onlar bunu eşidəndə İbn Məsudun üzərinə atılıb onun üz-gözünə zərbələr vurmağa başladılar. O, isə zərbələrə baxmayaraq Qurandan bir xeyli hissəni ucadan oxudu və sonra yoldaşlarının*

*yanına qayıtdı. Onun üzündə zərbələrin izləri vardı. Onlar Abdullahı bu vəziyyətdə gördükdə dedilər: "Bizim sənə görə qorxduğumuz da bu idi". O dedi: "Allahın düşmənləri (onların varlığına dözmək) mənim üçün indi olanlardan asan deyildi, istəsəniz, sabah yenə onların yanına gedib eyni şeyi təkrar edərəm". Onlar dedilər: "Kifayət edər, sən artıq onlara sevmədiklərini dinlətdirdin"*[30].

Gənc İbn Məsud Quranı o qədər səmimi bir ünsiyyətlə oxuyardı ki, Rəsulullah (s) bununla bağlı belə buyurardı: *"Kim Quranı sakit, aram şəkildə dinləmək istəyirsə, onu Ümmü Əbdin oğlundan dinləsin!"*[31]

Həmçinin, Qurani-kərimin ayələrini ilk dəfə Mədinəyə apararaq oranın əhalisinə öyrədən və bununla oranın Allah Rəsulunun (s) hicrət edəcəyi yer və İslam diyarı olmasına zəmin yaradan şəxs də mübariz gənc Məsəb ibn Ümeyr olmuşdur. O, İslamı gəncliyinin ən gözəl çağlarında qəbul etmişdi. İlk dəfə Ərqəm ibn Əbüərqəmin evində Rəsulullahdan (s) eşitdiyi Quran ayələri Məsəbin qəlbini bütünlüklə fəth etdi və dərhal onun həm vücudunda, həm də həyata baxışında dəyişiklik yaratdı. Nəticədə o, ərköyün, dəbdəbəli və firavan həyatından imtina etdi. Belə ki, Məsəb Məkkədə ən xoş güzəran içində yaşayan bir gənc idi. Həzrət Rəsulullah (s) onun haqqında buyurardı: *"Mən bunu (yəni, Məsəbi) görəndə Məkkədə qüreyşli cavanlar arasında ondan çox ata-anasının yanında naz-nemət içində bəslənən biri yox idi. Sonra Allah və Rəsulunun sevgisi ilə yaxşı işlərə rəğbəti onu bu həyat tərzindən ayırdı"*[32]. Məsəb bütün varlığı ilə Qurana məftun olmuş, onun məfhum və manaları canına hopmuş, ayə və surələri də həm ağlında, həmd də qəlbində lövbər

---

[30] Süleyman ibn Əhməd ət-Təbərani, "əl-Əvail", səh.115.
[31] İbn Əbdülbirr, "əl-İstiyab fi mərifətil-əshab, c.3, səh. 990.
[32] İbn Səəd, "ət-Təbəqatul-kubra", c.3, səh.117.

salmışdı. Allahın Rəsulu (s) Məsəbi İslamın Məkkə xaricindəki ilk səfiri seçərək onu Mədinə əhlinə Quranı öyrətməsi, onlara dini anlatması üçün nümayəndə kimi oraya göndərdi. "Həmin vaxt Rəsulullahın (s) səhabələri arasında Məsəbdən yaşı daha böyük, nüfuzu daha çox və Peyğəmbərə qohumluğu daha yaxın olanlar vardı. Lakin o Həzrət məhz Məsəbi seçdi. Allahın Rəsulu (s) bununla ona həmin mərhələnin ən təhlükəli işlərini, eləcə də İslamın Mədinədəki taleyini tapşırdığını anlayırdı. Hansı ki, tezliklə bu şəhər hicrət diyarına və İslama dəvətin mənşəyinə çevriləcəkdi"[33]. Bunlar Quranın nazil olduğu ilk günlərdə onu qavrayan, onu bir risalət, bir həyat tərzi olaraq daşıyan və onun hidayət işığı əsasında yüksək İslam sivilasiyasını ərsəyə gətirən gənc nəsildən misallar və nümunələr idi. O ki qaldı Quranı niyə məhz gənc nəslin qəbul etməsinə, bunun səbəbləri aşağıdakılardır:

1. Onlar fikirlərinin açıq olduğu, şüurlarının formalaşdığı bir mərhələdə olduqlarından həyatın sirri, varlığın səbəbi və yaradılışın hədəfi ilə bağlı inadkar suallarla qarşılaşır və Qurani-kərimin onları dərdlərinə əlac olacaq, fitrətə, məntiqə və əqli aksiomalara uyğun qanedici cavablara yönləndirdiyini görürdülər.

2. Onlar bir gənc olaraq həssas duyğuları, incə hissləri ilə yaşadıqları cahil mühitin bütlərə sitayiş, əxlaq pozğunluğu, lüzumsuz müharibə və fitnələr kimi çirkinliklərini görür, lakin onlardan qurtulmağın, onlara əlac etməyin yolunu bilmirdilər. Bu mənada, Qurani-kərimin ayələri öz gəlişi ilə onlara bəsirət və nur bəxş etmiş, onların qədəmlərini qurtuluş və əmin-amanlıq yoluna qoymuş oldu. Ona görə də onlar onu səmimiyyət və həvəslə qarşıladılar.

---

[33] Xalid Məhəmməd Xalid, "Ricalun haulər-Rəsul", 27.

3. Onların qəlbləri başqalarından daha təmiz, daha saf idi. Çünki onlar həyata yenicə başlamışdılar, hələ maraqlar onlara güc gəlməyə imkan tapmamış, mənfi xislətlər onların ağıllarına hakim kəsilməmiş, çirkinliklər, fitnə-fəsadlar onların əməllərində möhkəmlənməmişdi. Habelə onların fitnə-fəsad dolu mühitlə qaynayıb-qarışmaları hələ məhdud səviyyədə idi. Bu isə onların həmin mühitdən yaxa qurtarmaları və onun diktəsindən çıxıb yeni üfüqlərə üz tutmaları üçün daha çox gücə sahib olmalarına imkan yaradır.

4. Gənclik mərhələsi insanda özünəinam, macəralara maraq və daha yaxşı gələcəyə can atmaq hissi yaradır ki, bu da Quran ayələrinin yönləndirmələri ilə səsləşərək gənclərin onunla ünsiyyətinə münasib şərait yaradır.

5. Yetgin yaş, eləcə də var-dövlətin nüfuz və liderliyin əsas göstəricisi olduğu bir cəmiyyətdə Rəsulullahın (s) onlara diqqət yetirməsi, yaxınlaşması, eləcə də onlara həm sevgi və mehribanlıq göstərməsi, həm də dəyər verib hörmət etməsi. Bütün bunlar gəncləri Rəsulullaha (s) tərəf cəzb etdi və onları Allah-təalanın dini ətrafında birləşdirdi. Nəticədə, həm həzrət Mustafanın (s) zinətləndiyi böyük əxlaq, həm də öz cəmiyyətlərində itib-batmış, ehmal olunmuş o gənclərin cürətli addımları onların liderlik keyfiyyətini formalaşdırdı və onların istedadlarını, bacarıqlarını, qələbə və tərəqqiyə olan şövqlərini üzə çıxartdı.

Ona görə də Qurani-kərimin yürüşü gənclərin əli ilə başladığı kimi, ona dönüş də inşallah onların mübarək əli ilə olacaqdır. Gənc çağlarında Quranın çeşməsindən sirab olan, şirin suyundan içən şəxsin psixoloji quruluşu, intellektual formalaşması və davranış təcrübəsi vəhyin yönləndirməsi əsasında formalaşar. Belə ki, insanın şəxsiyyətinin xüsusiyyətləri gənclik dövründə bəlli olur və onun siması məhz bu dövrdə müəyyən olunur. Ona görə də əgər bu dövrdə o, Qurana yaxın olsa, onun ayələrini öyrənsə, onun

yönəldiyi istiqamətlər və həyat yolu Qurana uyğun olacaqdır. Bu xüsusda İmam Cəfər Sadiq (ə)-dan nəql olunmuş bir kəlamda o Həzrət belə buyurur: *"Gənc yaşında olan bir mömin Quran oxuduğu zaman Quran onun ətinə və qanına qarışar, Allah-təala onu çox möhtərəm, çox müti olan elçi mələklərin yanında qərar verər və Qiyamət günü Quran onun qoruyucusu olar"*[34].

Üfüqdə görünən bir çox göstəricilər bizim İslam ümmətinə onun dəyərli gənc möminlərinin əli ilə ümidverici bir gələcək vəd edir. Bu gün müşahidə olunan İslami oyanış, İslam dünyasının müxtəlif yerlərinə yayılmış dini fəallıqlar və gözəl gənclərimizin üz tutduğu Quranın tilavəti, əzbərlənməsi, təlim və təfsiri istiqamətində təşkil olunan Quran proqramları hamısı qarşıdan gələn sivil intibah üçün yaxşı əlamətlərdir.

## İkinci fəsil

## İnsanların birgəyaşayış prinsipləri

Hazırkı dövrdə İslam ümməti fərqli dində olan başqaları ilə münasibətdə ciddi böhran yaşayır. Bunun səbəbi ümmət içərisində başqaları ilə toqquşmaya, onlara qarşı adam oğurluğu, qətl, əsir götürmək, obyektləri dağıtmaq, insanların toplaşdığı məkanları hədəfə alıb partlatmaq, insanları öldürmək və qorxutmaq kimi, zorakılığın, terrorun ən ağır formalarını törətməyə köklənmiş bir cərəyanın böyüməsidir. Çox təəssüf ki, bütün bunlar İslam adı altında və üzərində İslam şüarı daşıyan bayraqlarla törədilir. Artıq bu hücumlar dünyanın müxtəlif ölkələrinə yayılmış və minlərlə dinc sakin, günahsız, kişilər, qadınlar və uşaqlar onun qurbanı olmuşlar. Doğrudur, müsəlmanlar da keçmişdə xarici müstəmləkəçilik bəlasından və Səlib

[34] əl-Kafi, c. 2, səh. 603.

yürüşlərinin zorakılığndan əziyyət çəkmiş və hələ də öz ölkələri üzərində xarici hegemonluq siyasəti ilə, qərbin ərəb torpaqlarını işğal edən ölkələrə dəstəyi ilə üzləşirlər. Lakin bu əsla terrorçuluğa, dinc insanları hədəfə almağa, dini savaşlar yaratmağa, mədəniyyətləri qarşı-qarşıya qoymağa əsas vermir. Beynəlxalq siyasət dini nöqteyi-nəzərə əsaslanmır və ideoloji şüarlar irəli sürmür, əksinə, onu maraqlar və ambisiyalar hərəkətə gətirir. Bu səbəbdən, digər (qeyri-müsəlman) ölkələr böyük müsəlman icmalarına qucaq açır və bu icmalar həmin ölkələrin bir hissəsinə çevrilərək bütün vətəndaşlıq hüquqlarından yararlana, yaxşı yaşamaq fürsətləri və dini ayinlərini yerinə yetirmək imkanı əldə edə bilirlər. Bəzən həmin icmaların şəraiti bəzi müsəlman cəmiyyətlərinin öz doğma vətənlərindəki şəraitindən daha yaxşı olur. Bu səbəbdən də qərb ölkələri müsəlman ölkələrindən qaçan bir çox miqrantların sığınacaq yerinə, eləcə də firavan və layiqli həyat axtaranların məskəninə çevrilməkdədir. Onlar həmin ölkələrin sahillərinə çatmaq üçün təhlükələri və çətinlikləri gözə almadan özlərini dənizin dalğalarına atır və onun dəhşətlərinə tab gətiririlər. Hətta onlardan minlərlə insan digər sahilə keçərkən yolda boğularaq həyatını itirir.

Odur ki, bu terror əməllərinin İslamın qərb cəmiyyətləri arasındakı reputasiyasını ləkələməsi, müsəlman mövcudluğunun həmin xalqlar üçün narahatlıq və qorxu mənbəyinə çevrilməsi qaçılmaz idi ki, bu da müsəlmanlara məhdudiyyətlər qoyan, İslamın imicini təhrif və müqəddəsatını təhqir edən ifrat sağçı meyllərin artmasına imkan yaratdı. Hazırda İslamofobiya adlanan bir dalğanın içində Quranı yandırdığını elan edənlər də var, Məhəmməd peyğəmbəri (s) istehza və məsxərəyə qoyan karikaturalar çəkənlər də var, İslamı və müsəlmanları qorxutmaq üçün filmlər çəkənlər də var, o cümlədən müsəlmanların qovulmasını və ya Amerika və Avropaya

daxil olmalarına qadağa qoyulmasını tələb edənlər də vardır. Beləcə, İslam ümməti ilə bu cəmiyyətlər arasındakı münasibətlər pisləşdi və hətta məsələ xristian qərb cəmiyyətləri ilə məhdudlaşmayaraq Asiya və Afrika ölkələrindəki Hinduizm, Buddizm və digər dinlərin mənsubları olan cəmiyyətlərə qədər yayıldı.

Digər tərəfdən, ümmətin daxilindəki və dini komponentləri arasındakı münasibətlər heç də onun xariclə münasibətindən az gərgin deyil, əksinə daha ağır və təhlükəlidir. Belə ki, ümmətin birdən çox ölkəsində sünnilərlə şiələr arasında məzhəb qarşıdurması alovlanmış və müharibələrə, döyüşlərə, köçkünlüklərə, sui-qəsdlərə, o cümlədən, məscidləri, Hüseyniyyələri, müqəddəs yerləri, dinc əhalinin toplaşdığı müxtəlif ictimai məkanları hədəfə alan terrorçu kamikadze partlayışlarına səbəb olmuşdur. Təəssüf ki, İslam dünyasının səmasını bütünlüklə bu mənfur qarşıdurmanın buludları bürümüşdür. Xarici və daxili özgə ilə münasibətlərin pisləşməsinin təhlükəsi bu halın dini nəzəriyyələrə əsaslanmasıdır. Belə ki, burada ekstremist cərəyan din və ya məzhəb baxımından, hətta eyni məzhəb daxilindəki rəy və fikirlərə görə fərqlənən digəri ilə ayrılıq və toqquşmaya əsaslanan mədəniyyəti təbliğ edir. Necə ki, biz bunu Əfqanıstan, Somali və Suriyadakı "mücahid" qrupların döyüşlərində müşahidə etdik. Terror və zorakılıq nümayiş etdirən bu ifrat mədəniyyət dinə mənsub olduğunu iddia edərək Quran ayələrini, Peyğəmbər hədislərini, səhabələrin əməllərini və fəqihlərin (şəriət alimlərinin, müctəhidlərin) sözlərini dəlil gətirib onlara istinad edirlər. Bu ekstremistlərin istinad etdikləri bəzi dəlillər sultanların təbliğçiləri və zalım hökmdarların muzdlu rəvayətçiləri tərəfindən onların vəhşiliklərinə və diktaturalarına haqq qazandırmaq üçün yazılmış müxtəlif mətnlər ola bilər. İstinad etdikləri bəzi mətnlər düzgündür, lakin səhv başa düşülür və yanlış

şəkildə izah edilir ki, bu da zorakılıq və ekstremizm cərəyanlarına xidmət edir. Habelə, istinad etdikləri bəzi mətnlər konkret bir şəraitə və zamana yönəlik ola bilər. Lakin onlar mətnin sadir olduğu mühiti və şəraiti nəzərə almadan onlardan zaman və məkan mütləqliyi əsasında (mütləq zaman və məkan üçün söylənmiş kimi) istifadə edirlər. Deməli, ümmətin xarici və daxili münasibətlər böhranı müstəvisində yaşadığı bu həssas vəziyyətdə özgə ilə münasibəti və eləcə də insanların, fərqli irqdə, dində və məzhəbdə olmalarına baxmayaraq, birgəyaşayışını tənzimləyən prinsiplərin müəyyənləşdirilməsinə və qaydaların qoyulmasına təcili ehtiyac yaranıb. Odur ki, başqa din və məzhəb mənsubu ilə münasibətdə dini baxışı və şəri yanaşmanı bilmək üçün İslam əqidəsi və şəriətinin əsas mənbəyi olan Qurani-kərimə müraciət etmək lazımdır. Bu təvazökar səhifələr ümmətin ictimaiyyətinin şüurunu ifratçılıq və ekstremizm mədəniyyətindən təsirlənməkdən qorumağa töhfə verəcəyi ümidi ilə Quranın baxışını açıq-aydın bir dillə bəyan etməkdən ibarətdir.

### 1) İnsani ortaqlıq

Mömin bilməlidir ki, başqasının dini, məzhəbi, əqidəsi nə olursa olsun, o, bu həyatda onun tərəfdaşıdır və onunla buna əsasən davranmalıdır. Belə ki, Allah-təala kainatın və həyatın yaradanı, onun bütün sərvətlərinin, nemətlərinin tək sahibidir. Və O, yaşamaq, həyatın bütün nemətlərindən faydalanmaq haqqını bütün insanlara, Ona iman gətirənə də, küfr edənə də vermişdir. Ona görə də bütün insanlar varlıq aləminin imkanlarından bəhrələnmək səlahiyyətində bərabərhüquqlu ortaqdırlar. Allah-təalaya iman gətirdiyini söyləyən kimsənin ixtiyarı yoxdur ki, Onun hansısa, hətta kafir bir bəndəsinin həyatın nemətlərindən bəhrələnmək haqqını əlindən alsın. Çünki

o, bu işi görməklə həm Allahın iradəsinə müxalif çıxmış, həm də zülm və haqsızlıq etmiş olur. Allah Ona iman gətirməyəcək insanı yaratmaya və ya varlıq nemətini kafirlərin və günahkarların əlindən ala (onların varlıqlarına son qoya), yaxud da onları həyatın imkanlarından, imtiyazlarından məhrum edə bilərdi. Lakin Onun hikməti həyatın hamını əhatə etməsini, lütf və nemətlərinin hamıya yağdırılmasını istədi. İndi isə bu həqiqəti təkidlə vurğulayan mübarək ayələrə diqqət yetirək:

Allah-təala buyurur: **"Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikcə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də diriləcək və daha sonra siz (əməllərinizin haqq-hesabı çəkilmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız. Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!"** *(əl-Bəqərə, 28, 29)*

Allahın **"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan"** sözlərində müraciət möminli, kafirli bütün insanlaradır. Buna dəlil isə xitabın kafirlərə xitab edən öncəki (28-ci) ayə ilə eyni konteksdə olmasıdır.

Başqa bir ayədə Allah-təala buyurur: **"(Ey insanlar!) Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və buludları; meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) sizə ram etdiyini (sizin istifadənizə verdiyini), aşkar (görmə, eşitmə, sağlamlıq) və gizli (əql, şüur, fəhm, elm və i.a.) nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü? İnsanlar içərisində eləsi də vardır ki, nə bir elmi, nə bir doğru yol göstərən rəhbəri, nə də bir nurani (ilahi) kitabı olmadan Allah barəsində mübahisə edər"** *(Loğman, 20).*

Bir sıra mübarək ayələr göstərir ki, Allah-təala insana Ona iman gətirməsi və dininə əməl etməsi vasitəsilə dünya ləzzətlərini axirət mükafatı ilə bir araya gətirmək imkanı vermişdir. Kim yaradanına küfr edərək, Onun dinindən üz çevirərək özünü axirət mükafatından məhrum edərsə, onun dünya ləzzətlərindən yararlanmaq imkanı toxunulmaz olaraq qalır. Allah-təala bu xüsusda buyurur: **"Kim (axirətdən vaz keçib) dünyanı və onun bərbəzəyini istəyirsə, Biz ona əməllərinin əvəzini (sağlamlıq, sərvət, övlad, gözəl yaşayış) elə orada (dünyada) verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz"** *(Hud, 15).*

Həmçinin, Allah-təala buyurur: **"Onların və bunların (kafirlərin və möminlərin) hər birinə Rəbbinin nemətindən verərik. Rəbbinin neməti (dünyada heç kəsə) qadağan deyildir"** *(əl-İsra, 20)*.

Odur ki, Allahın nemətləri həm möminləri, həm də kafirləri əhatə edər və bu dünyada Allahın heç bir neməti kafirlərə qadağan olunmaz.

Qurani-kərimdə bu dünyada insanlar arasındakı bərabər imkanları vurğulayan bu və buna bənzər ayələr çoxdur. Həmin ayələrə əsasən, dinindən, əqidəsindən, mömin və ya kafir olmasından asılı olmayaraq, kimsənin başqasının dünya nemətlərindən bəhrələnmək imkanını əlindən almağa haqqı çatmır. Çünki bu imkan insanlar üçün ilahi bir hədiyyədir.

Biz İslam fiqhində bu yanaşmadan irəli gələn dirçəltmə, canlandırma qaydasını qeyd edə bilərik. Həmin qaydaya görə, kim istifadə olunmayan yiyəsiz bir ərazini öz zəhməti və zirəngliyi ilə əkib becərmək, orada hansısa bir tikili inşa etmək və ya buna bənzər istifadə yolları ilə dirçəldərsə, abadlaşdırarsa, o, həmin ərazinin sahibi olar. Fəqihlər deyir: *"İlk növbədə istənilən şəxsin ölü şeyləri (yəni, istifadəsiz qalmış, atılmış torpağı, ərazini və ya hansısa bir şeyi əkib-becərmək, tikib abadlaşdırmaq, yaxud düzəltməklə)*

*dirçəltməsi, canlandırması caizdir. (Dini mətnlərdən) görünən budur ki, bu şeyləri dirçəldən şəxs onların sahibi olur və onun müsəlman, yaxud kafir olmasının heç bir fərqi yoxdur”*[35]. Həmçinin, əhli-sünnənin (hənəfi, maliki və hənbəli) məzhəbləri də dirçəldən şəxsin müsəlman olmasını şərt bilmirlər. Həzrət Peyğəmbərin (s): *“Kim ölü bir ərazini dirçəltsə, ora onundur”*, - deyə buyurduğu kəlama əsasən, dirçəldənin müsəlman və ya zimmi (cizyə ödəməklə müsəlman ölkəsində yaşayan qeyri-müsəlman) olmasının da fərqi yoxdur. Çünki dirçəltmək mülkiyyətin səbəblərindən biridir və müsəlmanla zimmi digər mülkiyyət səbəbləri kimi bunda da bərabər hüquqludurlar. (Şəriətdə) belə bir qayda vardır: *“Bir şeyi əldə edən onun sahibi olar”.* Yəni, hər hansı bir şəxs, istər müsəlman olsun, istərsə də kafir, dünya nemətlərindən kimsənin mülkiyyətində olmayan bir şeyi əldə etdikdə həmin şey onun mülkü olur.

**2) Başqasının varlığını qəbul və etiraf etmək**

Sən mövcud olduğun kimi, başqası da mövcuddur. Heç kim heç kimin varlığını inkar edə bilməz. Başqasının sənin varlığını inkar etməsinə razı olmadığın kimi o da sənin onun varlığını inkar etməyini qəbul etməz. Lakin burada varlığın qanuniliyi ilə varlığın doğruluğu arasında fərq qoymalıyıq. Hər bir dinin, yaxud məzhəbin mənsubu öz əqidəsinin doğru, digər əqidələrin isə yanlış olduğunu düşünür. Amma o, digər əqidələri aradan qaldırmaq haqqına sahib deyil. Hər bir əqidənin varlığı və ardıcılları var və onlar öz dini və məzhəbi kimliklərini ifadə etmək haqqına sahibdirlər. Təəssüf ki, müxtəlif din və məzhəblərin bəzi ardıcılları onlarla fərqli əqidədə olan din və

[35] Seyid Məhəmməd Ruhani, «Minhacus-salihin”, 673-cü məsələ.

məzhəblərin varlığına son qoymağa cəhd göstərir, lakin əksər hallarda bu cəhdlər uğursuzluğa düçar olaraq yalnız mənfur müharibələrə və din adı altında qarşılıqlı zorakılığa səbəb olur.

Bəzən din və inanc cəmiyyət üçün nə hədə-qorxu təzyiqi altında, nə də dəlil-sübut məntiqinə boyun əymədən əl çəkmədiyi ekzistensial kimliyə çevrilə bilər. Qeyd edəcəyimiz mübarək ayə məhz buna işarə edir: **"(Ya Rəsulum!) Sən kitab əhlinə hər cür dəlil gətirsən də, onlar sənin qiblənə tabe olmazlar. Sən də onların qibləsinə tabe olan deyilsən. Hətta onlar özləri də bir-birinin qibləsinə üz tutmazlar"** *(əl-Bəqərə, 145).*

Qurani-kərim möminlərin nəfslərini dini müxtəliflik reallığı ilə birlikdə yaşamaq üçün ram edir. Çünki bu, qiyamət gününə qədər bəşəriyyətin taleyidir. Kimsə bu dünya həyatında dinlər arasında ayrı-seçkilik və hökm vermək imkanını ağlına gətirməsin. Bu, qiyamət gününə qədər təxirə salınmış bir məsələdir və Allah-təalanın hüzurunda gerçəkləşəcəkdir: **"(Ya Rasulum!) Həqiqətən, sənin Rəbbin onların (möminlərlə kafirlərin) arasında qiyamət günü ixtilafda olduqları (dini) məsələlər barədə hökm verəcəkdir!"** *(əs-Səcdə, 25)*

**"Hamınızın axır dönüşü Allahadır. (Allah) aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir!"** *(əl-Maidə, 48)*

Quran bu prinsipi möhkəmləndirərək, öz mömin davamçılarının mövcudluğu ilə yanaşı, digər dinlərin mənsublarının da dini kimlikləri çərçivəsində mövcudluğunu qəbul edir. Allah-təala bu xüsusda buyurur: **"Həqiqətən, iman gətirənlər (müsəlmanlar), yəhudilər, sabiilər (ulduzpərəstlər), xaçpərəstlər, atəşpərəstlər və müşriklər arasında qiyamət günü (haqq ilə batili ayırd edərək) hökmünü verəcəkdir.**

**Şübhəsiz ki, Allah hər şeyə şahiddir! (Onların nə etdiklərini və nəyə layiq olduqlarını çox gözəl bilir!)”** *(əl-Həcc, 17)*

**3) Fikir və etiqad azadlığı**

Əksər hallarda insan öz fikrini və inancını sentimental motivlə təbliğ etməyə can atır. Çünki o, öz fikrinin doğruluğuna inandığı üçün başqalarının da bu inamı onunla paylaşmalarını istəyir və ona inananların sayı artdıqca öz fikrinə daha çox inam və arxayınlıq qazanır.

Bəzən fikir və inancın təbliğ motivi maraq və şəxsi mənafe ola bilər. Bu, hegemonluq və nəzarət ambisiyalarına nail olmaq üçün başqalarını özünə tabe edib onlar üzərində təsir və liderlik mövqeyi qazanmaq məqsədi olduğu zaman baş verir.

Əksər dinlər ardıcıllarını təşviq edir ki, onlar öz inanclarını onun doğruluğuna əsaslanaraq təbliğ etsin və yaysınlar. Çünki bu, müqəddəs Rəbbin razılığını qazandırır.

Bəzən fikir və inancı təbliğ etmək ayrı-ayrı dinlərin, məzhəblərin və əqidələrin ardıcılları arasında toqquşma və qarşıdurma hallarına səbəb olur. Xüsusən də təbliğ məcbur etmə forması aldıqda bu baş verir. Burada Qurani-kərim fikir və etiqad azadlığına hörməti təkidlə vurğulayır və başqalarını hansısa inancı və ya fikiri qəbul etməyə məcburiyyət cəhdini rədd edir. Bu xüsusda Allah-təala buyurur:

**“Dində məcburiyyət (zorakılıq) yoxdur”** *(əl-Bəqərə, 256).*

**“İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!”** *(Yunus, 99)*

Allahın Öz risalətləri və şəriətləri ilə birgə göndərdiyi peyğəmbərlərin vəzifəsi yalnız dini bəyan etmək və çatdırmaqla məhdudlaşırdı. Onların nə

dini zorla tətbiq etməyə, nə də onu insanlara məcburi şəkildə qəbul etdirməyə əsla haqları yox idi. Allah-təala bu haqda buyurur:

**“(Ya Peyğəmbər! Mənim bəndələrimə) öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!”** *(əl-Ğaşiyə, 21, 22)*

**“Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin), Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik”** *(ən-Nisa, 80).*

**“Kitab verilmiş şəxslərə (yəhudi və xaçpərəstlərə) və savadsızlara (ərəb müşriklərinə) de: “Siz də təslim (müsəlman) oldunuzmu?” Əgər təslim olarlarsa (İslamı qəbul edərlərsə, doğru yola yönəlmiş olarlar, yox, əgər üz döndərərlərsə, sənin vəzifən ancaq (haqqı) təbliğ etməkdir. Allah, şübhəsiz ki, bəndələrini görəndir!”** *(Ali İmran, 20)*

Allahın iradəsi və hikməti bu dünyada insanın öz qərarları və fikirlərində, hətta Allah-təalaya iman prinsipində belə, sərbəst olmasını məsləhət bilmişdir. Bu mənada ki, Allah yaratdıqlarını zorla Ona iman gətirməyə məcbur etməmiş və kimsəyə də onlara qarşı bu işi görmək səlahiyyəti verməmişdir. Allah-təala bu barədə buyurur:

**“Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)”** *(əl-Kəhf, 29).*

**“Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!”** *(Yunus, 99)*

Beləcə, Qurani-kərim fikir və etiqad azadlığına hörmət etməyi vurğulayır və inanclı insanların öz əqidələrinin təbliğində zorakılıq və gücdən istifadə etməsinə icazə vermir. Hətta şifahi və nitq zorakılığı da Allah yanında Onun dininə dəvət üsulu olaraq məqbul sayılmır. Allah-təala bu xüsusda buyurur:

**“(Ya Rəsulum!) İnsanları hikmətlə (Quranla, tutarlı dəlillərlə), gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) mübahisə et”** *(ən-Nəhl, 125).*

**“Onlarla ən gözəl tərzdə mücadilə edin!”** *(əl-Ənkəbut, 46).*

**4) Ədalətin aliliyi və hüquqların qorunması**

Din və məzhəb fərqliliyi heç kimə digərindən üstün olmaq və onun bəzi insani haqlarını əlindən almaq və ya ləyaqətini alçaltmaq haqqı vermir. Öz dininin doğruluğuna və başqasının dininin yanlışlığına inanmağın sənə ona hakim olmaq və ya onun ləyaqətini təhqir etmək üçün əsas vermir. Ona görə ki, insanın hər hansı dini, etnik və ya sinfi mənsubiyyətindən öncə bir insan olaraq bu dünyada qorunub saxlanmalı və hörmət edilməli olan öz dəyər və ləyaqəti vardır. Axirətdə isə Rəbbi özü onunla haqq-hesab çəkəcəkdir. Allah-təala buyurur:

**“Şübhəsiz ki, onların axır dönüşü Bizədir! Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!”** *(əl-Ğaşiyə, 25, 26)*

**“Kim Allahla yanaşı başqa bir tanrıya ibadət edərsə - bunun üçün isə onun heç bir dəlili yoxdur – (qiyamət günü) onun cəzasını Rəbbi özü verəcəkdir”** *(əl-Muminun, 117).*

Bu insani dəyəri vurğulamaq üçün Qurani-kərimin ayələri insanın məqamı və əlahiddə xüsusiyyətləri barədə danışmışdır. Onu Özünün yer üzündəki xəlifəsi təyin edən də, kainatda və həyatda mövcud olan bütün varlıqları onun istifadəsinə verən də Odur. Belə ki, O uca varlıq buyurur: **“(Ey insanlar!) Məgər Allahın göylərdə və yerdə olanları (günəşi, ayı, ulduzları və**

**buludları, meyvələri, bitkiləri, dənizləri, çayları və gölləri) sizə ram etdiyini (sizin istifadənizə verdiyini)) ... görmürsünüzmü?"** *(Loğman, 20)*

Allah insanı ən gözəl biçimdə yaratmış, mələkləri onun qarşısında səcdə etdirmiş və ona yüksək dəyər və ləyaqət vermişdir. O, bu haqda belə buyurmuşdur:

**"Biz Adəm övladını şərəfli və hörmətli etdik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik"** *(əl-İsra, 70)*.

Bütün bu məqam və imtiyazlar, ayələrdəki mütləq mənada olduğu kimi, insana onun irqinə, dininə və əqidəsinə baxılmadan, bir insan olaraq verilmişdir. Əqidənin, dinin doğruluğu və əxlaqi dəyərlərə riayət etmək insanın Allah yanındakı məqam və etibarını, eləcə də axirət mükafatını artırar. Dünya həyatında isə bəşər övladları o əsas xüsusiyyətlərdə bərabərdirlər.

Seyyid Məhəmməd Hüseyn Təbatəbai: **"Biz Adəm övladını şərəfli və hörmətli etdik"** – ayəsinin təfsirində yazır: *"Görünür ki, ayədə nəzərdə tutulan, bəzilərinə xas olan xüsusi ilahi kəramət, yaxınlıq və xalis mənəvi fəzilət göz ardı edilməklə, ümumi insanların halının bəyanıdır. Bu söz (şərəfli və hörmətli etdik sözü) müşriklərə, kafirlərə və fasiqlərə də aiddir"*[36].

Alusi Bağdadi isə yazır: *""**Biz Adəm övladını şərəfli və hörmətli etdik**", yəni onların yaxşılı-pisli hamısını kəramət, yəni şərəf və həddi-*hüdudu *bilinməyən gözəl xüsusiyyətlər sahibi etdik"*[37] .

---

[36] Seyyid Məhəmməd Hüseyn Təbatəbai, "əl-Mizan fi təfsiril-Quran", c. 13, səh. 152.

[37] Seyyid Məhəmməd Şükrü Alusi Bağdadi, "Ruhul-məani fi təfsiril-Quran", c. 5, səh. 117.

Qurani-kərim insan ləyaqəti prinsipini hər şeydən əvvəl onun insanlığı üçün müəyyən edir. Hansı irqdən gəlsə də, hansı dinə və əqidəyə mənsub olsa da o, öz ləyaqəti olan bir insandır və tam insani hüquqlarından istifadə etməlidir. Bu prinsip əsasında Qurani-kərim ədalət və insan hüquqlarına hörmətin bu dünyada insanlar arasında münasibətlər üçün bir üsul və sistem kimi hüquqi aliliyini təsbit edir. Allah-təala buyurur:

**“Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, ... buyurar”** *(ən-Nəhl, 90)*.

**“Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir”** *(ən-Nisa, 58)*.

Allah-təala peyğəmbərləri də Öz müqəddəs kitabları və şəriətləri ilə bərabər insanlar arasında ədaləti bərqərar etmək üçün göndərmişdir. O uca varlıq belə buyurur: **“And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər”** *(əl-Hədid, 25)*.

Ədalət insanlar üçün, irqindən və dinindən asılı olmayaraq, ümumi bir qanundur. Allah Öz Peyğəmbərinə (s) Ona iman gətirməyənlərə belə xitab etməyi əmr edir: **“De: “... Mənə sizin aranızda ədalətlə hökm etmək (ədalətli olmaq) əmr olunmuşdur. Allah bizim də Rəbbimizdir, sizin də Rəbbiniz. Bizim əməllərimiz bizə, sizin də əməlləriniz sizə aiddir (hərə öz əməlinə cavabdehdir)”.”** *(əş-Şura, 15)*.

Qarşı tərəflə ədavət və ya rəqabətin olması ona qarşı haqsızlığa yol verməyə və onunla münasibətdə ədalət həddini aşmağa əsas vermir. Allah-təala bununla bağlı buyurur: **“Ey iman gətirənlər! Allah qarşısında**

**(borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır!"** *(əl-Maidə, 8)*

Heç kəsin maddi və ya mənəvi haqlarından hansısa birini pozmaq olmaz. Allah-təala buyurur: **"Adamların mallarının dəyərini (və ya onların haqqını) azaltmayın!"** *(əl-Əəraf, 85)* Bu cümlə Qurani-kərimdə üç yerdə təkrarlanmışdır.

Bunlar Qurani-kərimin dünyada sülhü möhkəmləndirmək və insanlar arasında birgəyaşayışa nail olmaq üçün müəyyən etdiyi əsas prinsiplərdir. Lakin çox təəssüf ki, İslam ümmətinin üzvləri arasında bu prinsiplərə məhəl qoyulmur, əksinə, cihad, sadiqlik və düşmənçilik, eləcə də bidət əhli ilə mübarizə adı altında bu prinsiplərin ziddinə olan cərəyanlar ağalıq edir. Bu gün ümmətin meydanı, tribunası Qurani-kərimin bütün digər qanun və hökmləri tənzimləyən qaydalar kimi müəyyən etdiyi həmin əsas prinsiplərə zidd olmayan, bu anlayışların reallığını və onların tətbiqinin kriteriyalarını bəyan edən dərin düşüncəli dini müraciətlərə böyük ehtiyac duyur.

## Bir-birinizi tanıyasınız deyə

Müxtəlif irqləri, rəngləri, dilləri və mədəniyyətləri olan bu böyük insan varlığı, Qurani-kərimin də, elmi nəzəriyyələrin də təsdiq etdiyi kimi, tək mənşədən qaynaqlanır. Belə ki, bəşər övladları tək bir kökə qayıdır və onları yaradan da tək tanrı – müqəddəs və uca Allahdır. İnsanlar əsas komponentlərinin istifadə və fəaliyyət səviyyəsində fərqlənsələr də, bu komponentlərin mənşəyinə görə bərabərdirlər. Əzalar və bədən orqanları insanlarda eynidir. Eyni şey insanlar arasında oxşar olan intellektual, mənəvi və psixoloji komponentlərə də aiddir, lakin fərqlilik bu bədən orqanlarının və

intellektual-psixoloji imkanların istifadə dərəcəsində meydana çıxır. Belə ki, bəziləri bu fiziki və ya mənəvi imkanları başqalarından daha çox aktivləşdirirlər.

Beləliklə, bu bəşər övladları tək mənşədən qaynaqlanır, onları yaradan tək bir tanrıdır və şəxsiyyətlərini təşkil edən əsas komponentlər də eynidir, lakin uca və əzəmətli Yaradanın hikmət və qüdrəti istəmiş ki, xüsusiyyətlər müxtəlif olsun və səviyyələr fərqlənsin. Bu səbəbdən də insanların xüsusiyyətləri və səviyyələri fərqlidir. Bunun isə təbii səbəbləri vardır.

**Fərqlilik necə yaranıb?**

İnsanlar əvvəlcə bir mühitdə böyüdülər. Burada insanların atası Adəm həyat yoldaşı Həvva və uşaqları ilə birlikdə ilk insan ailəsi idi. Sonra insan nəsli artmağa davam etdikcə Adəmin övladları yer üzünün müxtəlif yerlərinə səpələnmişlər və bu səpələnmə hər bir qrupun digərindən fərqli bir mühitdə yaşamasına səbəb olmuşdur. Təbii həyatdakı bu ekoloji və coğrafi fəqlilik isə maddi və mədəni fərqlilikdə əks olunmuşdur. Belə ki, dağlıq və ya sahilyanı ərazilərdə isti və ya soyuq hava şəraitində insanların həyat formaları fərqli ola bilər. Bəşər övladlarının yaşadıqları təbii mühitdəki bu qeyri-bərabərlik onların maddi şəraitlərində və mədəniyyətlərindəki fərqlilikdə özünü göstərir. Hər bir insan toplumunun ətraf mühit və yaşayış şəraitindən qaynaqlanan öz dili, adət-ənənələri və qayda-qanunları formalaşmış və nəticədə dünyanın hər tərəfinə səpələnmiş insan qrupları arasında fərqliliklər və uyğunsuzluqlar meydana çıxmışdır. Zaman keçdikcə bəşəriyyət qəbilələrə və əşirətlərə, eləcə də xalqlara və ümmətlərə bölünmüşdür. Amma bu müxtəlifliklər eyni mənşədən qaynaqlanmanı  inkar etmir. Buna görə də Hucurat surəsindəki bu mübarək ayə bütün bəşər övladlarına xitab edir: **“Ey insanlar! Biz sizi bir**

**kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır"** *(əl-Hucurat, 13)*. Bundan öncəki ayələr: *"Ey iman gətirənlər!"* – deyə möminlərə xitab edir. Bu ayədə isə xitab dəyişərək *"ey insanlar!"* olur. Çünki söhbət təkcə möminlərə aid deyil, dinindən və əqidəsindən asılı olmayaraq, insan olmaları etibarı ilə bütün insanlara yönəlmişdir. *"Ey insanlar"* sözləri rəngindən, dilindən, irqindən, dinindən və məzhəbindən asılı olamayaraq, insan adını daşıyan hər kəsə yönəlmiş ümumi bir xitabdır. *"Biz sizi yaratdıq"* ifadəsinə gəlincə, müqəddəs və uca Allah tərəfindən olan bu xitabda ayənin çatdırmaq istədiyi fəlsəfəyə işarə və izah vardır. Belə ki, bu ifadə bəşər övladları arasında vəhdətə zəmin yaradır və bunu vurğulayır. Madam ki, yaradan birdir, heç bir insan başqa bir tanrının yaratdığı deyil və Allah-təaladan başqa heç bir tanrı yoxdur, deməli, burada bu tək tanrının yaratdığı insanlar arasındakı münasibətləri möhkəmləndirməyə intellektual-psixoloi zəmin yaratmaq məqsədilə yaradanın təkliyi vurğulanır.

Sonra ayə fərqliliyin hikmətinə və mənşəyin bir olmasına işarə edir: **"Biz sizi bir kişi və bir qadından yaratdıq"**. Rəngindən və dinindən asılı olmayaraq bir insanın dünyaya gəlməsi eynilə digərinin gəlməsi kimidir. Heç bir insan dünyaya başqalarından fərqli bir şəkildə gəlmir. Nəticə budur ki, yaradan Allah birdir, yaradılış yolu da birdir. **"Sizi xalqlara və qəbilələrə ayırdıq"**. Bu fərqlilik sizin istəyinizlə deyil, Allah-təalanın iradəsi və hikməti ilə baş verdi. Bu sözlərdə mənsub olduğu qəbilənin və ya ailənin onun üçün üstünlük, bir başqasının mənsub olduğu digər bir qəbilə və ya ailənin də onun

üçün aşağılıq səbəbi sayıldığını təsəvvür edən hər bir kəsə eyham vardır. Məgər bu qəbiləyə mənsub olmağını sən özünmü seçmisən?! Yaxud o başqası o qəbiləyə mənsubiyyətini özümü seçib?! Məgər hər bir insana dünyaya gəlməzdən öncə qəbilə və nəsillərin siyahısı göstərilərək: "Buyur, doğulmaq, yaxud mənsub olmaq istədiyin qəbiləni seç!" – deyilirmi? Biz bilirik ki, hazırda insan təhsil üçün ixtisas seçərkən ona müxtəlif universitetlər göstərilir və o, istədiyi universiteti, maraq göstərdiyi ixtisası seçir, seçiminin məsuliyyətinə də özü cavabdehdir. Həmçinin, bilirik ki, ərsəyə gətirilən müxtəlif məsələlərdə insanın rəyi, seçimi olur. Lakin sənin hansısa ailəyə və qəbiləyə mənsub olmağında, eləcə də milli və irqi mənsubiyyətində seçim ixtiyarın yoxdur və bu sənin üçün nə öyünməli bir cəhətdir, nə də sənin (şənini aşağı salacaq) zəif yerindir. Bu məsələ Allah-təaladan asılıdır.

**Xalqlar və qəbilələr**

Təfsir alimləri xalqlar və qəbilələrdən anlaşılan məna haqqında, bunlardan hansının digərindən – xalqın qəbilədən, yaxud qəbilənin xalqdan daha geniş əhatəli olması barədə danışmışlar. Bu fərq bizim üçün o qədər də əhəmiyyətli deyil, sadəcə olaraq, müasir anlayış baxımından onların arasında bir qarışıqlığın olduğunu görürük. Bir ölkədə vahid bir sistem altında yaşayan bütün insanlara xalq deyilir; Amerika xalqı, Yaponiya xalqı, Səudiyyə xalqı və İraq xalqı. Və xalq müxtəlif qəbilələri özündə ehtiva edən bir çərçivə hesab olunur. Bu mənada xalq qəbilədən daha geniş görünür. Lakin eyni zamanda biz bəzi qəbilələrin müxtəlif xalqlarda və ölkələrdə qollarının olduğunu görürük. Məsələn, ərəblər müstəvisində bəzi qəbilələrin bir qolunun İraqda, bir qolunun Suriyada, bir qolunun Səudiyyədə və digər qollarının da müxtəlif ölkələrdə olduğunu görürük.

**“Bir-birinizi tanıyasınız deyə”**

Həyatın təbiəti sizin xalq və qəbilə mənsubiyyətinizdə müxtəlif olmanızı tələb edir və bu müxtəliflik fərqli mədəniyyətlərin ortaya çıxmasında da özünü göstərir. Bu isə bir-birinizi tanımağınız üçün motiv olmalıdır.

Bu müxtəliflik ilahi qüdrət və yaradıcılığın təzahürlərindən biridir və biz görürük ki, çoxlu müxtəlif mənzərələr yarada bilən sənətkar bu müxtəlifliklə öz bacarığını önə çəkir. Bir bağda müxtəlif rənglərin olması o bağı daha qiymətli edər. Bu bəşər övladının varlığı da ilahi qüdrətin təzahürlərindən biridir. Buna görə də Qurani-kərimin digər ayələri dillərin və rənglərin müxtəlifliyini Allah-təalanın qüdrət əlamətlərindən və ilahi əzəmətin təzahürlərindən biri hesab edir. Allah-təala bu xüsusda belə buyurur: **“Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır!”** *(ər-Rum, 22)*

**Tanışlığın qaydaları və perspektivləri**

Tanışlıq bilməkdən qaynaqlanır. Allah-təala insana bilik qabiliyyəti bəxş edib və bu qabiliyyətin dəyəri insanın onu fəallaşdırmasından asılıdır. Allah-təala buyurur: **“(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: “(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!” – dedi. Onlar: “Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik...”. – dedilər”** *(əl-Bəqərə, 31, 32)*.

Adəmi fərqləndirən xüsusiyyət onun bilik qabiliyyəti idi və Allah da onu bununla mələklərdən üstün tutub mələklərə ona səcdə etmələrini əmr etmişdi. Tanışlıq da həmin bu bilik qabiliyyətindən qaynaqlanır.

Bilik qabiliyyəti olan insan bilik əldə etməkdə bəşəriyyətin müxtəlifliyindən bəhrələnməlidir. Biz gərək ayədəki **"bir-birinizi tanıyasınız deyə"** ifadəsinə diqqət edək. Yəni bu, bir tərəfdən olan bir tanışlıq deyil, iki tərəfdəndir, tərəflərin hər birinin digəri ilə qarşılıqlı şəkildə tanışlığıdır. Qarşılıqlı tanışlıq insanın həyatında böyük bir dəyərdir. Sən bir dinə mənsubsan, digəri ayrı bir dinə, sən bir məzhəbə mənsubsan, başqası ayrı bir məzhəbə, sən bir mədəniyyətə mənsubsan, qeyrisi ayrı bir mədəniyyətə, sən bir qəbilənin mənsubusan, o biri də digər bir qəbilənin və sən bir xalqa mənsubsan, başqası isə digər bir xalqa. Bu fərqlilikdə müxtəlif təcrübələr var. Fərqlilik vəziyyətində diqqət etməli olduğun ilk şey qarşı tərəfin xüsusiyyətləri və keyfiyyətləri ilə tanış olmaqdır. Buna səy göstərməyiniz vacibdir. Bəzi insanlarda öz milli, dini və ya fraksiya mənsubiyyətlərinə qapanma halına rast gəlinir. Onlarda qarşı tərəfi tanımağa cəhd göstərmək marağı olmur. Çərçivə, insanlar bir məzhəb daxilində olmalıdır, sadəcə, onların bir neçə məktəbi ola bilər həddinə qədər daralır. Buna görə də hər bir tərəf qarşı tərəfdə olanları öyrənməkdən üz döndərir. Bəzi hallarda belə insanlar qarşı tərəf haqqında yanlış bir surət formalaşdırıb ancaq ondan yapışır və qarşı tərəfi olduğu kimi tanımağa səy göstərmirlər. Mən beynimdə başqa bir məzhəbin mənsubunun müəyyən bir surətini çəkir və bununla qane olub iddia edirəm ki, qarşı tərəf elə budur. Deyirəm ki, sünnülər filan cürdür, ibazilər filan cürdür, şiələr filan cürdür, zeydilər filan cürdür. Kim dedi ki, onlar filan cürdür? Mən özüm bir surət düzəltmişəm, mən özüm müəyyən bir mühitin təsirində çəkdiyim portreti beynimdə qəbul etmişəm və düzgüm

tanışlığa da səy göstərmirəm. Sözü gedən mübarək ayə hər bir möminə başqalarını olduqları kimi tanıması üçün stimul verir. Sən onlarla tanış olduqda onlar üçün də səni tanımaq fürsəti yaranmış olur. Ayə buyurur: **“Bir-birinizi tanıyasınız deyə”**. Yəni qarşılıqlı tanışlıq olmalıdır ki, bu prinsip və bu dəyər gerçəkləşsin. Qeyd edək ki, hətta fərdi səviyyədə də bəzi insanlarda başqa şəxslərlə tanışlığa xüsusi maraq olur. Belə insanlar hansısa məclisdə olarkən yanında oturduqları şəxslə tanış olmağa can atır, hardasa rastlaşdığı insanı tanımağa maraq göstərirlər. Müfəzzəl ibn Ömər əl-Cuufidən belə bir rəvayət nəql olunur: *“Bir gün İmam Sadiq (ə)-ın yanına getmişdim. Həzrət məndən soruşdu ki, (bu səfərində) yol yoldaşın kim olub? Dedim ki, (mömin) qardaşlarımdan olan bir nəfər. Həzrət soruşdu ki, bəs o necə oldu (hara getdi)? Dedim ki, Mədinəyə daxil olandan sonra onun hara getdiyini bilmədim. İmam (ə) buyurdu: “Məgər bilmirsənmi kim bir möminlə qırx addım yol yoldaşı olsa, Allah qiyamət günü ondan həmin mömini soruşar?!”.”*[38].

Bəzi insanlar başqaları ilə tanış olmağa meylli deyillər. Bəziləri isə bu marağa sahibdirlər və hətta onlarda hansısa bir şəxsi ilk gördükləri zaman onunla ünsiyyət yaratmaq, onu (bir dost kimi) qazanmaq və onunla qarşılıqlı şəkildə tanış olmaq məharəti olur. Sonra da bu münasibəti necə inkişaf etdirəcəklərini düşünürlər. Bizim fərdi müstəvidə məhz belə mədəni davranışa ehtiyacımız var. Belə olduqda sən heç nə itirməyəcəksən, əksinə, çoxlu bilik, düşüncə və təcrübə sərvəti əldə edəcəksən. Ətrafında olan mümkün qədər çox insanla bu və ya digər səbəbdən tanış olmaqda maraqlı olmağa çalışsan, qarşında perspektivlərin açıldığını görəcəksən. Hansısa

[38] Şeyx Tusi, “əl-Əmali”, səh. 413, hədis: 75.

müəyyən bir camaat barəsində eşitdiyin zaman onlarla tanış olmağa çalış: onlar kimdir? Fikirləri, düşüncələri, mövqeləri nədir? Onlarla birbaşa ünsiyyət quraraq və ya barələrində oxumaqla tanış ol. Amerikada 11 sentyabr hadisələrindən sonra amerikalıların İslam və müsəlmanlarla bağlı hər şeyi həvəslə oxumağa başladıqlarını və kitabxanalarda İslam və müsəlmanlarla bağlı kitabların tükəndiyini qeyd edirlər. Niyə? Çünki amerikalı vətəndaş informasiya vasitələrində bu hadisənin baş verməsinin arxasında İslam və müsəlmanların olduğunu eşidir və öz-özünə sual verir ki, İslam nədir və müsəlmanlar kimdir? Axtarmağa başlayır, kitabxanaya gedib kitab alır. Amerikadakı müsəlman alimlər deyirlər ki, biz 11 sentyabr hadisələrindən sonra universitetlərdə, elm mərkəzlərində mühazirələr söyləmək üçün dəvət olunmağa başladıq. Bu onu göstərir ki, orada insanlar bilgi axtarışındadırlar. Biz isə təəssüf ki, bir çox hallarda hansısa bir cəbhə haqqında eşitdiyimiz zaman onunla bağlı axtarış aparmağa can atmır, onun barəsində olan hazır məlumatlarla kifayətlənirik. Halbuki qarşılıqlı tanışlıq dəyəri Qurani-kərimin: **“Bir-birinizi tanıyasınız deyə”**, - buyuraraq xüsusi önəm verdiyi böyük bir dəyərdir.

## Üçüncü fəsil

## Sosial yetkinlik mədəniyyəti

Biz yetkinlikdən fərdlər səviyyəsində danışarkən həm öz xeyrini ayırd edə bilən, davranışını və idarəolunmasını təkmilləşdirən yetkin fərdə, həm də qərarsız, üzləşdiyi şərait və situasiyalarda müvafiq mövqe tutmayan fərdə rast gələ bilərik. Yetkinlikdən cəmiyyətlər və toplumlar səviyyəsində danışarkən də görürük ki, həm yetkin cəmiyyət var, həm də yetkinlik və bitkinlikdən

məhrum olan cəmiyyət. Bəs biz bu səviyyədə cəmiyyətləri və toplumları necə qiymətləndirək? Sosial yetkinliyin əlamətləri hansılardır?

Qurani-kərimdə yetkin cəmiyyət haqqında aşağıdakı ayədə danışılır:

**“Lakin Allah sizə imanı sevdirmiş, onu ürəklərinizdə süsləmiş, küfrə, itaətdən çıxmağa və (Allaha) asi olmağa qarşı sizdə nifrət oyatmışdır. Məhz beləələri (bu xislət sahibləri) doğru yolda olanlardır!”** *(əl-Hucurat, 7)*

Bu mübarək ayə yetkin cəmiyyətin ən mühüm xüsusiyyətinə işarə edir ki, bu da prinsiplər və şəri qanunlarla psixoloji, əqli və davranış ahəngdarlığıdır. Cəmiyyətin inandığı prinsip bəzən sadəcə kimliyin təsdiqi və ad olur, bəzən də dədə-babadan şüursuz və kortəbii şəkildə keçir. Cəmiyyət bu prinsiplə mənəvi-psixoloji müstəvidə qarşılıqlı münasibətdə ola bilər, lakin əqli və intellektual baxımdan ona iradları olur. Bəzən mənəvi-psixoloji möhkəmlik olmadan nəzəri-əqli inamın olması ilə bunun əksi baş verə bilər. Bəzən isə prinsip və onun qanunları bu və ya digər səbəbdən həmin cəmiyyətə məcbur şəkildə sırınmış ola bilər. Bütün bu hallar ondan xəbər verir ki, cəmiyyət irsi əqidəyə qane olmadan inandığı və ya real həyatında onun nizam-intizam və qanunlarının tətbiqinə uyğun gəlməyən prinsipə təslim olduğu, yaxud məcburi şəkildə şəriətə tabe edildiyi zaman cəmiyyətin və onun subyektinin quruluşunda zəiflik və tarazlığın pozulması əmələ gəlir. Az öncə qeyd olunan mübarək ayənin: **“Məhz beləələri doğru yolda olanlardır!”** – deyə işarə etdiyi yetkin cəmiyyətə gəlincə, o, aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Əqidə və prinsipi “sevgi” sözünün daşıdığı psixoloji cazibə və mənəvi möhkəmlik kimi mənalarda sevmək: **“Sizə imanı sevdirmiş”**.

2. Prinsipi dərk etmək: **“Onu ürəklərinizdə süsləmiş (gözəlləşdirmiş)**. Yəni, ağlınızla inanc yolunuzun doğruluğunu və onun həyatınızı inkişaf etdirən ən yaxşı yol olduğunu dərk edirsiniz.

İtaətdən çıxmağı və yodan sapmağı daxilən istəməmək: **“Küfrə, itaətdən çıxmağa və (Allaha) asi olmağa qarşı sizdə nifrət oyatmışdır”**. Bu nəticə əvvəlki iki xüsusiyyətdən hasil olur. Belə ki, insan öz prinsipini dərindən sevdikdə və dinini ağlı, düşüncəsi ilə dərk etdikdə özü günaha daxilən nifrət edir və özü nizam-intizam və qanun çərçivəsini aşmaqdan qaçır. Beləcə, yetkin cəmiyyətdə daxili motivasiya ilə məsuliyyətli və nizam-intizamlı olmaq və itaətsizlikdən çəkinmək kütləvi hal alır.

Təbii ki, uca Yaradan sevdirmək və nifrət etdirməyi Özünə nisbət verərək: **“Sizə sevdirmiş”** və: **“Sizdə nifrət oyatmışdır”**, - buyurarkən bunu heç də məcburi şəkildə (insanın iradəsi və seçiminin rolu olmadan) etdirmək mənasında buyurmur. Bundan məqsəd müvafiq vasitə və şəraiti hazırlamaq və razılaşıb qəbul etməyə müvəffəq etməkdir.

Mübarək ayə çərçivəsində və fəqihlərin müqavilə bağlamaq və (mülkdən) istifadə etmək səlahiyətinin təsdiqi üçün insanda mövcud olması şərt sayılan yetkinliklə bağlı müəyyən etdikləri mənanın işığında biz yetkin cəmiyyətin aşağıdakı ən vacib əlamət və xüsusiyyətlərinə işarə edə bilərik:

**1. Dərrakə və bilik**

Fəqihlərin müəyyən etdiyi mənafeyi ayırd etmək, xeyir və zərəri seçmək qabiliyyəti yetkinliyin birinci səviyyəsidir. Hansı ki, bu, insanın səlahiyyətinin və şəxsiyyətinin müstəqilliyi baxımından şəri və hüquqi qüvvəyə malikdir. Biz buradan ictimai yetkinliyin ilk səviyyələrinin müəyyən edilməsini sitat gətirə bilərik. Bu isə cəmiyyətin öz mənafeyini müəyyən edə bilməsi, cəmiyyət olaraq ona nəyin fayda və ya nəyin zərər verdiyini ayırd

edə bilməsi üçün onun reallığı ilə əlaqəli olan məsələlər haqqında məlumatlı olması və onları anlamasıdır.

Cəmiyyətdə bir çox insanlar öz şəxsi qayğıları və ya ikinci dərəcəli kənar məsələlərlə məşğuldurlar. Onlar öz cəmiyyətlərinin problemlərinə əhəmiyyət vermir və ümmətini əhatə edən vəziyyət və şəraitdən də xəbərdar deyillər. Quran bizə İslamın ilkin dövründə, o zaman hələ bütpərəstlik ab-havasının təsiri altındakı Məkkədə azlıqda olan yetkin bir qrupun rumlularla farslar arasında gedən döyüşün nəticəsinə necə önəm verdiyindən danışır. Bu döyüş Rum ərazisinin ən ucqar hissəsində, fars torpaqlarına ən yaxın nöqtələrdə cərəyan edirdi. Bu qədər uzaq coğrafi məsafəyə baxmayaraq Məkkədəki möminlər həmin döyüşün məlumatlarını izləyirdilər. Və o dövrdə hələ müşrik olan farslar kitab əhli olan rumlular üzərində qələbə qazandıqda möminlər, rurmlularla aralarında hansısa münasibət və ya müttəfiqlik olmasa da, onların məğlubiyyətinə görə məyus oldular. Bu isə onların həmin müharibənin çəkisini, nəticələrini və nələri əks etdirəcəyini dərk etdiklərini göstərir. Buna görə də Allah-təala Quranda bu döyüşdən və möminlərin onun nəticələrinə reaksiyasından bəhs edən “ər-Rum” adında tam bir surə nazil etdi. Bu surədə Allah-təala möminlərə qısa müddət ərzində nəticənin dəyişəcəyini, rumluların qarşıdakı bir neçə ilin içində qələbə qazanacaqlarını müjdə verir: **“Əlif, Lam, Mim! Rumlular (bizanslılar iranlılara) məğlub oldular. Ən yaxın bir yerdə (Şamda və ya İordaniyada). Lakin onlar (bu) məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində. Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər”** *(ər-Rum, 1-4).*

Bəqərə surəsinin 143-cü ayəsində: **“Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid**

**olasınız"**, - deyə buyurulduğu kimi, Allah-təalanın möminlərə bəxş etdiyi dünya üzərində şahidliyin rolunu nəzərə alsaq, bu o deməkdir ki, imanlı cəmiyyət, öz vəziyyətindən və problemlərindən xəbərdar olmaqla yanaşı, qlobal dəyişiklikləri və beynəlxalq göstəriciləri müşahidə edə biləcək ən yüksək şüur səviyyəsinə can atmalıdır. İmam Əli (ə) buyurur: *"Ağıllı insan bu üç şeyi etməlidir: Öz işi ilə maraqlanmalı (öz problemləri ilə məşğul olmalı), dilini qorumalı və öz dövrünü tanımalıdır"*[39] .

### 2. Gözəl rəftar

Cəmiyyət şəraitə, problemlərə və böhranlara necə reaksiya verir? Orada təslim olmaq və naməlum yerdən möcüzə gözləmək vəziyyəti hökm sürür, ya ona emosiyalar və hisslər hakim kəsilir və o, düzgün planlaşdırmadan uzaq bir həvəslə təhrik edilir? Yoxsa o, obyektiv düşüncə və müdrik proqramla çətinliklərin qarşısına çıxır?

Cəmiyyətin yetkinliyi və bitkinliyi bu seçimlərdən nəyi seçdiyi və nəyə əməl etdiyi ilə ölçülür. Problem qarşısında məğlub olmaq iradənin itdiyini və özünəinamın zəifliyini göstərir. Hisslərin və emosiyaların təsiri altına düşmək və nəticədə müdrikliyin və düşüncənin aradan getməsi problemi daha da artıra və böhranı daha da dərinləşdirə bilər.

Yetkinliyin tələb etdiyi isə gözəl rəftar və uyğun şəraitdə müvafiq mövqe tutmaqdır. Belə ki, bəzən vəziyyət sərtlik və güc, bəzən şövq və emosiya, bəzən də yumşaqlıq və anlayış tələb edə bilər. Məhəmməd peyğəmbərin (s) həyatında müxtəlif vəziyyətlərdə gözəl rəftarın ən möhtəşəm nümunələri və misalları var. Rəsulullahla (s) birlikdə olan ilk müsəlmanlar Allah-təalanın

[39] Həsən ibn Əli ibn Şübə əl-Hərrani, "Tuhəful-uqul", səh. 144.

vəsf etdiyi kimi **“kafirlərə qarşı sərt”**[40] idilər. Qatıldıqları döyüşlər və yürüşlər onların şücaətlərini və fədakarlıqlarını göstərirdi. Lakin kafirlərə qarşı sərt olan bu insanlar hicrətin altıncı ilində zahirən müşriklərin xeyrinə və müsəlmanların izzəti bahasına olan şərtlərlə bağlanmış Hüdeybiyyə sülhünü də qəbul etdilər. Hətta həmin vaxt bəzi səhabələr hisslərinin və emosiyalarının təsiri altına düşərək baş verənlərə etiraz etdilər. İbn Hişam və digər tarixçilər qeyd edirlər ki, Ömər ibn Xəttab o gün Rəsulullahın (s) yanına gələrək dedi: *“Ya Rəsulullah, sən Allahın peyğəmbəri deyilsənmi?”* Həzrət buyurdu: *“Əlbəttə (Allahın peyğəmbəriyəm)”*. Ömər dedi: *“Biz müsəlman deyilikmi?”* Həzrət buyurdu: *“Əlbəttə (müsəlmansınız)”*. Ömər soruşdu: *“Onlar da müşrik deyillərmi?”* Rəsulullah (s): *“Əlbəttə (müşrikdirlər)”*, -deyə cavab verdikdə Ömər dedi: *“Bəs onda nəyə görə dinimizlə bağlı belə bir alçaldıcı güzəştə razılaşırıq?”* Peyğəmbər (s) buyurdu: *“Mən Allahın bəndəsi və rəsuluyam, əsla Onun əmrindən çıxmaram və O da məni tərk etməz (məni köməksiz qoymaz)”*. İbn Hişam yazır ki, Ömər sonralar belə deyirdi: *“Mən həmin gün etdiyim hərəkətdən (o hərəkətin günahından) qurtulmaq üçün, (Hüdeybiyyə günü) dediyim sözlərdən qorxaraq yaxşı olacağına (bağışlanacağıma) ümid edənə qədər sədəqə verməyə, oruc tutmağa və namaz qılmağa davam etdim”*[41].

Hüdeybiyyə sülhü bağlanarkən Qüreyş tərəfdən olan nümayəndə Süheyl ibn Əmr sülh müqaviləsində “Bismillahirrəhmanirrəhim” sözünü yazmaqdan imtina edərək onun əvəzinə “Sənin adınla, ey Allahım” yazılmasını israr etdi. Rəsulullah (s) da buna razı oldu. Sonra Süheyl müqavilədəki “bu, Allahın

---

[40] əl-Fəth, 29.
[41] İbn Hişam, “əs-Sirətun-nəbəviyyə”, c. 3, səh. 346.

peyğəmbəri olan Məhəmmədin bağladığı sülh müqaviləsidir" sözlərinə etiraz edərək dedi: *"Əgər sənin Allahın peyğəmbəri olduğunu qəbul etsəydim, səninlə vuruşmazdım. Sadəcə adını və atanın adını yaz"*. Rəsulullah (s) buna da razı oldu. Sonra Süheyl belə bir şərt qoydu: *"Qüreyşdən kim vəlisinin (böyüyünün, qəyyumunun) izni olmadan Məhəmmədin yanına gəlsə, o, onu onlara (qüreyşlilərə) qaytaracaq, amma Məhəmmədin yanında olanlardan kimsə Qüreyşin yanına gəlsə, (qüreyşlilər) onu ona (Məhəmmədə) qaytarmayacaqlar"*. Bu, ədalətsiz bir şərt olsa da, Rəsulullah (s) buna da razı oldu. Və elə oldu ki, Məkkədə zülmə məruz qalan müsəlmanlardan biri (üzərindəki) qandalları və buxovları sürüyə-sürüyə müsəlmanların düşərgəsinə pənah gətirdi. O, Süheyl ibn Əmrin oğlu Əbu Cəndəl idi. Atası Süheyl onun yanına gəlib üzünə bir zərbə vurdu və Rəsulullahdan (s) tələb etdi ki, ona sığınacaq verməkdən imtina edib onu Qüreyşə qaytarsın. Rəsulullah (s) buna razılıq verdikdə Əbu Cəndəl qışqıra-qışqıra dedi: *"Ey müsəlmanlar, məni dinimdən azdıracaq müşriklərin yanınamı qaytarırsınız?"* Bu sözlər müsəlmanların coşmasına səbəb olsa da, Rəsulullah (s) ona buyurdu: *"Ey Əbu Cəndəl, səbr et və savab qazan, Allah sənə və səninlə birlikdə olan məzlumlara qurtuluş və çıxış yolu bəxş edəcəkdir"*[42] .

Bütün bunlara baxmayaraq, Allah-təala bu sülhü açıq-aşkar qələbə saydı: **"(Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə (müsəlmanların fəthlərinin başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş etdik!"** *(əl-Fəth, 1)* Çünki onun nəticəsi axırda İslamın xeyrinə oldu.

[42] Eyni mənbə, səh. 347.

Beləcə, vəziyyətə emosiya deyil, ağıl nəzarət etməlidir. Yetkin cəmiyyət vəziyyəti obyektivlik və düşüncə ilə qiymətləndirərək ona uyğun münasibət göstərən cəmiyyətdir.

**3. İmkanlardan istifadə etmək**

Hər bir cəmiyyətin təbii və bəşəri imkanları vardır ki, bunlar bir cəmiyyətdən digərinə fərqlənir və dəyişir. Yetkin cəmiyyəti digərlərindən fərqləndirən cəhət onun bu imkanları üzə çıxarıb inkişaf etdirməyə, onlardan bəhrələnmək və toplumun tərəqqisi yolunda istifadə etməyə maraq göstərməsidir. Bəzi cəmiyyətlər öz təbii sərvətlərinə etinasız yanaşır, üzvlərinin bacarıq və qabiliyyətlərinə məhəl qoymurlar. Şüurlu cəmiyyətlər isə öz resurslarını inkişaf etdirməyə, təbii və sosial potensialından maksimum yararlanmağa çalışır. Budur, bizə yaxın kiçik bir ada olan Kipr təbii potensialdan bəhrələnməyin nümunəsidir. O, Aralıq dənizinin şimal-şərq küncündə, Türkiyənin cənubundan 64 km-lik, Suriyanın qərbindən isə 100 km-lik məsafədə yerləşir. Əhalisi yeddi yüz min nəfərdən azdır və onlar da avropalılar kimi yüksək həyat səviyyəsinə malikdirlər. Əhalisinin savadlılıq səviyyəsi 90%-dir, neft və mineral sərvətləri olmasa da, füsunkar təbiətlərinə sərmayə yatırıb, ölkələrini mühüm turizm bölgəsinə çeviriblər. Orada zəngin kənd təsərrüfatı məhsulları ilə yanaşı, turizm də əsas itqisadi resursdur.

İnsan resurslarından istifadə etmək sahəsində Yaponiya gözəl bir nümunə təqdim edir. Belə ki, onun elmi və iqtisadi gücü insanlarının texnoloji və istehsalçılıq göstəricilərinin səviyyəsini inkişaf etdirməkdədir. Yaponiya təbii sərvətlərinin azlığına baxmayaraq, hazırda dünyanın böyük iqtisadi gücüdür. O, sənaye sahələrinə lazım olan bir çox xammalı xaricdən alır.

İslam ümmətinin cəmiyyətləri nə qədər böyük imkanlara və potensiala malikdirlər. Lakin onların ehtiyacı olan şey bu imkanlardan tərəqqi və inkişaf üçün istifadə etmək və yararlanmaqdır.

**Fikir azadlığı və cəmiyyətin tərəqqisi**

Cəmiyyətdəki tərəqqi və gerilik kortəbii xarakter daşımır, nə də təsadüfən, yaxud yaxşı və pis bəxt nəticəsində yaranmır. Sadəcə, cəmiyyətin yaşadığı müəyyən bir vəziyyət var ki, bu, gerilik və tərəqqi yaradır. Ona görə də hər bir cəmiyyətin üzvlərinin düşüncə tərzini, davranışlarını öyrənməklə onun gələcəyini proqnozlaşdırmaq olar. Əgər bu düşüncə tərzi və davranışlar irəliləyiş yaradırsa, onların cəmiyyəti tərəqqiyə namizəddir, əgər durğunluq yaradırsa, onlara bağlı olan cəmiyyət gerilik şəraitində yaşayacaqdır. Ona görə də: **"(Ya Peyğəmbər!) Bəndələrimə müjdə ver! O kəslər ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!"**[43] – deyə buyurulan ayədə "**bəşşir**", yəni, ya Məhəmməd, müjdə ver, sözü ilə ifadə edilir. Məlum olduğu kimi, müjdə - sevindirici xəbər verməkdir. Onun əksi isə zərərli bir şeyin baş verməsindən çəkindirmək mənası verən "inzar", yəni xəbərdarlıq etmək, qorxutmaqdır. Sözü gedən ayə aşağıdakı xüsusiyyətə malik olan şəxsləri müjdələyir:

**"O kəslər ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar"**.

Odur ki, yaxşılıq və tərəqqi gözlənilən kimsələr məhz bu xüsusiyyətə malik olanlardır. Əks xüsusiyyətə malik olanlardan isə ancaq gerilik və pislik

---

[43] əz-Zumər, 17, 18.

gözlənilər. Ayədə elə bir xüsusiyyətlərdən bəhs edilir ki, əgər onlar hər hansı bir cəmiyyətdə yayılsa, biz ondan xeyir gözləyə bilərik.

**İnanc və ifadə azadlığı**

Həmin ayədə: **“O kəslər ki, ... dinləyib”**, - ifadəsi buyurulur. Eşitməklə dinləmək arasında fərq var. Dinləmək qəsdən və məqsədyönlü olur. Buradan anlayırıq ki, ayə, üzvləri müxtəlif çoxlu kəlamlar və fikirlər haqqında öyrənməyə can atan bir cəmiyyətdən bəhs edir.

Ayədəki **“sözü”** kəlməsinə gəlincə, təfsir alimləri bunu iki mənada açıqlamışlar:

**Birinci:** Ayədəki **“sözü”** kəlməsində mütləq şəkildə bütün sözlər, yəni fikirlər, rəylər toplusu nəzərdə tutulur.

**İkinci: “Sözü”** kəlməsindən məqsəd xüsusi olaraq Qurani-kərimin sözləridir.

İkinci rəyi deyənlər Qurani-kərimin sözlərindən ən yaxşını müəyyən etmək problemi ilə üzləşmiş olurlar. Belə ki, Quranın ayələri arasında bir-birindən üstünlük və bərabərsizlik yoxdur ki, yaxşı və daha yaxşı olsun (hamısı Allahın kəlamıdır). Onlar bu problemi həll etmək üçün ayəni belə bir istiqamətə yönləndirmişlər ki, burada nəzərdə tutulan Quranda mübah olanlara dair şəriət qanunlarının və müstəhəblərə çağırışın olmasıdır. Mömin o kəsdir ki, onların ən yaxşısının ardınca gedir. Bu isə müstəhəb olandır. Çünki o, daha üstündür və savabı vardır. Onlar bunun üçün Quranın qisas qanununu, sonra isə əfv etmək çağırışını misal çəkmişlər. Belə ki, müsəlmanın qisas almaq hüququ olsa da, o, əfv etməyə meyl edir. Ən yaxşı olan da budur.

Birinci rəyə görə, – hansı ki, ayənin mənası elə bu ola bilər – ayədə hesab edilir ki, müjdə verilən mömin müxtəlif fikir və rəyləri dinləməyə çalışan və onların ən yaxşısına uyan kəsdir. Təbii ki, müəyyən bir rəyə və ya fikirə uymaq yalnız təfəkkür, düşünmək və diqqətlə nəzərdən keçirməkdən sonra gəlir. Burada ayə bizim hər birimizi rəylər və fikirlər üzərində düşünməyə və onları diqqətlə nəzərdən keçirməyə, eləcə də onların arasında müqayisə aparmağa istiqamətləndirir. Bir şərtlə ki, bu müqayisə yaxşı ilə daha yaxşı arasında olsun. Təfəkkür və nəzərdən keçirmə səthi olmamalı, müqayisə isə təkcə pislə yaxşı arasında deyil, yaxşı ilə daha yaxşı arasında olmalıdır.

Mübarək ayənin bu istiqamətləndirməsi bizi belə bir mühüm məqama yönəldir: insan bütün fikirlərə bələd olmadıqca ən gözəl fikir və rəyi seçdiyini iddia edə bilməz. Ona görə də şüurlu cəmiyyət o cəmiyyətdir ki, orada bütün rəylər və fikirlər heç bir qadağa və maneə olmadan irəli sürülür ki, üzvləri onlardan ən yaxşısını seçsinlər. Başqa sözlə desək, sözü gedən ayə fikir və ifadə azadlığı şəraitində yaşayan cəmiyyəti müjdələyir və onu doğru yola ən yaxın cəmiyyət hesab edir.

**Keçmişdəkilər başqalarının fikrini istisna etməzdilər**

Qədim irsimizdə fikir azadlığı, çoxsaylı fikirlərin təqdim edilməsi üstünlük təşkil edirdi. Köhnə qrammatika kitablarında, məsələn, Bəsrə rəyinin Kufə rəyi ilə yanaşı gəldiyini, müəllifin onları qeyd edərək müzakirə apardığını görürük. Həmçinin, dil kitablarında bir kəlmənin çoxsaylı mənalarının, heç bir nadir mənanı belə, istisna etmədən, qeyd edildiyini görürük. Quran təfsirlərinə nəzər saldıqda da görürük ki, təfsir alimləri ayənin təfsirində müxtəlif fikirləri nəzərdən keçirir və ardından qəbul etdikləri rəyə üstünlük verirlər. Ona görə də qədim təfsir kitabları Qurani-kərimin təfsirləri

ilə bağlı çoxlu rəyləri ehtiva edir. Fiqh və Üsul kitablarında da görürük ki, alimlər hər bir məsələyə dair rəyləri araşdırır və ciddi elmi müzakirədən sonra özlərinin inandıqları rəyi tərcih edirlər. Qədim kitablarda isə məşhur rəylə yanaşı nadir rəyə də rast gəlirik. Əhəmiyyətli olan rəyin yayılması və ya nadir olması deyil, dəlilidir. Çünki bəzən nadir rəy öz daxilində onu gücləndirən bir dəlil daşıya bilər.

### Müsəlman cəmiyyətləri və təkfikirlilik

Təəssüf ki, gerilik vəziyyəti bizim müsəlman cəmiyyətlərində bir fikrin hökmranlığını yaratmış və orada hər hansı fərqli fikrin irəli sürülməsini rədd etmişdir. Halbuki mütərəqqi cəmiyyətlərdə müxtəlif siyasi, elmi və intellektual müstəvilərdə fərqli fikirlərin mövcudluğu ictimai vəziyyətin bir hissəsi olur. Cəmiyyətlərimizin bu gün yaşadıqları yuxarıdakı ayənin dediyi ilə ziddiyyət təşkil edir. Allah-təala bu ayədə bizdən müxtəlif fikirləri dinləyib onların ən yaxşısına (düzgününə) uymağı tələb edir. Bəs biz fikirləri istisna və rədd ediyimiz halda onları necə araşdıra bilərik?! Bəziləri hakim mədəniyyətdən irs olaraq aldıqları fikrə zidd bir fikir eşidən kimi bu fikri irəli sürənləri azğın, satqın, əqli və ideoloji cəhətdən yoldan sapmış hesab edir və ona qarşı hazırlanmış ittihamlar söylüyürlər. Bu isə həmin cəmiyyətlərdəki geriliyin təzahürlərindəndir. Əslində cəmiyyətdə fikirləri bildirmək imkanı olmalı, insanlar isə ağıllarına güvənmək və onu pozmamaq imkanı əsasında bu fikirləri mühakimə etmək üçün ağıllarını işlətməlidirlər. Həm də ona görə ki, ağıl Allahın qiyamət günü bizə gətirəcəyi batini dəlildir. Belə ki, Allah qiyamət günü insanlara zahiri dəlillər olan peyğəmbərləri dəlil gətirəcəyi kimi, ağlı da dəlil gətirəcəkdir.

**Cəmiyyətdə başqa fikri qəbul etmə mexanizmləri**

Tək fikir və düşüncə ilə yaşayan cəmiyyətlər yalnız aşağıdakı iki amil sayəsində inkişaf edə və davranışlarını dəyişə bilərlər:

**Birinci: fikir bildirmək cəsarətinin olması**

Bu geridə qalmış cəmiyyətlərdə belə bir addım üçün şərait əlverişli olmur, daha doğrusu, cəsarət baha başa gəlir və adətən ilk addım atanlar öz cəsarətlərinin bədəlini ödəyir. Bədəli isə ağır olur, bəzən öldürülmə həddinə də çata bilər. Amma hakim ictimai zehniyyəti və davranışları dəyişmək üçün fikir bildirməkdə israr olmalıdır ki, bu fikir yayılsın və onu qəbul edənlər onun etibarlılıq dərəcəsini bilsinlər, ideya da onun ətrafında cavab və qarşı cavab vasitəsilə formalaşsın. Bu bir tərəfdən, digər tərəfdən də bu addım (yəni, fikir bildirməkdə israrlı olmaq) başqalarının da fərqli fikirlər irəli sürmələrinə yol açır.

**İkinci: Cəmiyyətin fikrə hörmətlə yanaşması**

Belə ki, cəmiyyət özünə tanış olan fikirdən fərqli bir fikrin irəli sürülməsini qəbul etməyə adət etsin və onu irəli sürənlə ciddi elmi müzakirə aparsın. Amma fərqli fikir irəli sürməyə cəsarət edən hər kəsə intellektual basqı olarsa, bu cəmiyyət inkişaf edə bilməz. Çünki ayə başqa fikri irəli sürməyə imkan verməkdən boyun qaçıranlara deyil, dinləyən, müzakirə edən və düşünənlərə müjdə verir.

## İctimai özünütənqid

Allah-təala bu iki mübarək ayədə iki əzəmətli şeyə and içir: **"And içirəm qiyamət gününə! And içirəm özünü qınayan nəfsə!"** *(əl-Qiyamə, 1,2)*

**Birinci:** Qiyamət gününə and içmək. Qiyamət gününün əzəməti və əhəmiyyəti hamıya məlumdur. O, insanların məhşərə gətirilərək haqq-hesab çəkiləcəyi və onların əbədi taleyinin həll olunacağı gündür.

**İkinci:** Özünü qınayan nəfsə and içmək. Bu iki şeyə bərabər and içilməsi onların əzəmət və məqamca bir-birinə yaxın dərəcədə olduqlarını göstərir.

**Özünü danlayan nəfs nədir?**

Özünü danlamaq, insanın özünü qınaması və səhvinə görə özü ilə haqq-hesab çəkmək üçün onu nəzərdən keçirməsidir. İnsanda bu hal daimi olduqda isə onun nəfsinə "özünü danlayan nəfs" deyilir. Allah-təala insanın nəfsində bu xüsusiyyəti yaradıb. Bu, eynilə insanın orqanizmində xəstəliklərə qarşı immunitetin olması kimidir. İnsan orqanizmində immun sistemi pozularsa, onun həyatı bütün təhlükələrə məruz qalar. Bu, hazırda QİÇS adlandırılan təhlükəli bir xəstəlikdir. Özünü danlayan nəfs də insanda günah və xəta mikroblarına qarşı olan mənəvi immun sistemidir. İnsanın təbiəti belədir ki, o, xəta etdikdə vicdanı hərəkətə gəlib onun diqqətini xətasına yönəldir, ona xətasını düşündürür və düşündüyü anlarda da insan xətalarına görə özü ilə haqq-hesab çəkir. Amma bu hal günahların və xətaların yığılması səbəbindən aradan getdikdə xəta artıq insanın özünü nəzərdən keçirməsinə və özü ilə haqq-hesab çəkməsinə təkan vermir. Nəticədə insan özünü danlayan nəfsin təsir dairəsindən çıxaraq pis işlər görməyi əmr edən nəfsin təsir dairəsində qapanıb qalır. Bu zaman insan mənəvi təhlükə və məhv olma nöqtəsində olur. Onu yalnız Allah-təala xilas edə bilər: **"Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi əmr edər"** *(Yusuf, 53).*

**Özünütənqid zərurət və çətinlikdir**

Özünü danlayan nəfs insanın özü ilə üz-üzə gəlməsi və səhvlərinə görə onu hesaba çəkməsi anlamındadır. Bu isə mühüm bir məsələdir. Çünki özünü hesaba çəkmək və özünü tənqid etmək zəruri proses olduğu qədər də çətin bir prosesdir. Özünütənqid zərurətdir, çünki insan özünü tənqid etmədikcə səhv etməyə davam edər. Amma özünü tənqid edər və hesaba çəkərsə, onu o səhvdən xilas edər və bu maneəni aşar. Bu, xəstəliklər bədəndə möhkəmlənməzdən əvvəl müalicə məqsədi ilə onların əlamətlərini aşkar etmək üçün bədəndə vaxtaşırı müayinələr aparmağa bənzəyir. Odur ki, özünütənqid bir zərurətdir, lakin istər fərdi, istərsə də ictimai səviyyədə bu, çətindir.

**Fərdi səviyyədə**

**Birinci:** Özünütənqid insanı dəyişikliklərə, şəhvət və nəfsani istəklərlə mübarizəyə qarşı məsuliyyətli edir. Səhvlər nəfsi istəklər və qəflət ucbatından baş verir. İnsan özünütənqid prosesini həyata keçirdiyi zaman nəfsi istəklər və şəhvətlə, eləcə də qəflət və laqeydlik vəziyyəti ilə üz-üzə qalır və bu çətin bir prosesdir. Bir çox hallarda şəhvani istəklər insanın nəfsinə hakim olduqda o, istəklərinə və şəhvətinə bağlı vəziyyətdə qalır. O, məhz təfəkkür anında səhvə qalib gəlməyin zəruriliyini dərk edir. Lakin nəfsi istəklərin və şəhvətin cazibəsi səhvdən qaçmaq prosesini çətin bir prosesə çevirir və nəticədə insan özü ilə mübarizə aparmaq vəziyyətində qalır. Buna görə də bəzilərinin bu savaşdan, bu daxili mübarizədən canlarını qurtarmaq üçün özlərini hesaba çəkməkdən və nəzərdən keçirməkdən tamamilə uzaqlaşdığını görürük.

**İkinci:** Özünütənqid insana məğlubiyyət və geriləmə mövqeyində olduğunu hiss etdirir.

İnsanın müəyyən bir fikri və mövqeyi olduqda özünü tənqid edən zaman bu, onun öz fikrindən və mövqeyindən geri çəkilməsi ilə nəticələnə bilər və bu ona başqaları qarşısında məğlubiyyət vəziyyətində olduğunu hiss etdirə bilər. İnsanın qüruru isə özünü bu vəziyyətə salmağa imkan vermir və ona görə də o, özünü böyük tutaraq səhvini etiraf etmir ki, başqalarının qarşısında məğlub olmuş kimi görünməsin.

**İctimai səviyyədə**

Hər bir cəmiyyət fikir və davranış üslublarında səhvlərə məruz qalır. Bəzən fikir və ya davranış tamamilə yanlış olmaya bilər, sadəcə, şəraitin və vəziyyətin dəyişməsi onu yanlış hala salmış olar. Hansısa təcrübə müəyyən bir zamanda düzgün ola bilər, lakin zamanın dəyişməsi ilə bu təcrübə səhvə çevrilər və onun dəyişdirilməsinə, həll edilməsinə ehtiyac duyular. Cəmiyyətlərdə adətən özünütənqid çətin olur, xüsusən də sərbəst fikir ifadə etmək və fikir azadlığı kimi tənqid üçün əlverişli mühitin olmadığı cəmiyyətlərdə belə olur. Burada cəmiyyət özündən uzaqlaşma vəziyyətinə düşür və onda daxili boşluqlar yaranır. Çox vaxt daxili problemləri ört-basdır etmək vasitəsi diqqəti xarici düşmənə yönəltmək olur. Biz görürük ki, bəzi siyasi rejimlər diqqəti xarici düşmənlərə yönəldir, insanların diqqətini mövcud daxili problemlərdən yayındırmaq üçün zaman-zaman xarici problem yaratmağa çalışırlar. Mədəni və ictimai səviyyədə görürsən ki, insanlar xarici problemə qarşı impulsiv (əzmlə, canfəşanlıqla), daxildəki səhvə qarşı isə çox çətinliklə hərəkət edirlər. Nə üçün başqalarının təcavüzünə etiraz etmək bizim üçün asandır, amma digər tərəfdən, daxili səhvlərə göz yumuruq?

Biz müxtəif məzhəblər arasında da belə bir halla rastlaşırıq, hər bir tərəf qarşı tərəfin səhvlərinə doğru istiqamətlənir. Şiə sünni kitablarında mövcud olan xətaları araşdırır və bununla öz camaatı arasında müsbət tarazlığa nail olur. Eyni şey sünniyə də aiddir. Bəs görəsən şiə və ya sünni araşdırmaçı öz kitablarındakı səhvləri müzakirə edə bilərmi? Ona görə də səhvlər gözdən qaçmış, biz də dini irsimizdə və adət-ənənələrdə olan səhvlərə qarışmışıq. Bu vəziyyət geridə qalmış cəmiyyətlərdə hökm sürür. Mütərəqqi cəmiyyətlərdə isə özünütənqid vəziyyəti mövcuddur. Orada müxalifət siyasi sistemin bir hissəsidir. Amma əksər ərəb cəmiyyətlərində müxalifətçilik cinayət sayılır.

Əgər bir insan sünni və ya şiələrin böyük alimlərinin xatirələrini oxusa, dini və mədəni sahədə daxili özünütənqidə üz tutanların kənarlaşdırıldığını və təkləndiyini görər. Daha da pisi odur ki, dini mühit irs və təcrübələrin tənqidindən əlavə, hətta vasitələrin inkişafına qarşı belə güclü müqavimət göstərir. Burada ortaya belə bir sual çıxır ki, biz cəmiyyətimizdəki bütün fikir və təcrübələrin düzgün olduğuna əminikmi? Və əgər düzgündürsə, ondan daha düzgün bir şey yoxdurmu? Allah-təala buyurur: **“O kəslər ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar”** *(əz-Zumər, 18).* Elə isə bəs niyə tənqidə yer yoxdur? Tənqid azadlığına mane olan bir neçə səbəb vardır:

**Birinci:** Bəzi insanlar arasında belə bir düşüncə hökm sürür ki, bir sıra məsələləri tənqid etmək, hətta onlar ikinci dərəcəli məsələlər olsa belə, bütün quruluşu dağılmağa məruz qoyur. Lakin səhlənkarlığın olacağından qorxduğumuz kimi, həddi aşmaqdan da ehtiyatlanmalıyıq. Eləcə də yanlış tənqidin doğruya təsir edə biləcəyindən qorxduğumuz kimi, səhvin qarşısında susmağın bizi başqa bir səhvə apara biləcəyindən, mövcud səhvləri daha da dərinləşdirə biləcəyindən də qorxmalıyıq.

**İkinci:** Tənqid prosesinin başqaları qarşısında zəifliyimizi göstərdiyini söyləmək. Bu söhbətin zamanı artıq keçib, çünki daha qorxulu şeylər yoxdur. Əksinə, özünütənqid indi zəifliyin deyil, gücün göstəricisinə çevrilib. Belə ki, özünü tənqid edən, səhvlərini düzəldən tərəf səhvlərini ört-basdır edən tərəfdən daha çox hörmətə layiqdir. Əgər məsələnin dini yönü, dini məsuliyyəti varsa, o zaman biz hansı haqla dinə və möminlərin mənafeyinə xələl gətirən səhvi bu məntiqsiz əsaslandırmalarla ört-basdır edirik?

**Üçüncü:** Hər bir cəmiyyətdə mövcud vəziyyəti qoruyan rəqabət aparan qüvvələrin olması. Cəmiyyətdə mövcud vəziyyəti qorumağa görə məsuliyyət daşıdıqlarını hesab edən tərəflər var. Onların müdafiə etmək və ya güclərini göstərmək üçün heç bir başqa mövzuları olmadığından başqalarını özlərinə cəlb etmək üçün meydanları və sahələri məhz mövcud vəziyyəti müdafiə etməkdir. Ona görə də siz onların hər hansı tənqidi, düzəlişi və ya inkişafı rədd etdiklərini görərsiniz və bu, iki şeyə gətirib çıxarır:

**Birincisi:** zəifliklərin cəmiyyətdə qalması və onu başqaları qarşısında zəiflətməyə davam etməsi.

**İkincisi:** inandırıcı olmayan fikir və işlərdən qaçan gənclərin, yeniyetmələrin cəmiyyət daxilindəki reaksiyası.

Təbii ki, bu, istənilən tənqidin haqlı və düzgün olması demək deyil, çünki tənqidə layiq olanı müəyyən etməkdə səhv və şübhə ola bilər. Sadəcə burada məqsəd odur ki, tənqid cinayət olmamalı və səhv haqqında danışmaq rədd edilməməlidir. Problem ondadır ki, bu intellektual terror cəmiyyətdəki alimlərə və mütəfəkkirlərə təsir edir, onların cəmiyyətdəki hər hansı bir məsələyə, yaxud adət-ənənəyə öz mövqe və ya rəy bildirmələrinə mane olur. Bu isə həm cəmiyyətlər və məzhəblər, həm də ümumilikdə İslam ümməti səviyyəsində təhlükəli bir vəziyyətdir. Bəs biz müsəlman insanı özünü hesaba

çəkməyə çağıran hədislərdən niyə uzaq düşmüşük? İmam Əli (ə) buyurur: *"Özünü hesaba çəkən uğur qazanar, özünə etinasızlıq edən (özündən qafil olan) isə ziyana uğrayar"*[44] . Həmçinin, o Həzrət buyurur: *"Özünü hesaba çəkməyin bəhrəsi nəfsin islahıdır"*[45] .

Bir də ki, niyə biz başqalarının təcrübələrindən, öz cəmiyyətlərində tənqidi qanuniləşdirərək irəliləyişə nail olan digər toplumlardan faydalanmırıq, cəmiyyətlərimiz elə hər hansı bir özünütənqiddən boyun qaçıran bir vəziyyətdə yaşamağa davam edir? Tənqid cəmiyyət üçün güc amili və həqiqətin aydınlaşdırılmasıdır.

### Ağrılar və ümidlər sözlə əməl arasında

İnsanın bu həyatla təması onda istək və arzular doğurur. Həmçinin, həyatın təbiəti insanın can atdığı və arzuladığı şeylərin qarşısında maneələr yaradır. Burada insanlar üç qrupa bölünür:

**Birinci qrup:** Susmağa riayət edənlər, nəyisə arzulayan, lakin arzusu özündə gizli qalan, onu kimsəyə bildirməyən şəxslər. Beləlləri tərəqqi yolunda maneələrlə üzləşir və onlardan əziyyət çəkirlər, lakin ağrıları özlərində qalır, hiss etdiklərini kimsə ilə paylaşmırlar.

**İkinci qrup:** Danışmaqda və içindəkiləri ifadə etməkdə mahir olanlar. Belə şəxslər çəkdikləri ağrı-acılardan və can atdıqları, gerçəkləşdirmək istədikləri amallarından danışarlar. Onlar əllərinə düşən istənilən fürsətdə içlərində olanları açıb tökərlər. Bu qrup əvvəlki qrupdan qabaqcıl dərəcədə hesab olunur.

---

[44] Nəhcül-bəlağə, 208-ci hikmətli kəlam.
[45] Əbdülvahid Amili ət-Təmimi, "Ğurərul-hikəm və durərul-kəlim", səh. 329.

**Üçüncü qrup:** İstəklərinə çatmaq və yollarından maneələri qaldırmaq üçün səy göstərənlər. Ən yaxşısı da budur. İstəklərini özlərində saxlamır, içindəkilər haqqında danışmaqla kifayətlənmir, əksinə, istəklərinə çatmağa can atır, onu necə gerçəkləşdirəcəklərini düşünür və istədiklərinə çatana qədər əməli səylərini gücləndirərək planlar qururlar.

Maneələr qaçılmaz bir tale deyil ki, insan onun qarşısında əli-qolu bağlı (çarəsiz) qalsın. Mömin öz həqiqi simasında üçüncü qrupdandır. Bu səbəbdən Allah-təala əs-Saff surəsində buyurur: **"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar"** *(əs-Saff, 2,3).*

Niyə istəkləriniz sadəcə danışıqda və sözlərdədir? Niyə arzuladığınıza çatmaq üçün səy göstərmirsiniz? Niyə inandığınızı tətbiq edib həyata keçirmirsiniz?

Bu, fərdlər baxımındandır və fərdlər bütövlükdə cəmiyyəti təşkil etdiyinə görə eyni üç kateqoriya cəmiyyətlərə şamil edilir. Bizim indi haqqında danışmaq istədiyimiz də budur.

**Susqun cəmiyyətlər**

Bəzi cəmiyyətlər amallarını və ağrı-acılarını özlərində sıxıb saxlayır, istər siyasi və ya ictimai, istərsə də başqa bir səbəbdən onu aşkara çıxartmır, hətta bəzən inkar belə edirlər. Belə ki, onlardan vəziyyətləri barədə soruşulduqda istədiklərinin və şikayət etdiklərinin əksinə cavab verirlər ki, vəziyyətləri yaxşıdır və heç bir çatmışmazlıqları yoxdur. Bu səbəbdən, sual verənə də elə gəlir ki, durumları ürəkaçandır.

**Danışan cəmiyyətlər**

Onlar istədikləri və arzuladıqları şeylər, qarşılaşdıqları problemlər haqqında geniş və ətraflı söhbət açılan istənilən məclisdə içindəkilər haqqında peşəkarcasına danışan cəmiyyətlərdir. Ancaq bu, sadəcə, məclislərdə, internet forumlarında və görüşlərdə söhbətlər olaraq qalır. Addım atmaları üçün ortada heç bir praktiki plan olmur. Artıq bəzi internet forumları, xüsusən də götürülmə adlarla olan forumlar, əsasən məsuliyyətsiz danışmaq və yazmaq üçün metaforaya çevrilib. Belə ki, sən yazan şəxsin ancaq problemi həll etmək və onu kökündən düzəltməklə qane olacağını düşünürsən, o isə sözünü bitirən kimi öz rolunu başa çatmış hesab edərək rahat şəkildə yatmağa gedir. Odur ki, hərəkət olmadan sadəcə danışmaqla heç nəyə nail olunmayacaq. Rəsulullahın (s) İmam Əli (ə)-a tövsiyə etdiyi bir kəlamda o Həzrət belə buyurur: *“Ya Əli, əməlsiz sözdə heç bir fayda yoxdur”*[46] .

Deməli, əgər hansısa bir problemdən danışırsansa, onu həll etmək üçün praktiki bir proqram da hazırlamalısan.

**Hərəkətli cəmiyyətlər**

Onlar öz amalına çatmağa çalışan, ağrı-acılarına əlac etmək üçün mümkün olmayanı edən fəal və aktiv cəmiyyətlərdir. Onlar irəliləyişə nail olmaq və vəziyyətlərini yaxşılaşdırmaq istəyən cəmiyyətlərdir. Əmirəlmöminin Əli (ə) buyurur: *“Hərəkətin (əməlin) sözdən çox olması ən yaxşı fəzilət, sözdən az olması isə ən pis rəzalətdir”*[47] . Yəni əməli danışığından çox olan cəmiyyətlər, danışığı əməlindən çox olan cəmiyyətlərdən fərqli olaraq, yaxşı vəziyyətdə yaşayarlar.

[46] Şeyx Səduq, “Mən la yəhzuruhul-fəqih”, c. 4, səh. 369.
[47] Ğurərul-hikəm və durərul-kəlim, səh. 276.

**Bizim cəmiyyətlərimiz və Qərb cəmiyyətləri**

Bir qədər əvvəl qeyd olunan mübarək ayə (əs-Saff, 2,3) möminlərin cəmiyyətini doğru mərhələyə, əməl və gərgin səy mərhələsinə daşımaq istəyir: Ey möminlər! Ağrı-acılarınız və amalınız haqqında ancaq danışmaqda peşəkar olmayın, siz bu amallara çatmaq, bu ağrı-acıların öhdəsindən gəlmək üçün işə başlamalısınız.

Əgər bu fikrin işığında müsəlman cəmiyyətlərimizin reallığına nəzər salsaq və onları mütərəqqi Qərb cəmiyyətlərinin reallığı ilə müqayisə etsək, çox böyük bir fərq görərik. Əgər bir tədqiqatçıya müsəlman cəmiyyətlərindən olan bir ölkədə müşahidə etdiyi ağrı-acıların və arzuların siyahısını hazırlamaq tapşırılsa, şübhəsiz ki, o, bu arzu və problemlər üçün uzun bir siyahı hazırlamalı olacaq. Amma bu tədqiqatçı arzular və ağrı-acılarla bağlı əməli layihələri sadalamaq istəsə, qeyd edilməyə dəyməyəcək dərəcədə çox az bir şey tapacaq. Halbuki insan fəal və aktiv olan mütərəqqi cəmiyyətlərin reallığına nəzər saldıqda arzularla əməllər arasında böyük bir məsafə görmür, çünki onlar hər hansı bir arzu və ya problem haqqında hansısa bir ideya yetişən kimi hərəkətə keçən cəmiyyətlərdir.

Bizim cəmiyyətlərdə hələ də həllini tapmayan xroniki problemlər var. Buna ən yaxın bariz nümunə xəstəliklərdir. Biz xəstəliklərdən əziyyət çəkirik, qərbdəkilər də əziyyət çəkir, lakin qərb cəmiyyətlərində daima çarə tapmaq üçün axtarışlar var, biz isə bu çarənin bizə gəlməsini gözləyirik. Qərb cəmiyyətlərində QİÇS və xərçəng kimi ağır xəstəliklərin, eləcə də ümumi xəstəliklərin müalicəsi üçün külli miqdarda vəsait ayrılır. Biz isə ağlayaraq Allah-təalanın rəhmətini və qurtuluş yolunu gözləyir, Qərbin çatdığı tərəqqidən heyrətlənir və onların öz əldə etdiklərindən bizə verəcəkləri

zamanı gözləyirik. Bu cəmiyyətlər təkcə müalicəni tapmaqla kifayətlənmir, üstəlik o müalicənin özünü də inkişaf etdirmək üçün araşdırmalar aparmağa davam edirlər. Biz isə beləcə yerimizdə sayırıq, nə irəli gedirik, nə də geri. Biz sosial problemlərimizə nəzər salsaq, görərik ki, cəmiyyətlərimiz problemlərdən danışmaq peşəsinə məharətlə yiyələnib və hansımızdan soruşulsa ki, biz bu problemdən nə qədər vaxtdır əziyyət çəkirik? Bir ağızdan deyəcəyik ki, uzun zamandan bəri.

**Mənfi təzahürlər**

Cəmiyyətlərimizdə ortaya çıxan aşağıdakı təzahürləri müşahidə edə bilərik:

**Problemi dərindən vəsf etmək və onun barəsində geniş danışmaq**

Hansısa bir problemdən danışarkən görürsən ki, sözünə qüvvət vermək üçün şeirdən beytlər və romandan hissələr əlavə edənlər olur. Təfsilat çox olsa da, həllə nail olmaq üçün ondan səmərəli istifadə edə bilmirik. Bütün söhbətlərimiz problemlərin siyahısını artırmağa və təsvir etməyə yönəlir, həll yollarının siyahıları isə yoxdur, daha doğrusu, aradan qaldırılıb, nə düşünmək var, nə sərmayə qoymaq, nə planlaşdırmaq, nə də inkişaf etdirmək. Çox vaxt məhz belə olur. Bu məqamda mübarək ayənin xitabı gəlir: **“Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?”** Niyə ancaq danışmağa çalışırsınız? **“Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar”**. Sözləri əməlinə zidd olan kimsəyə Allahın qəzəbi şiddətli olar.

Bəzi xətiblər, məsələn, dinləyicinin diqqətini cəlb etmək üçün problemi təfərrüatlı şəkildə təsvir edir, bəzən ona kreativ bəzəklər də əlavə edirlər. İnsanlar da eşitdikləri sözlərdən təsirlənir və həm problemi yaxşı təqdim etdiyinə, həm də ürəklərindən xəbər verən məsələyə toxunduğuna görə xətibə

təşəkkür edirlər. Və biz hər il beləcə eyni problemi və ya digər problemləri məharətlə təqdim etməyə davam edirik. Bəs bu problemlərin həlli yollarını necə, təklif edirikmi?

Problemlərin təsviri kifayət qədərdir, vəsflərdə isə şişirdilmə var. Bu, insanın psixoloji enerjisini sərf edən mənfi bir haldır. İmam Baqir (ə) atası İmam Zeynülabidin (ə)-dan nəql edərək belə buyurur: *“Vəsflər çox, əməl isə azdır. Əməl əhli azdır, yenə də əməl əhli azdır”*[48] .

Nə qədər ki, insan motivasiyalı və həvəslidir, hərəkət etməlidir, danışmaqla bu şövq enerjisini boşaltmamalı və özündəki narahatçılığı çıxartmamalıdır. Çünki bu ona rolunun bitdiyini təlqin edər və o, içindəkiləri üzə çıxardıqdan sonra özünü rahat hiss edər. Bu, psixoterapiyada şəxsi problemlərin həlli üçün istifadə edilən bir üsuldur.

Problemləri həll etmək üçün səy göstərmək zəruridir, necə ki, insanlar arasında məşhur bir atalar sözü var: *“Hərəkət səndən, bərəkət Allahdan”*.

Beləcə, əməl olmadan, sadəcə, danışmaq heç vaxt nə irəli aparar, nə də geri. Möminin xüsusiyyəti çox iş görmək və az danışmaqdır. Bu xüsusiyyət öz əksini tapmadıqda o, münafiqlər sırasında olar. İmam Kazım (ə) öz tələbəsi Hişam ibn Həkəmə nəsihətində ona belə buyurur: *“Ey Hişam, Rəsulullah (s) buyurmuşdur: “Mömin az danışan və çox iş görən, münafiq isə çox danışan və az iş görən olar”.”*[49] .

### Məsuliyyəti başqalarının üzərinə atmaq

[48] əl-Kafi, c. 8, səh. 190.
[49] Tuhəful-uqul ən alir-Rəsul, səh. 293.

Çox vaxt boş dayanıb hansısa yerdən, istər xaricdən, istərsə də daxildən həll gözləyirik. Bəzən də ümidlərimizi müəyyən bir insana və ya cərəyana bağlayırıq. Bunu hərdən xoş niyyətlə, hərdən də utandırmaq və çaşdırmaq məqsədilə başqalarının üzərinə öhdəliklər qoymaq və özümüzü məsuliyyətdən azad etmək üçün edirik. Bu doğru deyil. Rəsulullah (s) əziz səhabəsi Abdullah ibn Məsuda belə nəsihət edərdi: *"Ey İbn Məsud! İnsanları çətinliyə salıb öz işini yüngülləşdirənlərdən olma. Allah-təala buyurur:* ***"Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?"****"*[50] . Məsuliyyəti insanların üzərinə atıb özünü unutma.

O mütərəqqi cəmiyyətlərdə öz cəmiyyətinin problemlərini həll edən şəxs təşviq, təşəkkür və maddi dəstək görür. Sanki onlar, aşağıdakı mübarək ayənin pislədiyi və bizim asılı cəmiyyətlərimizə də aid olan kimsələrdən fərqli olaraq, həmin şəxsə deyirlər: Sən və Rəbbin gedib vuruşun, biz də sizinlə bərabər vuruşacağıq. Ayədə isə belə buyurulur: **"(İsrail oğulları həzrət Musaya dedilər:) "Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq"** *(əl-Maidə, 24)*.

Bizim cəmiyyətlərimizdə problemləri həll edən şəxs bəlalarla üzləşir. Hər hansı bir maneə və ya gecikmə baş verdikdə, sanki buna səbəb o imiş kimi, məsuliyyəti ona yükləyirlər. Və o, bunu həll etməyə çalışdıqda və buna müvəffəq olduqda, az bir qisim istisna olmaqla, ona təşəkkür edən və ona dəstək olan bir kimsə tapa bilməzsən. Müvəffəq olmadığı təqdirdə isə vay onun halına!

Fəal təbii cəmiyyət bir şəxsdən və ya bir qrumdan ibarət olmur. Cəmiyyətin bütün üzvləri məsuliyyət daşıyır və onların hər birindən hərəkət

[50] Biharul-ənvar, c. 74, səh. 109, "Peyğəmbərin (s) İbn Məsuda nəsihətləri" fəsli.

etmək, iş görmək tələb olunur. Cəmiyyətlərimiz üçüncü dairəyə keçməlidir. Arzular və ağrı-acılar haqqında danışmağımız yetər. Artıq iş görmək istəyirik, şikayətləndiyimiz problemlərin həllini istəyirik. İstədiklərimiz haqqında danışmağa sərf etdiyimiz enerjinin 20%-indən istifadə edərək onu düşünməyə, uyğun həll yolları tapmağa, işə və hərəkətə sərf etsəydik, çox şey əldə etmiş olardıq. Əmirəlmöminin Əli (ə)-ın gözəl bir kəlamı var, o Həzrət buyurur: *"Cahilin qəzəbi danışığında, aqilin qəzəbi isə əməlindədir"*[51] .

**İslahatçı fikirlər irəli sürmək cəsarəti**

Əl-Əhzab surəsinin 37-ci ayəsində Allah-təala belə buyurur:

**"(Ya Peyğəmbər!) Xatırla ki, bir zaman Allahın (İslam dininə yönəltməklə) nemət verdiyi və sənin özünün (köləlikdən azad etməklə) nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): "Zövcəni (Zeynəb bint Cəhşi) saxla (boşama), Allahdan qorx!" – deyir, Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayır və adamlardan (onların Peyğəmbər oğulluğunun boşadığı övrətlə evlənir, – deyəcəklərindən) qorxurdun. Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq Allahdır. Zeyd zövcəsi ilə əlaqəni kəsdikdə (Zeynəbi boşadıqda) səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik (günah) olmasın! Allahın hökmü mütləq yerinə yetər!"**

Bu ayə hicrətin beşinci ilində Mədinədə baş vermiş bir hadisədən danışır. Belə ki, Rəsulullahın (s) ona həyat yoldaşı Xədicə bint Xüveylid (ə) tərəfindən bağışlanmış bir nökəri vardı. O, Zeyd ibn Harisə ibn Şərahbil əl-

[51] Biharul-ənvar, c. 1, səh. 160, hədis: 43.

Kəlbi idi. Həzrət Xədicə onu qulların, kölələrin əldə edildiyi yolla əldə etmişdi. Məlum olduğu kimi, döyüşlərdə məğlub tərəfin fərdləri onları əsir götürən qalib qüvvə tərəfindən satılırdı. Zeyd də hələ uşaq ikən döyüşlərdən birində əsir götürülərək satılmış və onu Həkim ibn Hizam bibisi Xədicə üçün almışdı. Xədicə (ə) isə Rəsulullahla (s) ailə qurduqda onu o Həzrətə bağışladı. Həmin vaxt Zeyd səkkiz yaşında idi. Bir müddət sonra ailəsi Zeydin dalınca gəlmişdi ki, istənilən məbləği ödəyərək onu geri qaytarsın. Bu zaman Rəsulullah (s) Zeydə onunla qalmaq, yaxud ailəsi ilə getməklə bağlı seçim haqqı verdi və Zeyd Allahın Rəsuluna: *"Mən sənin yerinə başqa birini seçəcək adam deyiləm",* - deyərək onunla qalmağı üstün tutdu. Beləliklə, Rəsulullah (s) onu cahiliyyə dövründə (İslamdan əvvəlki dövrdə) mövcud olan adət çərçivəsində oğulluğa götürdü. Cahiliyyə dövründə belə bir adət formalaşmışdı ki, kişi bir oğlanı oğulluğa götürdükdə həmin oğlan onun öz uşağı sayılardı, yəni bütün atalıq və oğulluq hökmləri onlara aid edilərdi. Buna görə də o hadisədən sonra Zeydə Zeyd ibn Məhəmməd deyilməyə başladı. Sonra Rəsulullah (s) onu köləlikdən azad etdi, (anasından qalan) qulluqçusu Ümmü Əymənlə evləndirdi. Onun Ümmü Əyməndən Üsamə adlı bir oğlu oldu və sonra Zeyd onu boşadı. Daha sonra Allahın Rəsulu (s) Zeydi öz bibisi qızı Zeynəb bint Cəhş əl-Əsədi ilə evləndirdi. Zeynəb Peyğəmbərimizin (s) bibisi Əminə bint Əbdülmüttəlibin qızı idi. Zeydlə zövcəsi Zeynəb arasında uyğunsuzluq yarandı. Zeyd öz zövcəsindən Allahın Rəsuluna (s) şikayət edir və onu boşamaqla hədələyirdi. Lakin Rəsulullah (s) Zeydə onu boşamamağı, saxlamağı tövsiyə edirdi. Ayə açıqlayır ki, Rəsulullah (s) Zeydin sonda Zeynəbi boşayacağını və özünün də hökm sürən ictimai adəti ləğv etmək üçün qanunvericilik hikmətinə görə Zeynəblə evlənəcəyini bilirdi (bu ona Allah tərəfindən bildirilmişdi). Həmin adət isə bu

idi ki, kişi bir nəfəri övladlığa götürdükə, o onun oğlu statusunda olurdu və həmin kişi oğulluğunun boşadığı qadınla evlənə bilməzdi.

Şəriətə görə bu adət ləğv edilməli idi. Bundan əlavə, Zeyd azad edilmiş bir qul, Rəsulullah (s) isə (əsl-nəcabət və cəmiyyətdəki təbəqələr baxımından) məlum nüfuz və əzəmətdə olan bir adam idi. Cahiliyyə dövrünün adətlərində də belə bir hörmətli nəsildən olan insanın azad olunmuş bir qulun boşadığı qadınla evlənməsi qınanılırdı. Buna görə də Allah-təala istədi ki, bu sinfi adət-ənənəni ləğv etmək üçün Rəsulullah (s) bibisi qızı Zeynəb bint Cəhşlə evlənsin. Rəsulullah (s) isə bu əmrdən xəbərdar olduğu halda yenə də Zeydi öz zövcəsini boşamamağa təşviq edirdi. Hər dəfə Zeyd Peyğəmbərin (s) yanına gələrək ona zövcəsi ilə olan problemindən danışdıqda Peyğəmbər (s) Zeydə onunla yaşamağa davam etməyi, onu boşamamağı tövsiyə edirdi. Belə bir məqamda bu məsələni həll etmək üçün o mübarək ayə nazil oldu, hansı ki, həmin ayədə Allah-təala buyurur: **"(Ya Peyğəmbər!) Xatırla ki, bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): "Zövcəni (Zeynəb bint Cəhşi) saxla (boşama), ...!" – deyirdin"**. Belə ki, Allah Zeydə onu yoxdan var etmək, İslama yönəltmək nemətləri, eləcə də saysız-hesabsız başqa nemətlər bəxş etmişdi. Həmçinin, Rəsulullah (s) da Zeydə onu köləlikdən azad etmək, oğulluğa götürərək öz yaxınlarından etmək və tərbiyə edib böyütmək nemətlərini vermişdi.

Ardınca ayədə Peyğəmbərin (s) Zeydə: **"Allahdan qorx!"** – deməsi qeyd olunur. Yəni, Allahdan qorx, zövcənə səbr et, boşamaq Allah-təalaya xoş getməyən bir işdir. Sonra isə ayədə buyurulur: **"Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayırdın"**. Rəsulullah (s) Zeydin Zeynəb bint Cəhşi boşayacağını bilirdi. Lakin o, bu məsələni gizli saxladı, bu barədə danışmadı

və bu işin gerçəkləşməsini də asanlaşdırmadı, yəni Zeydin boşanma istəyini yerinə yetirməsinə icazə vermədi.

**“Və adamlardan (onların Peyğəmbər oğulluğunun boşadığı övrətlə evlənir, – deyəcəklərindən) qorxurdun”**. Rəsulullah (s) istəmirdi ki, Zeyd zövcəsini tez boşasın və ardınca da Allahın əmrini icra edərək ondan sonra o qadınla evlənsin. Allahın Rəsulunda belə bir qorxu var idi ki, bu, yaxın çevrədə ona qarşı bəzi ittihamlara əsas verəcək, məsələn, o, azad etdiyi qulunun zövcəsini istəməkdə ittiham olunacaq. Necə ki, bəzi yalançı rəvayətlərdə bu ittiham deyilir.

Bu, bir tərəfdən, digər tərəfdən də Peyğəmbərin (s) öz nəfsi istəklərinə və şəxsi maraqlarına uyaraq mövcud qanun və adət-ənənələri pozmaqda ittiham oluna biləcəyi ehtimalı var. Yaxud onun ətrafında söz-söhbət qaldırılar və məzəmmət edilər ki, o, öz qövmü içərisində yüksək məqamda, onların arasında rəhbər mövqedə olduğu halda azad olunmuş bir qulun boşanmış qadını ilə evlənib.

**“Halbuki əslində sənin qorxmalı olduğuna ən çox layiq Allahdır”**. Yəni camaat arasında yaranacaq bu narazılıqlara əhəmiyyət verməməlisən. Peyğəmbər (s) isə risaləti qorumaq üçün ittihamlardan qorxurdu.

İnsan bu ayə üzərində düşündükdə aydın olur ki, təbliğatçının və islahatçının cəmiyyət içində yaranan bu ittihamlardan qorxması peyğəmbərlərdə də müəyyən dərəcədə mövcud olmuşdur. Peyğəmbər (s) özünə zərər verə biləcək heç bir şeydən qorxmurdu, əksinə, risalət daşıdığı üçün insanların ona qarşı ittihamlarının onların bu risalətə əməl etmələrinə və onun daşıyıcısına, təbliğatçısına olan inanmlarına təsir edəcəyindən qorxurdu. Bu qorxu müəyyən dərəcədə mövcud idi, ona görə də ayədə ondan bəhs edilir.

Başqa bir ayədə də eynilə bu fikirdən danışılır. Həmin ayədə Allah-təala buyurur: **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni çatdır. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq"** *(əl-Maidə, 67)*. Bu ayədə təfsirçilər, ayə ilə bağlı nəql olunmuş rəvayətlərə əsasən deyirlər ki, Rəsulullaha (s) özündən sonra İmam Əli (ə)-ın vilayətini insanlara bəyan etmək əmri verilmişdi. Amma o, bir müddət gözlədi ki, zəif düşüncəlilər arasında heç bir şübhə və ittiham yaranmasın ki, Peyğəmbər Əlini kürəkəni, əmisi oğlu və aralarında yaxın münasibət olduğu üçün bu vəzifəyə təyin etdi. Ona görə də bu ayə Allahın Rəsuluna (s) belə bir sərt tonda xitab edir.

### İslahatçı cəsarətlə reqressiya (geri çəkilmə) arasında

Cəmiyyətdə islahat və dəyişiklik missiyasını daşıyan islahatçının ətrafında cərəyan edən bu məsələyə mübarək ayədən keçmək istəyirik. Belə ki, islahatçı bəzən hansısa fikir, rəy və ya şəriət hökmü haqqında danışan zaman ayənin təqdim etdiyi vəziyyətə düşə bilər, yəni bəzi insanlar bu islahatçıya şübhə edərək onun irəli sürdüyü fikirləri qəbul etməyə bilər. Bu, bütün islahatçıların yaşadığı problemdir. Ona görə də biz bir çox islahatçıların öz fikir və ideyalarının bəzilərini insanların reaksiyasına səbəb olacağından ehtiyat edərək gizlədiklərini görürük. Onlar ancaq şəxsi maraqlarına zərər veriləcəyindən qorxduqları üçün deyil, həm də insanların onlarla qarşılıqlı münasibətinə təsir edəcəyindən qorxduqları üçün bundan ehtiyatlanırlar. Bu, keçmiş və indiki tarixdə çox baş verib. Çoxlu sayda alimlər öz fikirlərini xüsusi adamlarına, yəni, sadəcə, dar və yaxın bir çevrədə söyləmiş, bunu insanların qarşısında dillərinə gətirməmişlər. Çünki avam camaat onlardan

özlərində hökm sürənə zidd olan bu rəyi eşitsə, bu rəyi söyləyən həmin alimə qarşı inamı itirər. Bəzən hətta qarşıdurma və daxili çəkişmə baş verir və nəticədə hesablaşma çərçivəsində bəziləri insanları bu alimə və ya bu tərəfə qarşı qızışdırmaqla məsələdən faydalanırlar. Məhz buna görə də şəhid Şeyx Mürtəza Mütəhhəri mərhum müctəhid Seyyid Bürucirdidən (Allah ona rəhmət eləsin) sitat gətirir ki, o, bir dəfə fiqh dərslərinin birində tələbələri qarşısında, ali məqamlı mərceyi-təqlid olduğu halda, cəmiyyətdən ehtiyatlanıb bəzi rəylərini gizlətmək məcburiyyətində qalmasının əziyyətindən danışaraq dedi: *"Heç də təəccüblü deyil, çünki tərəfdarlarımızdan təqiyyə etmək (ehtiyatlanmaq) daha mühüm və ümdədir. Mən özüm ümumi mərcəiyyət mərhələsinə ilk çatdığım vaxtlarda fikirləşirdim ki, mən hökmləri çıxarmalı, insanlar da ona əməl etməlidirlər, mən nə fətva versəm, insanlar ona əməl edəcəklər. Amma gördüm ki, məsələ belə deyil"*[52]
.

Şeyx Mütəhhərinin şiə arenası ilə bağlı dediklərini Şeyx Yusif Qarzavi də sünni arenası ilə bağlı deyib. O, "əş-Şərqul-ausat (Orta Şərq)" qəzetinin 30. 01. 2001 tarixində çıxan sayında belə yazırdı:

*"Bir çox alimlər öz fikirlərini ürəklərində daşıyır, ixtilafa düşməkdən qorxaraq onu açıqlamırlar"*. O, konfransların birində Şeyx Məhəmməd Əbu Zuhrənin sözləri ilə buna misal çəkərək demişdi ki, onun iyirmi il gizli saxladığı bir rəyi var və onu indi açıqlamaq istəyir. Sonra Şeyx Qarzavi əlavə edərək demişdi: *"Mən uzun illər camaatın mənə hücum edəcəyindən qorxaraq bəzi fətvaları gizli saxladım, sonradan bu fətvaları açıqlamağa və dərc etməyə başladım"*.

[52] Mürtəza Mütəhhəri, "Din və cəmiyyət haqqında mühazirələr", səh. 559.

Ona görə də bəzi islahatçılar öz mövqelərini ortaya qoymaqdan çəkinirlər ki, bəzi tərəflər ona qarşı dini və milli təzyiqlərini artırmasın, yaxud onun irəli sürdüyü rəydən istifadə edib ictimaiyyətin ona qarşı emosiyalarını qızışdırmasın və nəticədə də xalqın duyğuları dini və fiqhi rəy üzərində hakim gücə çevrilməsin.

**Alimlər və ictimaiyyətin gücü**

Bir çox hallarda alimlərin açıqlamadıqları fikirlər olur. Bununla bağlı qeyd olunanlardan biri də Hindistan zonasının bəzi yerlərində, xüsusən də Pakistanda şiələrin əksər hissəsi arasında belə bir yanlış hökmün yayılmasıdır ki, haşimi (yəni seyid) olmayan kişinin haşimi qadınla evlənməsi haramdır. Hətta bu haramlıq həmin işi görənlərin qanının halal olması həddinə də çatır. Alimlər də ehtiyat edərək bu sözü inkar etməkdən və onun yanlış olduğunu bildirməkdən qorxurlar. Mənə bir təbliğatçı haqqında dedilər ki, o, bu bölgəyə gedərkən alimlərdən biri ona tövsiyə etdi ki, ondan bu məsələ ilə bağlı fikrini soruşsalar, o cəmiyyətdə müctəhidə təsir edəcək reaksiya olmasın deyə, onlara müctəhidin bu mövzuda fətvasının olmadığını desin.

Bəziləri ehtiyat və həssaslığın yalnız əqidə məsələləri ilə məhdudlaşdığını bildirməyə çalışır və bunu insanların bu xüsusda müxalif fikrin irəli sürülməsinə dözümsüzlüyü ilə əsaslandırırlar. Lakin biz eyni vəziyyətə fiqh məsələlərində də rast gəlirik. Misal üçün, İmam Xomeyni şahmatla bağlı onun qumarla müşayiət olunmadıqca caiz olması barədə fətva verdikdə bəzi qınaq səsləri ortaya çıxdı, hansı ki, bu əqidə məsələsi deyildi. Eləcə də, müctəhid Seyyid Mühsin Həkim əhli-kitabın (yəhudi və xristianların) paklığı ilə bağlı fətva verdikdə bir hay-küy yarandı. Halbuki bu da əqidə məsələsi deyildi.

Digərləri tənqidi islahatçı fikirlərin ortaya qoyulması nəticəsində yarana biləcək emosiyaya (təpkiyə) belə haqq qazandırırlar ki, insanlar adətən yalnız fəqihlərdən (müctəhidlərdən gələni) qəbul edirlər. Danışan ictihad dərəcəsinə çatmamış şəxsdirsə, insanlar ondan qəbul etmirlər. Çünki bu məsələlərə fəqihlər qərar verməlidir. Bu əsaslandırma da düzgün deyil. Çünki fəqihliyinə heç kimin şübhə etmədiyi Seyyid Mühsin Əmin Hüseyni (yəni İmam Hüseyn (ə)-ın matəminə aid) ayinlərdəki bəzi əməllər mövzusundan danışdığı üçün onun əleyhinə sərt bəyanatlar və açıqlamalar verildi. Deməli, məsələ əqidə və ya fiqh məsələləri ilə, yaxud danışanın fəqih olması və ya fəqihlik mərhələsinə çatmaması, eləcə də predmetlərə və ya hökmlərə aid olması ilə bağlı deyil, əslində bu, dəyişiklik etmək istəməməkdən və fikir azadlığından imtina etməkdən irəli gəlir. Buna sübut olaraq Şeyx Doktor Vailinin "Minbər təcrübələrim" adlı xatirələrində yazdıqlarına toxunmaq istəyirəm. Doktor Vaili yazır ki, onlar xətibləri toplamaq və minbər ritorikasını istiqamətləndirmək məqsədi ilə institut və forum yaratmaq istədikləri zaman Nəcəfdə onlara qarşı etiraz səsləri qalxdı və o dərəcədə təkləndilər ki, bəziləri camaatdan qorxaraq, özlərinə qarşı olan hiddətdən ehtiyatlanaraq evlərindən bayıra çıxa bilmədilər. Bu hadisə əqidə və ya fiqh məsələsi ətrafında deyil, praktiki üslub məsələsi ətrafında cərəyan edirdi. Bu məsələ islahatçıların və alimlərin qarşısında durur. Çünki alim və ya islahatçının inandığı irəli sürülməli olan fikirlər var ki, onlar cəmiyyətə təqdim edildiyi zaman insanların təpkili emosiyalarına tuş gəlir. Bundan da pisi odur ki, bu fikirlər ictimaiyyətin emosiya və hisslərini qızışdıran rəqib tərəflərin istismarına məruz qalır. Buna görə də islahatçılar özlərini belə bir mürəkkəb məsələ qarşısında qoyurlar ki, öz fikirlərini irəli sürməyə və bununla da bədəlini

ödəməyə cürət etsinlər, yoxsa öz fikir və ideyalarında qapalı qalmağa davam etsinlər?

Vəziyyət cəmiyyətdən cəmiyyətə fərqlənir. Əsas prinsip odur ki, insanın bir fikri olduqda, xüsusən də bu fikir yaxşılıq və faydalı ideyanın aşkara çıxması məqsədi daşıdıqda onu ifadə etməlidir.

**Bu dövrün üstünlüyü**

Bəzən islahatçı ideyanın irəli sürülməsi nəticəsində yaranacaq fəsadlar çox təhlükəli olur. Belə olan halda bəziləri öz fikrini bildirməkdən çəkinə bilər. Lakin görünən odur ki, indi biz əvvəlki dövrlərdən aşağıdakı iki cəhətdən fərqlənən bir dövrdə yaşayırıq:

**Birinci cəhət:** Əvvəllər cəhalət hökm sürürdü, çünki insanların əksəriyyəti nə yüksək səviyyəli təhsilə, nə də açıqfikirlilik və mədəniyyətə malik olmadığından onları hərəkətə gətirən emosiyalar və hisslər idi. Amma indi biz açıqfikirlilik, idrak və bilik dövründə yaşayırıq. Cəmiyyətdəki bu dəyişiklikdən islahatçılar öz fikirlərini ifadə etmək və tənqidi islahatçı ideyalarını irəli sürmək üçün istifadə etməlidirlər.

**İkinci cəhət:** Keçmişdə islahatçı fikirlərin daşıyıcıları məhdud şəxslər idi, əksəriyyət hakim rəyin tərəfində idi. Amma indi elmi-mədəni mühitdə inkişaf var. Ona görə də inkişaf xarakterli islahatçı fikirlərin daşıyıcıları az deyil. Amma problem ondadır ki, onlar bir-birini tanımır və öz aralarında əməkdaşlıq etmirlər. Ona görə də onların hər birinə elə gəlir ki, o, ümumi vəziyyət qarşısında zəif bir mövqeni təmsil edir. Halbuki onlar islahatçı fikirlərini cəmiyyətə açıq şəkildə elan etsəydilər, bu fikir və ideyalara inanan geniş bir təbəqə yaranar və nəticə dəyişərdi. Bəzən dəyişiklik dərhal və

həlledici olmaya bilər, lakin hər halda bu, ifadə azadlığının, eləcə də bəzi fikir və ideyaların dəyişməsinin xeyrinədir.

Bu iki dəyişiklik – **ictimai şüurun genişliyi və inkişaf xarakterli fikirlərin daşıyıcılarından ibarət təbəqənin genişləndirilməsi** islahatçıların öz fikir və ideyalarını ortaya qoymaqda daha cəsarətli olmaları üçün stimulverici amil olmalıdır.

### Çəkidə aldadanlar və iki mikyalla ölçmək

Hər bir insan bu həyatda öz hüquqlarından tam istifadə etməyi, zülmə məruz qalmamağı, heç bir haqqının tapdalanmamasını, hiss və duyğularının yaralanmamasını istəyir. Bu normaldır, amma bunun müqabilində insanlarla da bu prinsiplə davranılmalıdır. Çünki insan tək yaşamır, o, fərdlərdən ibarət cəmiyyətin bir fərdidir, ona qarşı haqsızlıq olunmasını və hisslərinin yaralanmasını istəmədiyi kimi, başqalarının da ləyaqəti və hissləri var.

Bəzilərinin həyatında iki mikyal (qədim ölçü qabı) mövcuddur. Onlar özlərinə aid olan məsələdə haqlarını heç bir əskiklik olmadan almaq istəyir, başqalarından da onlarla lazım olan ən yaxşı şəkildə davranmalarını tələb edirlər. Lakin onlar (başqalarına aid olan) haqların öz sahiblərinə verilməsinə riayət etmir və başqalarının hiss və duyğularını nəzərə almırlar. Bu pis xüsusiyyət və yanlış hərəkətlə səciyyələnənlər barəsində Qurani-kərim **“ət-Tatfif”** və “**əl-Mutəffifin”** terminini işlədərək öz haqlarını tam şəkildə almaq istədikləri halda başqalarının haqlarını kəsənlərə işarə edir. Qurani-kərimdə bu adda və bu pis xüsusiyyətdən bəhs edən bir surə var. Həmin surə onlara məhvə və əzaba düçar olacaqları təhdidini bildirməklə başlayır:

**“Vay halına çəkidə və ölçüdə aldadanların!**

**O kəslər ki, özləri insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar,**

**Onlar üçün ölçdükdə və ya çəkdikdə isə (onu) əskildərlər.**

**Məgər onlar (öləndən sonra) diriləcəklərini düşünmürlərmi?!**

**Özü də dəhşətli bir gündə?!**

**O gün bütün insanlar (haqq-hesab üçün) aləmlərin Rəbbinin (Allahın) hüzurunda duracaqlar!”** *(əl-Mutəffifin, 1-6)*

*“Mutəffifin”* (çəkidə, ölçüdə aldadanlar) kəlməsi *“ət-tatfif”* (azaltmaq, haqqı kəsmək) sözündən gəlir. Bu sözün kökü **“ət-taff”**- dır və bunun mənası da bir şeyin kənarları deməkdir. Buna görə də Kərbəla Fərat çayının sahilində yerləşdiyi üçün **“Taff vadisi”** də adlanmışdır. **“ət-Təfif”** sözünün lüğəti mənası az, naqis, natamam deməkdir. Terminoloji mənası isə ölçünü və çəkini əskiltmək, azaltmaqdır, yəni mikyalı axıra qədər doldurmamaqdır. Məlumatlara görə, bu surənin nazil olma səbəbi Mədinədəki bəzi tacirlərin öz ticarətlərində insanları çəki və ölçüdə aldatmaları idi. Belə ki, onların bəzilərinin iki mikyalı vardı: biri alış üçün olan böyük mikyal, digəri isə satış üçün olan nisbətən kiçik mikyal. Təbərsi “Məcməul-bəyan” adlı təfsir əsərində belə bir məlumat nəql etmişdir: *“Mədinədə Əbu Cüheynə adlı bir (tacir) kişi yaşayırdı. Onun iki dənə çəki qabı vardı; biri ilə alış zamanı, o biri ilə də satış zamanı çəkərdi. Həmin ayələr də bu səbəbdən nazil oldu”*[53] .

Həmin ayələrdə Allah-təala çəkidə və ölçüdə aldadanları hədələyir və onları Qiyamətlə qorxudur: **“Məgər onlar (öləndən sonra) diriləcəklərini düşünmürlərmi?! Özü də dəhşətli bir gündə?!”** Ayədəki **“Zənn etmirlərmi”** (düşünmürlərmi) kəlməsi bəzən yəqin etmək, əmin olmaq

---

[53] Şeyx Təbərsi, “Məcməul-bəyan fi təfsiril-Quran”, c. 10, səh. 291.

mənasında işlənir. Bu kəlmə Quranda bu mənada belə işlənmişdir: **“(İçlərindən) Allahın rəhmətinə qovuşacaqlarına (Allahın dərgahına qayıdacaqlarına) inananlar (əmin olanlar) isə dedilər: “Neçə dəfə olub ki, az bir dəstə Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib!”** *(əl-Bəqərə, 249)* Yəni onlar Allahın rəhmətinə qovuşacaqlarına əmin idilər.

Zənn kəlməsinin terminoloji mənası isə tərcih etməkdir (üstün tutmaq, seçməkdir). Bəzi təfsirçilər sözü gedən ayədə zənn kəlməsinin bu mənada olduğu qənaətindədirlər.

Nəticə budur ki, Allah-təalanın rəhmətinə qovuşmağı, sadəcə, ehtimal etmək, hələ buna möminlərdə olması gərəkən əminliyi bir yana qoysaq, insanın əzabdan çəkinməsi və başqaları ilə insafla davranması üçün yetərlidir.

**İki mikyalla ölçmək**

ət-Tatfif – bir istiqamət və ya bir sahə ilə məhdudlaşmayan, müxtəlif sahələri olan iki mikyalla ölçmədir (iki standartla yanaşmadır). Həmin sahələrdən sadəcə üçünü aşağıda qeyd etməklə kifayətlənirik:

**Birincisi:** İqtisadi sahə. Bu, mübarək surənin bəyan etdiyi sahədir ki, insan satış zamanı (başqasının haqqı olan) çəkini və ölçünü azaldır, alış zamanı isə öz haqqını tam götürür. Və bu yalnız ölçü və çəki ilə məhdudlaşmır. Səninlə başqaları arasında hər hansı bir alqı-satqı zamanı

başqalarının haqqının kəsilməsinə ət-tatfif deyilir. İqtisadi sahədən ayrılan sahələr arasında insanın öz vəzifəsi ilə bağlı idarəçiliyi də var. Belə ki, bəzən insan öz işində laqeyd, tənbəl olduğu halda işçiləri ilə sərt davranır, onlarla ikinciyə görə (yəni, sərt şəkildə) haqq-hesab çəkir. Bu isə tatfifin

nümunələrindən biridir, ikili standartla yanaşmadır və ilahi təhdidin əhatəsinə daxildir.

**İkincisi:** İctimai münasibətlər sahəsidir. Belə ki, bəzən insan başqalarından ona ehtiram göstərmələrini və qiymət vermələrini, onun məqam və hüquqlarına hörmətlə yanaşmalarını gözləyir, əvəzində isə özü başqalarının bu aspektlərdə hüquqlarına məhəl qoymur. Bu, istər ailə və ya qonşularla, istərsə də digər insanlarla olan müxtəlif ictimai münasibətləri əhatə edir. Belə insanın özünə qarşı sərt bir söz eşitməsi onu incidir, amma eyni zamanda o özü başqası haqqında danışarkən ən pis və ən kobud sözləri seçir. Yaxud görərsən ki, o, filankəsin onun qeybətini etdiyini eşidəndə qəzəblənər, amma özünü başqalarının qeybətini etməkdən çəkindirməz. Bu da ictimai münasibətlərdə tatfifdir, ikili standartla yanaşmadır.

**Üçüncüsü:** Qiymətləndirmə və mühakimə sahəsi. Bu, hansısa bir hərəkətin mühakimə edilməsinə və ya ona ikili standartla yanaşılmaya aiddir. Belə ki, bəzi insanlar onlarla əlaqəli olan məsələləri yüksək qiymətləndirir, onun mənfi cəhətlərinə göz yumur, başqaları ilə bağlı olan məsələlərdə isə insanların haqqını kəsirlər. Bu isə Quranın dəvət etdiyi ədalətə, insafa ziddir: **“İnsanların haqqını azaltmayın! (Camaatın malını əskiltməyin. Kimin haqqı nədirsə, onu da verin!)”** *(əş-Şuəra, 183)* Bu da tatfifin başqa bir formasıdır. Bəziləri özləri tərəfindən bir şey olduqda onu müdafiə edir və insanları insaflı olmağa, məsələni böyütməməyə çağırır, amma eyni davranış başqa tərəfdən sadir olduqda özü məsələni böyüdüb şişirdənlərin bayraqdarına çevrilir.

Qiymətləndirmə və mühakimədə ədaləti ölçmək üçün belə bir təcrübə aparılıb: bir nəfər tanınmış bir yazıçının kitabından bir parçanı iqtibas edərək onu alimlərdən birinə aid edilmiş şəkildə çap etdirib. Nəticədə həmin alimin

tərəfdarları onu təriflə qarşılayaraq, məqaləni ən gözəl yazılardan biri kimi vəsf edib, onun qızıl su ilə yazılmağa layiq olduğunu söyləyiblər. Sonra isə yazının əsl müəllifinin kim olduğu üzə çıxdıqda həmin alimin tərəfdarları yazı ilə bağlı öncəki mövqelərinə rəğmən yazıçını təhqir etməyə, onun yazdıqlarını zəif kimi qələmə verməyə başlayıblar.

Oğlanlarını və ya qızlarını evləndirən zaman nikah xərclərinə qarşı mövqeyi ziddiyyətli olan şəxs də belədir. Belə ki, bəzi insanlar qızlarını istəməyə gələnlərin qarşısına elə şərtlər qoyurlar ki, qarşı tərəf güzəşt xahiş etmək məcburiyyətində qalır. Amma özləri oğlanlarına qız istəməyə getdikdə həmin şərt və tələbləri qızın ailəsindən qəbul etmirlər. Yaxud bəziləri oğlunun öz xanımı ilə pis rəftar etməsinə, onun hisslərini incitməsinə göz yumduğu halda qızının ərinin qızına qarşı səhvə yol verməsini qəbul etmir, hətta kürəkənin bəlkə də qəsdən olmayan bir xətasına görə dünyanı dağıdırlar. Oğluna gəldikdə ərin ehtiramından danışır, qızına gəldikdə isə qadının hüquqlarından, ona hörmət etməyin vacibliyindən dəm vurur.

Odur ki, insanın başqalarına tətbiq etdiyi dəyərlər və standartlar özünə və özünə aidiyyəti olanlara tətbiq etdiyi ilə eyni olmalıdır. Əks halda, o, tatfif etmiş (yəni ikili standartla rəftar etmiş) olur, hansı ki, Allah-təala bu rəftarın sahiblərini məhv olmaq və cəhənnəm əzabı ilə qorxutmuşdur. Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) oğlu İmam Həsən (ə)-a vəsiyyətində buyurur:

*“Özünü səninlə qeyrisi arasında tərəzi qərar ver: özün üçün istədiyini qeyrisi üçün də istə; özün üçün istəmədiyini onun üçün də istəmə; sənə haqsızlıq olunmasını sevmədiyin kimi, özün də (başqalarına) haqsızlıq etmə; sənə yaxşılıq olunmasını sevdiyin kimi, özün də (başqalarına) yaxşılıq et; başqasında qəbahət hesab etdiklərini özündə də qəbahət hesab et; insanları*

*özündən nə qədər razı salırsansa, özün də onlardan o qədər razı ol (sən insanları nə qədər qane edirsənsə, onlardan da o qədər qane ol)!”*[54]

**Beynəlxalq siyasətdə ikili standartlı yanaşma**

İkili standartlı yanaşma fərdi səviyyədə olduğu kimi, onun ictimai və beynəlxalq səviyyədə də təzahürləri var. İctimai müstəvidə görərsən ki, bir qrup insan onların haqqında və ya onların əleyhinə danışan başqalarına etiraz edir, amma özlərinə başqaları haqqında danışmaq və onların zəif nöqtələrini göstərmək hüququ verirlər. Əgər öz simvolunun hər hansı bir kəlmə ilə uzadılmasını (çək-çevir edilməsini) istəmirsənsə, onda niyə öz camaatına icazə verirsən ki, başqalarının simvolları haqqında uzun-uzadı danışsınlar? (Yəni, sənin haqqında bir kəlmə belə danışılmasını istəmirsənsə, onda niyə özün başqaları haqqında danışırsan?) Bu, ikili standartla yanaşmanın nümunələrindən biridir.

Beynəlxalq müstəvidə isə nəhəng dövlətlərin ikili standartlarla yanaşması nəticəsində bəşəriyyyət daha böyük faciə yaşamaqdadır. Belə ki, onlar öz maraq və ambisiyalarının olduğu yerdə insan haqları, Təhlükəsizlik Şurası və Birləşmiş Millətlər Təşkilatının qətnamələrinə, beynəlxalq konvensiyalara əməl etmək şüarlarını qaldırır, başqa bir tərəflə qərəzli olduqda isə bütün bunlara göz yumurlar.

## Fərdi məsuliyyət və şəxsiyyətin müstəqilliyi

Qurani-kərim bəzi prinsipləri mübarək ayələrində bir neçə yerdə təkrar qeyd edir ki, bu da həmin prinsiplərin əhəmiyyətini və vurğulanmasının

[54] Nəhcül-bəlağə, 31-ci kitab.

zəruriliyini ortaya qoyur. Bunlardan biri fərdi məsuliyyət prinsipi, insanın öz əməlinə görə cavabdeh olması, əməlinin yükünü və nəticələrini tək başına daşımasıdır. Qurani-kərim beş müxtəlif yerdə bu prinsipi eyni ifadə ilə: **"Heç bir yük (günah yükü) daşıyan başqasının yükünü (günahını) daşımaz!"** - ifadəsi ilə vurğulayır. Belə ki, Allah-təala əl-Ənam surəsinin 164-cü ayəsində buyurur:

**"Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz"**.

Uca Rəbbimiz əl-İsra surəsinin 15-ci ayəsində belə buyurur: **"Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz (hərə öz günahına cavabdehdir)"**.

Fatir surəsinin 18-ci ayəsində isə buyurur: **"Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz"**.

Əz-Zumər surəsinin 7-ci ayəsində də Allah-təala buyurur: **"Əgər küfr etsəniz (Allahın nemətlərini dansanız, bunun zərəri Allaha yox, ancaq sizin özünüzə olar). Çünki Allah sizə (sizin ibadətinizə) əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz. Əgər (Allahın nemətlərinə) şükür etsəniz, sizin bu şükrünüz Ona xoş gələr. Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz (hərə öz günahına cavabdehdir)"**.

Allah-təala ən-Nəcm surəsinin 36-38-ci ayələrində buyurur: **"Yoxsa ona Musanın səhifələrində olanlar xəbər verilmədi?!**

**Və (əhdə) çox vəfalı olan (Allahın qarşısındakı borcunu layiqincə ödəyən) İbrahimin (səhifələrindəkilər bildirilmədi?!)**

**(Tövratda və İbrahimin səhifələrində deyilənlər bunlardır:) "Heç bir günah yükü daşıyan başqasının günahına yüklənməz!"**

Həmçinin, bir sıra digər ayələrdə başqa sözlər və ifadələrlə də eyni prinsip vurğulanmışdır. Niyə bu prinsip vurğulanır? Çünki çox vaxt insan bu əsas prinsipə laqeyd olduğu üçün onu həm Rəbbi ilə, həm də insanlarla rəftarında xəta və azğınlığa sürükləyən yollara və cərəyanlara düşür.

**Qohumluğun fayda verməyəcəyi gün**

Bəzən insan ondan bunu tələb edən bir tərəfə itaət, yaxud sevdiyi, hörmət etdiyi və ya hansısa maraq güddüyü birinin istəyinə cavab olaraq günaha, Allaha itaətsizliyə sövq edilə bilər. Burada insanın mübarək ayələrdə vurğulanan həmin prinsipi yada salması lazımdır ki, bu başqası sənin əvəzinə cavabdeh olmayacaq və qiyamət günü etdiyin itaətsizlik və günahın aqibətini səninlə birlikdə yaşamayacaqdır. Allah-təalanın hüzurunda haqq-hesab üçün tək duracaqsan, ağır günah yüklərini kürəyində daşıyacaq, ilahi əzaba və cəzaya düçar olacaqsan və səni günaha sövq edənlərdən imdad diləsən də, xahiş etsən də, hətta sənə ən yaxın, ən əziz olanlar belə, köməyinə gəlməyəcəklər. Eynilə mübarək ayədə buyurulduğu kimi: **"Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz"**. Atan, anan, həyat yoldaşın, övladların və ya dostların, bunların hər hansı birinin istəyinə cavab vermək səni günaha və xətaya sövq

etməməlidir. Onların heç biri qiyamət günü sənə fayda verməyəcəkdir. Çünki həmin gün onların hər biri öz hayında olacaq, başqasının qayğısına qalmaq imkanı və bacarığı olmayacaqdır. Allah-təala bu barədə buyurur:

**“Nəhayət, qulaqları kar edən (o dəhşətli səs) gələndə (İsrafil surunu çalanda);**

**O gün insan qaçacaq öz qardaşından;**

**Anasından, atasından;**

**Zövcəsindən və oğullarından!**

**O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır! (Hər kəs öz hayında olacaq, heç kəs heç kəsin halından xəbər tutmayacaqdır)”** *(Əbəsə, 33-37)*. Odur ki, ailə münasibətlərinin, qohumluq əlaqələrinin təsiri ilə günaha batmaqdan çəkin!

**Allahın hüzurunda tək dayanacaqsan**

İnsan hansısa bir qrupun, partiyanın, təşkilatın və ya qrumun mənsubu, yaxud hansısa bir dini və ya siyasi liderin tərəfdarı ola bilər və o, bilməlidir ki, bütün mənsubiyyətlər dini dəyərlərin damı altında olmalıdır. Ona görə də mənsubiyyət və ya liderə tabe olmaq onu dini dəyər və təlimləri aşmağa sövq etməməlidir. Çünki qiyamət günü haqq-hesab kollektiv deyil, fərdi şəkildə olacaqdır. Yəni hər bir insan öz qövmündən və camaatından uzaq, təkbaşına ilahi məhkəmə qarşısında dayanacaqdır. Allah-təala buyurur: **“Onların hamısı qiyamət günü Onun hüzuruna tək gələcək”** *(Məryəm, 95)*.

Həmçinin, başqa bir ayədə buyurur: **“Siz Bizim hüzurumuza ilk dəfə sizi yaratdığımız kimi tək-tənha ... gəlmisiniz”** *(əl-Ənam, 94)*.

Heç kəs qiyamət günü onu qoruyacağını, onun müxaliflik və itaətsizliyini öz üzərinə götürəcəyini iddia edən hər hansı bir firqənin yalançı vədlərinə

aldanmamalıdır. Allah-təala bu xüsusda buyurur: **“Kafir olanlar iman gətirənlərə dedilər: “Bizim yolumuza (dinimizə) tabe olun. Günahlarınızı öz boynumuza götürərik”. Halbuki onların (iman gətirənlərin) heç bir günahını öz boyunlarına götürməzlər. Onlar, həqiqətən, yalançıdırlar!”** *(əl-Ənkəbut, 12)*

Öz rəhbərliyinə və ya camaatına kor-koranə şəkildə tabe olub, onlara yardım etmək və dəstək olmaq üçün günah və haram işlər görən şəxs necə də böyük ziyana uğramışdır! Bu şəxs qiyamət günü onlar ondan uzaqlaşdıqları, onların müdafiəsi üçün etdiyi əməlləri və günahları inkar etdikləri zaman necə bir xəsarətə uğradığını anlayacaqdır. Allah-təala buyurur: **“O zaman tabe olunmuşlar tabe olanlardan uzaqlaşacaq, (onların hamısı qiyamətdəki) əzabı görəcək və aralarındakı rabitə qırılacaqdır”** *(əl-Bəqərə, 166).*

Mübarək ayələrin təqdim etdiyi bu obraz və səhnələr fərdi məsuliyyət prinsipini bərqərar etmək, insanın ağlı, vicdanı və inandığı dini dəyərlər hesabına öz şəxsiyyətinin müstəqilliyini başqalarının təsiri altına düşməkdən qoruması məqsədi daşıyır. Necə ki, İmam Əli (ə) buyurmuşdur: *“Xaliqə itaətsizlik olan (günah) işlərdə heç bir məxluqa itaət etmək olmaz!”*[55]

**Günahsız insan başqasının cinayətinə görə məsuliyyət daşımır**

İnsan başqaları ilə münasibətdə heç kimi digərlərinin etdiklərinə görə günahlandırmamalıdır. Günahsız adam günahkarın cinayətinə görə məsuliyyət daşımamalıdır. Cahiliyyət dövründə belə bir vəziyyət hökm sürürdü ki, bir qəbilə üzvü təcavüz etdikdə o qəbilənin bütün üzvləri təcavüzə məruz qalan qəbilənin qisas hədəfinə çevrilirdi. Bəziləri hələ də bu cahiliyyət

[55] Nəhcül-bəlağə, 162-ci hikmətli kəlam.

qanunu əsas götürərək kiminləsə problemi olduqda onun ailəsinə, qohumlarına və dostlarına da düşmənçilik və uzaqlaşma münasibəti göstərir. Beləsi bir insanın sözlərini və ya münasibətini bəyənmədikdə onun bütün camaatına mənfi münasibət bəsləyir. Və burada: **“Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz”**, - prinsipi ortaya çıxır. Yəni heç kim başqasının münasibət və əməlinin məsuliyyətini, yükünü daşımır.

Bunu Səddamın dövründə İraqda da görmüşük. Belə ki, İraq xalqının üzvlərindən biri Səddamın zülmünə qarşı çıxdıqda o, bütöv ailələrə qarşı sərt və qəddar tədbirlər görürdü. Onlar ya sürgün edilir, ya həbsə atılır, ya qətlə yetirilir, ya da digər müxtəlif təzyiqlərə məruz qalırdılar ki, bu da onların həyatını dözülməz cəhənnəmə çevirirdi.

**Şəxsin yaxşı, ailənin pis olması**

Bu Quran prinsipinin (heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz prinsipinin) ictimai münasibətlər səviyyəsində olmadığı səhnələrdən biri də ər və arvad seçimində onlardan hansınınsa ailə üzvlərindən birinin həyat tərzi və davranışı normal olmadığı halda həddindən artıq ehtiyat və tərəddüd edilmə səhnəsidir. Bəzən biz belə bir hallarla rastlaşırıq ki, bir gənc özünə uyğun gördüyü qızla evlənmək istəyir, lakin ailəsi onun bu qızı seçməsinə etiraz edərək ondan ayrılması üçün ona müxtəlif təzyiqlər göstərir. Ancaq onlar bunu qızın özündə hansısa problem və ya nöqsanın olmasına görə deyil, ailəsindən birinin bəzi azğınlıqlara düşməsinə görə edirlər. Axı qızın özünün nə günahı var? Onlar bu Quran prinsipindən necə də uzaq düşüblər!

Eyni hal yaxşı bir insanın bəzi inkarçı mühafizəkar ailələrin qızı ilə evlənmək istədiyi zaman onların bu yaxşı insanın ailəsində filankəsin yaxşı

olmamasına görə göstərdikləri münasibətə də aiddir. Doğrudur, ər və arvadın əsilzadə ailələrdən seçilməsini üstün tutan hədis və rəvayətlər vardır, lakin bu dini mətnlər, sadəcə, azğınlıq və fəsad mühitinin hökm sürdüyü bir ailədə tərbiyə alan şəxsin özündə azğınlığa meyllənmə üçün zəmin olduğuna işarə edir. Bu, heç də azğınlığa meyllənmənin qaçılmaz olması demək deyil. Əgər məlum olsa ki, bu şəxs öz iradəsinin və şüurunun əngəlləri ilə həmin meyllənməyə müqavimət göstərib, ailə mühitinin təsirinə düşmək ehtimallarını dəf edib və onun yaxşı insan olduğu sübuta yetirilib, onda biz niyə ondan ehtiyatlanmalı və ailəsinin günahına görə onu cəzalandırmalıyıq?!

Məsələn, həkimlər irsi qan xəstəliklərindən danışırlar, lakin onlar bu xəstəliklərin genetik olaraq ailənin hər bir üzvünə keçdiyinə əmin deyillər. Bu məsələdə ağlabatan prosedur lazımi analizləri aparmaqdır. Əgər şəxsin həmin ehtimal olunan təsirlərdən azad olduğu məlum olarsa, o, sağlam sayılar. Eyni şey psixoloji və davranış aspektlərinə də aiddir. Əgər oğlan və ya qızın ailəsində davranış və əxlaqda qüsur varsa, amma biz onların (oğlanla qızın) həyat tərzinin doğru və dürüst olduğunu görürüksə, bu o deməkdir ki, onlar bu ehtimal olunan (mənfi) təsirləri aşıblar, daha bu cütlüyün nikah və evliliyi ilə bağlı dayanıb tərəddüd etməyə ehtiyac yoxdur.

**Şəxsi xüsusiyyətlərlə ailə xüsusiyyətləri arasında**

İndi isə burada Səəd ibn Əbdülməlik Əməvi haqqında rəvayətlərdə qeyd olunanlardan sübut və nümunə təqdim edirik.

Əməvi ailəsinin hökmranlıq və istibdad dövründə hansı fəsad və azğınlıq içində olduğu, əhli-beytə (ə) qarşı düşmənçiliyi hamıya məlumdur. Lakin İmam Məhəmməd Baqir (ə) Səəd ibn Əbdülməliki “Səədul-xeyr” (Xeyirli Səəd) adlandırmışdı. Rəvayət olunur ki, bir gün o, ağlaya-ağlaya İmam Baqir

(ə)-ın yanına getdi və Həzrət ondan soruşdu: *“Niyə ağlayırsan, ey Səəd?”* Səəd dedi: *“Quranda lənətlənmiş bir şəcərədən (nəsildən) olduğum halda necə ağlamayım?!”* İmam (ə) buyurdu: *“Sən onlardan deyilsən, sən biz əhli-beytdən (bizim dostumuz) olan bir əməvisən. Məgər Allah-təalanın İbrahim (ə) haqqında danışarkən (onun dilindən) belə buyurduğunu eşitməmisən:* ***“Kim mənim arxamca gəlsə, o, şübhəsiz ki, məndəndir”****?*[56]

Ər və arvad seçməkdən və onlarda əhəmiyyət verilməli olan sifətlərdən bəhs edən dini mətnlərdə ilk növbədə onların şəxsiyyətlərində olan təqva, salehlik və gözəl əxlaq kimi batini xüsusiyyətlərə diqqət yetirilir. Ailənin salehliyindən və onun xüsusiyyətlərindən bəhs edən dini mətnlərə gəlincə, onlar azdır, sənəd baxımından mötəbər olanı isə daha da azdır. Bundan əlavə, qeyd etdiyimiz kimi, həmin mətnlər ailənin oğlan və ya qız üzərindəki mənfi təsirlərindən ehtiyatlanmağa çağırır. Əgər onların bu təsirləri aşdığı məlum olarsa, tərəddüd etməyə və dayanmağa ehtiyac yoxdur. Xüsusən də ümumi təsir faktorları və fərdlərin özlərini hiss etmələri, şəxsi müstəqilliklərini həyata keçirmələri səbəbindən irsiyyət və tərbiyənin təsirlərinin azaldığı bu dövrdə.

**Kim zəlaləti seçərsə, onun (günah) yükü öz üzərinə düşər**

Mömin başqalarını iman və yaxşılıq yoluna yönəltmək istəyir, onları zəlalətdən və pislikdən uzaq olmağa inandırmağa çalışır. Amma başqalarının öz fikri və iradəsi var. Onlar həm onun dəvətini qəbul etməyə müvəffəq olub qurtula bilər və o da onların hidayətinin müqabilində böyük savaba nail olar, həm də onun dəvətini cahillk və inadkarlıq üzündən və ya hər hansı bir digər

[56] Şeyx Mufid, “əl-İxtisas”, səh. 85. (İbrahim, 36)

səbəbdən rədd edə bilərlər və bu onlar üçün zərərdir. Lakin onlar öz azğınlıqlarının yükünü yalnız özləri daşıyarlar, möminə onların əzab və bədbəxtliyindən heç bir şey toxunmaz. Odur ki, mömin onların hidayəti rədd etmələrinə görə sarsılmamalı, psixoloji gərginlik keçirməməli və bu Quran prinsipinə istinad etməlidir: **“Heç bir günah yükü daşıyan başqalarının günah yükünü daşımaz”**. Allah-təala buyurur: **“Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz (hərə öz günahına cavabdehdir)”** *(əl-İsra, 15)*.

**“Əgər küfr etsəniz (Allahın nemətlərini dansanız, bunun zərəri Allaha yox, ancaq sizin özünüzə olar). Çünki Allah sizə (sizin ibadətinizə) əsla möhtac deyildir. Amma bəndələrinin küfr etməsi Ona xoş getməz. Əgər (Allahın nemətlərinə) şükür etsəniz, sizin bu şükrünüz Ona xoş gələr. Heç bir günah yükü daşıyan başqasının günah yükünü daşımaz (hərə öz günahına cavabdehdir)”** *(əz-Zumər, 7)*.

## Dördüncü fəsil
## İctimai münasibətlər haqqında

Hər hansı bir cəmiyyət daxilində münasibətlərin səviyyəsi yan (ikinci dərəcəli) tamamlayıcı məsələ deyil, əksinə, cəmiyyətin statusunu müəyyən edən, onun mövqeyini və yolunun hərəkətini təyin edən əsas amildir. Əgər ictimai münasibətlər şəbəkəsi sağlam və düzgün olsa, cəmiyyət tərəqqiyə və hərəkət etməyə hazır olar. Cəmiyyətdaxili münasibətlərin vəziyyəti pisləşdikdə isə onun ümumi durumunda bir gerilik və tənəzzül əks olunacaq. Buna görə də hər hansı bir oyanış hərəkatı ictimai münasibətlərin

əhəmiyyətinə laqeyd qala bilməz. Çünki o, başlanğıc üçün zəmin, məhsuldarlıq və tərəqqi üçün də katalizatordur.

İslamın çağırışı Ərəbistan yarımadası torpağında meydana çıxanda ərəb cəmiyyətini qəbilə münaqişələri, maraq toqquşmaları və geri qalmış cahiliyyət münasibətləri modelindən çıxarmaq üçün onun daxilindəki münasibətləri yenidən formalaşdırmağa xüsusi önəm verdi. Qurani-kərim ərəb cəmiyətində İslam sivilizasiyasının dəyişməsi prosesindən bəhs edərkən (İslami) dəvətin əldə etdiyi ən mühüm nailiyyət kimi ictimai münasibətlərin formasındakı dəyişikliyi qeyd edir. Hansı ki, bu, ərəblərin qurtuluşu, onların cahiliyyət və gerilikdən xilas olması üçün bir müqəddimə idi. Allah-təala bununla bağlı buyurur: **"Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi"** *(Ali-İmran, 103)*. Mübarək ayə müsəlmanlara Allahın onlara bəxş etdiyi ən mühüm neməti xatırladır ki, bu da aralarındakı münasibətlərin nizamını ixtilaf və düşmənçilikdən birlik və qardaşlıq səviyyəsinə dəyişməsidir. Hansı ki, onlar bunun sayəsində süqut və tənəzzül reallığını geridə qoyaraq din və sivilizasiyaya sahib bir ümmət oldular. Allah-təala bu işin əhəmiyyətini artırmaq üçün: **"O sizin qəlblərinizi birləşdirdi"**, – deyə buyuraraq onların qəlblərini birləşdirmə işini özünə aid edir. Çünki onları yüksəldən, belə yüksək əlaqə və müsbət münasibətlər səviyyəsinə çatdıran məhz ilahi vəhyin proqram və göstərişləridir.

Allah Rəsulunun (s) mühacirlərlə ənsar arasında yaratdığı qardaşlıq hicrətdən sonra Mədinədə yeni İslam cəmiyyəti üçün başlanğıc nöqtəsi oldu. Müsəlman mühacirlər Məkkədən Mədinəyə ailələrini, qohumlarını və mal-

mülklərini atıb Allah yolunda haqq dinə xidmət etmək üçün hicrət edən qəriblər kimi gəldilər. Ənsar da (mədinəlilər) iman nuru və Rəsulullahın (s) məhəbbəti əsasında onları səmimi qarşıladılar. Bu yeni cəmiyyətdə bağlılıq və birlik əlaqələrini gücləndirmək üçün Peyğəmbər (s) iman qardaşlığı prinsipini elan etdi və sonra biri mühacirlərdən digəri də ənsardan olmaqla onların arasında qardaşlığı ifadə edən əməli bir düstur tətbiq etdi.

Biz Avropada dəyişikliklərin avanqardı kimi Fransa inqilabını oxuyanda görürük ki, cəmiyyətdaxili münasibətlər məsələsi bu inqilabın əsas maraqlarından və proqramlarının prioritetindən olmuşdur. Bu, 26 avqust 1789-cu ildə Fransa inqilabı zamanı Fransa Milli Assambleyası tərəfindən təsdiq edilmiş insan haqları sənədində aydın görünür.

Bu gün oyanış və tərəqqiyə can atan cəmiyyətlərimiz müasir həyatın inkişafı ilə bir çox hadisələrdən əziyyət çəkdikdən sonra ictimai münasibətlər şəbəkəsinin islahatına ciddi şəkildə diqqət yetirməyə ehtiyac duyur. Daxili münasibətlərin sağlamlığı cəmiyyətin həyatının müxtəlif aspektlərində müsbət şəkildə əks olunur. Bilik və düşüncə hərəkatı azadlıq və tolerantlıq mühiti, dialoq etikası və fikrə hörmət şəraitində inkişaf edir. İqtisadi fəaliyyət əməkdaşlıq zəminində, güc və imkanların birləşməsi sayəsində inkişaf edib böyüyür. Cəmiyyətin mövqeyi daxilən bir-birinə daha çox bağlı və uyğun olduğu zaman başqalarının gözündə ucalır. Cəmiyyət üzvlərinin psixoloji durumu isə münasibətlər şəffaflaşdığı və ürəklər yaxınlaşdığı zaman böhranlardan, çətinliklərdən və xəstəliklərdən uzaq olur.

Beləcə, daha yaxşı cəmiyyətə aparan yol məhz sağlam münasibətlər olur. İctimai münasibətlərin inkişafı üçün səy göstərməyin, əmək sərf etməyin əhəmiyyəti də elə buradan meydan çıxır.

### Hüsnü-zənn və onun ictimai münasibətlərə təsiri

İnsan başqa insanları və başına gələn hadisələri müəyyən bir mühakimə ilə müsbət və ya mənfi şəkildə mühakimə edir. O, bu məsələdə iki haldan birindən çıxış edir: ya elmlə, yəni ya o, öz fikrini sübut edəcək dəlil və sübuta sahib olur, ya da gümanla, yəni öz mühakimələrini fantaziyalar və doğru, yaxud yalan ola biləcək ehtimallar üzərində qurur.

Ağıllı insana əsl yaraşan öz mühakimə və münasibətlərini elm üzərində qurmasıdır. Allah-təala buyurur: **"(Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə (bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü də demə)"** *(əl-İsra, 36)*. Müəyyən bir şəxsi və ya məsələni mühakimə etmək istədiyin zaman dəlil və sübutların düzgünlüyünü yoxlayıb dəqiqləşdirməlisən. Məsələn, hakim öz hökmünü təsdiq edən dəlil və sübutlara sahib olmadıqca hökm çıxarmaz. Fəqih alim (müctəhid) də məsələnin fiqhi hökmünü çıxarmaq üçün lazım olan dəlilləri araşdırmadan fətvasını verməz. Bu bizə bir müsəlmanın müəyyən bir şeyi mühakimə etmək istədikdə həyatının bütün təfərrüat və detallarında nə etməli olduğuna dair aydın bir metod verir: mühakimələr elmi əsaslar üzərində qurulmalıdır. İnsanın elmi olmadan illuziya və ehtimallara əsaslanaraq bir şeyi mühakimə etməsinə gəlincə, bu, yanlış yanaşmadır ki, çox vaxt insanı doğru yoldan azdırır və bununla da o, özünə və başqalarına zərər verir.

Gümanın tərifində belə deyilmişdir: "Bir şeyi güman etmək onu əminlik olmadan bilməkdir. Elmi cəhətdən güman ağlın bir şeyi tərcihlə (üstünlük verməklə) dərk etməsidir. Fəlsəfədə isə gümana əksinin mümkünlüyü

ehtimalı ilə üstünlük təşkil edən etiqad kimi tərif verilmişdir”[57]. Reallığa uyğun qəti bir inam hasil olduqda və şəkk aradan qalxdıqda güman elm və yəqinliyə çevrilir. Güman inkarla təsdiq və səhihliklə qeyri-səhihlik arasında tərəddüdlü qaldığı üçün Qurani-kərim gümana qapılmaqdan və başqalarını mühakimə edərkən ona istinad etməkdən çəkindirir: **“Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi günahdır”** *(əl-Hucurat, 12).* Allah-təalanın: **“Şübhəsiz ki, zənnin bəzisi günahdır”,** – buyurmasının mənası nədir? Yəni digər hissəsi günah deyil? Bu xüsusda təfsirçilər deyirlər ki, buradakı çox zənnə qapılmaq az zənnə qapılmaq müqabilində deyil, yəni ayə zənnin, məsələn, yalnız iyirmi faizini götür, səksən faizindən çəkin demir. Bu, ayənin yönəltməsi ilə uyğun gəlmir. Çox zənlər kəlməsi burada pis zənlər mənasındadır və onların hamısından çəkinmək lazımdır. Sanki mübarək ayənin məzmunu açıqlayır ki, insanın başqalarına qarşı ürəyinə gələn zənlər ya yaxşı, ya da pis olur. Lakin onların çoxu pis olur, ona görə də onlardan çəkinmək lazımdır, çünki onların hamısı günahın əhatə dairəsindədir. Yaxşı zənlərə gəlincə, onlarda heç bir problem yoxdur, əksinə, belə zənlərdən çəkinmək lazım deyil, çünki onlar başqaları ilə əlaqəni gücləndirir.

### Günah

İnsanın başqaları haqqında ürəyinə gələn zənlərin çoxu pisdir və hər pis zənn də günahdır. Bəs buradakı günah nə mənadadır?

---

[57] Şeyx Əbdülhadi əl-Fəzli, “Durusun fi usuli fiqhil-imamiyyə” (İmamiyyə fiqhinin əsasları haqqında dərslər), səh. 259.

Bəzi alimlər günahın cəzalandırma olduğu qənaətindədirlər. Lakin problem ondadır ki, zənn etmə ixtiyari bir hal olmadığına görə, insan öz seçimi olmadan ürəyinə gələnlərə görə necə cəzalandırıla bilər? Həmin alimlər bildirmişlər ki, pis zənn əməli təsirlə nəticələndiyi təqdirdə onun cəzası olur. Zənnin özü pis olduqda, amma pis əməli nəticə ilə müşayiət olunmadıqda onun heç bir cəzası yoxdur. Amma bir insan başqa bir insanla bağlı sui-zənn etdiyi zaman onun haqqında bədgümanda olmasından yola çıxaraq onu söysə, vursa və ya ona qarşı haqsızlıq etsə, günah etmiş olar.

Bəzi alimlər isə qeyd etmişlər ki, burada günah cəza deyil, fəsad və pislik mənasındadır və bununla da bu mövzuda yaranan problem aradan qalxmış olur.

**Pis zənlər**

Biz pis zənləri aşağıdakı üç qrupa bölə bilərik:

**Birinci qrup:** Dəlil və sübut olmadan, sadəcə, ehtimal və illuziyalara əsaslanaraq pis bir şeyin baş verdiyini zənn etmək və nəticədə qəti bir dəlil olmadan onu-bunu mühakimə etmək. Məsələn, məndən bir şey itdikdə kimisə qəti bir dəlillə sübut etmədən ürəyimə gələn vəsvəsə ilə ittiham edirəm. Bu isə caiz bir iş deyil. Bu təsəvvürün özü ittiham etdiyim şəxsə qarşı haqsızlıqdır, onun əməli nəticəsinin olması isə başqa bir haqsızlıqdır.

**İkinci qrup:** Öz-özlüyündə pis olmayan bir hərəkətin niyyəti ilə bağlı sui-zənn etmək. Yəni, pis niyyətlə yozula biləcək yaxşı bir iş görən insanı gördüyüm zaman dəlil olmadan onun məqsədi barədə sui-zənn etməyim kimi. Məsələn, namaz qılan insanı heç bir dəlilim olmadan riyakarlıq etməkdə ittiham edirəm. Sanki onun qəlbini yarıb niyyətini görmüşəm. İnsanların

məqsədləri barədə şübhə etmək pis bir işdir və caiz deyil, çünki bu haqsızlıq və bilmədən edilən ittihamdır.

**Üçüncü qrup:** Öz-özlüyündə pis olan, lakin haqq qazandırılması ehtimal edilən bir hərəkətin niyyəti ilə bağlı sui-zənn etmək. Məsələn, bəzən sən bir insanın zahirən pis bir əməl etdiyini görürsən, amma onun şəri bir üzrü ola bilər. Sən isə bu ehtimalı nəzərə almadan ona inamsızlıq göstərib haqqında sui-zənn edirsən. Məsələn, ramazan ayında bir müsəlmanın gündüz yemək yediyini görürsən və bu, şübhəsiz ki, haram bir əməldir. Lakin bu şəxsin xəstə, müsafir və ya hansısa bir şəkildə üzrlü olmaq ehtimalı var. Ona görə də onu heç bir dəlil olmadan özbaşına ittiham etmək olmaz.

Odur ki, bir-birimizlə münasibətimizin yaxşı olması üçün bir-birimiz haqqında hüsnü-zənn etməliyik.

### Əhli-beytin (ə) tövsiyələrindən

Hüsnü-zənnin insanlar arasındakı əhəmiyyətini vurğulayan və başqaları haqqında sui-zənn etməkdən çəkindirən çoxlu sayda hədis və kəlamlar vardır ki, bu da düzgünlüyü əsas götürmək və müsəlmanın əməlinin düzgünlüyünü ehtimal etmək deməkdir. Məsələn, ət almaq üçün qəssabın yanına getdiyin zaman kəsimin qeyri-şəri yolla olmaq ehtimalı var, amma sənin bu ehtimalı düşünməyin düzgün deyil. Həzrət Rəsulullah (s) buyurur: *“(Möminlə bağlı üç şey haram edilmişdir: onun qanı, malı və barəsində sui-zənn edilmək”*[58] . Başqaları haqqında sui-zənn etmək onlara qarşı zorakılıq törətmək, mallarını oğurlamaq və namuslarını təhqir etmək kimidir. Bütün bunlar isə şəriətdə

[58] Məhəmməd Nasiruddin Əlbani, “Səhih hədislər silsiləsi”, hədis: 3420.

qadağan olunan işlərdir. Sadəcə, fərq budur ki, sui-zənn mənəvi zorakılıq, insanların canına qıymaq və onların mallarını oğurlamaq isə maddi zorakılıqdır.

Çox təəssüf ki, insanların adına (nüfuzuna, hörmətinə) zərbə vurmaq və şəxsiyyətini zədələmək artıq cəmiyyətdə adi bir hal kimi formalaşıb və bu, böyük yanlışlıqdır. Rəsulullah (s) buyurub: *"Gümana qapılmaqdan (sui-zəndən və şübhədən) çəkinin, çünki gümana qapılmaq ən aldadıcı şeydir!"*[59]

Əmirəlmöminin Əli (ə) bir kəlamında insanları sui-zəndən çəkindirir və bildirir ki, bu xislətin sahibi insanlarla sağlam münasibət qura bilməz: *"Hüsnü-zənn etməyən şəxs hamıdan xoflanar"*[60].

İmam Əli (ə) digər bir kəlamında buyurur: *"Qardaşının əməlini o həddə qədər ən yaxşı yerə yoz ki, onun yaxşı olması fikri səni üstələsin (yaxşı olduğuna əmin olasan)"*[61] . Deməli, qəti dəlil və ya pis ehtimalı açıq-aydın göstərən bir şey olmadığı təqdirdə səndən hər hansı bir əməli ən yaxşı bir təfsirlə izah etmək (ən yaxşı tərəfə yozmaq) tələb olunur. Amma insan sadəlövh də olmamalıdır.

Həmçinin, İmam (ə) buyurur: *"Qardaşının ağzından çıxan heç bir söz barəsində, onu yaxşı tərəfə yoza bildiyin halda, sui-zənn etmə"*[62] . Hansısa bir mömin qardaşından pis mənaya yozulma ehtimalı yaxşı mənaya yozulma ehtimalından daha çox olan bir söz eşitdiyin zaman, ehtimalı az olsa da, səndən onu yaxşı mənaya yozmaq tələb olunur.

---

[59] Məhəmməd ibn İsmail əl-Buxari, "Səhihul-Buxari", c. 4, hədis: 6724.
[60] "Uyunul-hikəm vəl-məvaiz", səh. 465, hikmətli kəlam:8463.
[61] "əl-Kafi", c. 4, səh. 94, hədis: 3.
[62] Biharul-ənvar, c. 72, səh. 196, hədis: 11.

Bir dəfə Əli (ə) ondan haqla batil arasındakı məsafəni soruşan bir şəxsin cavabında dörd barmağını gözü ilə qulağının arasına qoyub buyurdu: *"Gözlərinlə gördüyün haqq, qulaqlarınla eşitdiyinin çoxu isə batildir"*[63] .

Həmçinin, o Həzrət (ə) buyurmuşdur: *"Qardaşın üçün (yəni mömin qardaşının səndə sui-zənn yaradan əməlləri üçün) bir üzr axtar, tapmasan, onun üçün bir daha üzr axtar"*[64] .

Alimlərdən birinin belə dediyi nəql olunur: *"Sən əlindəki içi şərabla dolu bir qədəhi ağzına aparan hansısa şəxsi gördükdə bunu onun sadəcə ağzını yaxalamaq istəməsi və ya qədəhdəkinin şərab olduğundan xəbərsiz olması şəklində yoza bilərsən".* İslam insanı başqaları haqqında hüsnü-zəndə olması üçün belə tərbiyə edir. İmam Əli (ə) buyurmuşdur: *"Hüsnü-zənn qəlbin rahatlığı və dinin (imanın, əqidənin) salamatlığıdır"*[65] .

İmam Sadiq (ə) isə buyurmuşdur: *"Hüsnü-zənn insanın imanının gözəlliyindən və qəlbinin təmizliyindən qaynaqlanır"*[66] .

**Hüsnü-zənn və ona ehtiyacımız**

Cəmiyyətlərimizin istər fərdi səviyyədə, istərsə də qruplar arasında hüsnü-zənnə çox ehtiyacı var. Çünki biz qruplar (məzhəblər, camaatlar) arasındakı münasibətlərdə problemlə üzləşirik. Hər bir qrup digər qrupun davranışını pis tərəfə yozur. Bəzən bir nəfərin etdiyi fərdi bir hərəkət bütün qrupun adına çıxılır. Bu isə doğru deyil, yanlış hərəkəti kim edibsə, məsuliyyəti də o daşımalıdır. Bəzən görürsən ki, bir şəxs hansısa bir hərəkəti onun öz

[63] Eyni mənbə, c. 72, səh. 196, hədis: 9.
[64] Eyni mənbə, c. 72, səh. 194, hədis: 4.
[65] Ğurərul-hikəm və durərul-kəlim, c. 1, səh. 338.
[66] Biharul-ənvar, c. 72, səh. 196, hədis: 12.

çevrəsindən olan birisi etdiyi müddətcə yaxşı qiymətləndirir və var gücü ilə dəstəkləyir, amma eyni işi onun mənsub olmadığı çevrədən birisi etdikdə ona qarşı əks mühakimə yürüdür. Hər bir ağıllı mömin bu vəziyyətdən çıxmalı və başqalarına müsbət baxışla baxmalıdır. Əgər insanın beynində hər hansı bir şəxsə qarşı yanlış bir təsəvvür dolaşırsa, o, bu təsəvvürün üzərində başqasına zərər verə və ya pislik edə biləcək bir münasibət qurmamalıdır. Çünki bu, haqq şəriət tərəfindən qadağan olunmuş günah və zülmdür və sağlam ağıl da bunu rədd edir.

## İnsanların sevgisini qazanmaq

Allah-təalanın bəndələrindən hansısa birinə verdiyi və ya ona vəd etdiyi nemət böyük bir nemət olmalıdır. **"Həqiqətən, iman gətirib yaxşı işlər görənlər üçün Rəhman (Allah ürəklərdə) bir sevgi yaradacaq"**[67], - deyə buyurulan ayə vurğulayır ki, Allah-təala yaxşı işlər görən mömin bəndələrinə böyük bir nemət verəcəyini vəd edir. Bu nemət Allah-təalanın onlar üçün qəlblərdə, könüllərdə sevgi yaratmasıdır. Deməli, insanın başqalarının qəlbində sevgi və məhəbbətinin olması mühüm bir məsələdir. Əgər mühüm olmasaydı, Allah onu seçilmiş bəndələrinə vəd etməz və bu sevginin yaradılmasını Özünə aid etməzdi.

**"Həqiqətən, iman gətirənlər"**, yəni Allaha, dini əsaslara və yüksək əxlaqi dəyərlərə iman gətirənlər, məhz beləlləri iman keyfiyyətinə sahib olanlardır. İman əqli-psixoloji bir keyfiyyətdir. Çünki imanın mənşəyi ağıl, qərar tutduğu yer isə ruhdur. Bu keyfiyyətə sahib olanlar bununla yanaşı digər bir keyfiyyətə də sahib olmalıdırlar: **"Yaxşı işlər görənlər"**, yəni qeyd olunan

[67] Məryəm, 96.

nəzəri-psixoloji keyfiyyət davranışa, əmələ və praktikaya çevrilməlidir. Amma o, sadəcə, bir inanc olaraq qalsa və aşkar davranışa çevrilməsə, dəyərli və təsirli hesab edilmir. Onun dəyəri və faydası praktiki həyata yansımasındadır. Ona görə də Allah-təala təkcə: **“Həqiqətən, iman gətirənlər”**, - buyuraraq iman keyfiyyəti ilə kifayətlənmədi, onun ardınca: **“Yaxşı işlər görənlər”**, də buyurdu. Doğrudur, iman öz sahibini yaxşı işlər görməyə sövq etməli olduğu halda bəzi insanlar onu əmələ çevirmədən, sadəcə, nəzəri imanla və inanc halında qalmaqla kifayətlənirlər. Allah-təala buyurur ki, hər kim qəlbindəki nəzəri imanı ilə kifayətlənərsə və bu imanın verdiklərinə əməl etməzsə, bunun bir nəticəsi olmaz. Yəni imanla yanaşı imandan qaynaqlanan əməl də olmalıdır. Bu iki keyfiyyətə sahib olan şəxslər üçün Allah-təala insanların qəlbində sevgi-məhəbbət yaradacaqdır.

**“(Qəlblərdə) sevgi yaradacaq”**. Bəs görəsən, bunu necə yaradacaq? Cavab vermək üçün bunu iki şəkildə təsəvvür edə bilərik:

**Birinci**: Qeybi yaradılma şəklində: yəni Allah-təala qeybi təsirlə qəlbləri onlara doğru cəzb edər. Bu mənanı dəstəkləyən bir sıra hədislər vardır. Rəsulullah (s) buyurmuşdur: *“Allah bəndəsini sevdikdə Cəbraili çağırıb ona buyurar ki, Allah filankəsi sevir, sən də onu sev və Cəbrail də onu sevər. Sonra Cəbrail səma əhlinə belə səslənər: “Allah filankəsi sevir, siz də onu sevin”. Beləcə, səma əhli də onu sevər. Ardınca isə o, yer üzündə də sevdirilər”*[68] .

Belə bir sual meydana çıxır: Allah-təala necə olur ki, bəndəsini sevir? Təbii ki, o uca və qüdrətli Varlıq insanı zahiri görünüşünə, gözəlliyinə və ya var-dövlətinə görə sevmir. Onu qəlbinin saflığı, ruhunun təmizliyi, davranış

---

[68] Səhihul-Buxari, c. 4, səh. 95, hədis:6040.

və əməllərinin sağlamlığı səbəbindən sevgiyə layiq olduğu üçün sevir və bundan da ilahi qeybin təsiri hasil olur, yəni nəticədə onu səma əhli də sevir və üstəlik Allah-təala onun üçün yer üzündə də qəlbləri, könülləri cəzb edən bir cazibə yaradır.

**İkinci:** Allahın qəlblərdə sevgi yaratmasını anlayacağımız ikinci yol budur ki, iman və yaxşı əməlin fitrəti öz sahibini insanlar arasında məhbub (sevilən şəxs) məqamına çatdırır. İnsanlar bir adamı nə vaxt sevirlər? Onu əməlisaleh, xeyirxah, xoşxasiyyətli gördükləri zaman. Qəlblər məhz belə bir şəxsi sevir. Yaxşı işlər görən möminin şəxsiyyət və davranışının fitrəti də könülləri özünə çəkir. Məsələn, o, başqalarına yaxşılıq və hörmət edər. Bununla bağlı Rəsulullah (s) buyurmuşdur: *"Qəlblər onlara yaxşılıq edəni sevmək üzərində yaradılmışdır"*[69]. Odur ki, insanların onu sevməsi təbiidir. Ona görə ki o, yaxşı işlər görür, başqlarına xidmət və hörmət edir, onlara pislik etmir, əksinə onlarla xoş davranır. Mömin şəxsin rəftarı və şəxsiyyətinin təbiəti, iman əxlaqına və ədəbinə riayət etdiyi zaman onu başqaları arasında sevimli şəxsə çevirir.

Bəzən möminliyin bizim beynimizdə müəyyən bir mənzərəsi olur. Məsələn, deyirik: mömin o kəsdir ki, məscidə gedir, ibadət edir, namazı uzun-uzadı qılır, oruc tutur. Amma heç onun şən, xoşrəftar, gözəl əxlaq və xarakterə sahib olmalı olduğunu düşünmürük. Ona görə də möminin sevilən biri olduğu deyildiyi zaman təəccüblənirik. Məsələn, elə insanlar var ki, – bizim möminlik anlayışımıza görə – mömindirlər, amma sevilmirlər, hətta öz qohumları belə onları sevmirlər. Odur ki, beynimizdəki mömin obrazını düzəltməliyik. Məgər mömin ancaq namaz qılan, məscidə gedən, dua və

---

[69] Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 381, hədis:5826.

Quran oxuyan, oruc tutandır? Möminliyin tam mənzərəsi bu deyil, tam mənzərə salamı yaymaq və (aclara) yemək verməklə olur. Kədəri ürəyində, sevinci isə üzündə olan, insanlara yaxşılıq edən, onlara pislik etməyən və gözəl əxlaqa riayət edən şəxsə insanlar sevgilərini aşkar şəkildə bildirməsələr də, onu sevərlər. Biz Rəsulullahın (s) və pak imamların (ə) həyat tarixçələrində görürük ki, hətta onlara qarşı hiylə quran düşmənləri belə ürəklərinin dərinliklərində onlara heyranlıq və məftunluq hissi duymuşlar. Amma maraqlar və dünya uğrunda mübarizə onları düşmənçilik mövqeyinə gətirmişdir.

Əxlaqında və rəftarında iman qaydalarına riayət edən möminə qarşı könüllərdə sevgi olar, hətta zahirdə onunla düşmənçilik edən insan da ruhunun və qəlbinin dərinliklərində ona rəğbət bəsləyər. Çünki mömin insanların sevgisini qazanmağa əhəmiyyət verir və bizdə insanların sevgisini qazanmağın dəyər və əxlaqından bəhs edən çoxlu hədislər var.

**Sevgi qazanmağın mənası**

Sevgi qazanmaq insanların səni sevməsinə çalışmağındır. Dini mətnlər mömin şəxsdən insanların qəlbini və sevgisini qazanmaq üçün səy göstərməyi tələb edir. Baxmayaraq ki, bu etik və davranış anlayışlarının bəziləri bizim şüur və düşüncələrimizdə demək olar ki, yoxdur. Dini ortamda biz namazın, ziyarətin, əzadarlığın, eləcə də bir çox ibadət və müstəhəblərin fəzilətini bilirik. Lakin insanlarla rəftar etməklə bağlı bir sıra anlayışlar və davranışlar vardır ki, dini ortamda onlara az diqqət yetirilir. Bu isə möminin bəzi ritual ibadətlərə əhəmiyyət verməsinə, lakin insanlarla ünsiyyətdə olmağa və onlarla yaxşı münasibət qurmağa maraq göstərməməsinə səbəb olur. Bu natamam imandır, “kitabın, sadəcə, bir hissəsinə inanmaqdır”. Hansı ki,

Allah-təala bununla bağlı buyurur: **“Aya (ey yəhudilər), siz kitabın (Tövratın) bir hissəsinə inanıb, digər qismini inkar edirsiniz? Sizlərdən bu cür işlər görənlərin cəzası dünyada yalnız rüsvay olmaq, qiyamətdə isə ən şiddətli əzaba düçar olmaqdır. Allah etdiklərinizin heç birindən xəbərsiz deyildir”** *“əl-Bəqərə, 85)*.

İndi isə bu xüsusda olan bəzi dini mətnlərə nəzər salaq:

Rəsulullah (s) buyurur: *“İmandan sonra ağılın başı insanların məhəbbətini qazanmaqdır”*[70]. Allah-təalaya imandan sonra insanların sevgisini qazanmaqdan mühüm bir şey yoxdur. Siyahının başında və prioritetlərdən olan məsələ insanların səni sevəcəyi bir şəkildə hərəkət etməyindir.

Başqa bir hədisdə Peyğəmbər (s) buyurur: *“Allaha imandan sonra ağılın başı özünü insanlara sevdirməkdir”*[71] . Burada bütünlükdə insanların sevgisini qazanmağa çağırış var. Belə ki, Həzrət (s) nə möminlərə, nə müsəlmanlara, nə də qohumlara deyil, ümumi şəkildə insanlara özünü sevdirməyi buyurur.

Həmçinin, o Həzrət (s) buyurur: *“Özünü sevdirmək (insanların sevgisini qazanmaq) ağlın yarısıdır”*[72]. Yəni insanların sevgisini qazanmaq ağıldan istifadənin 50 %-dir. İnsanların sevgisini qazanmaq üçün səy göstərməyənin isə ağıl sərmayəsinin yarısı donmuşdur.

Əmirəlmöminin Əli (ə) buyurur: *“Ağlın əvvəli özünü sevdirməkdir”*[73].

---

[70] Məhəmməd ibn Həsən Hürrül-Amili, “Vəsailuş-şiə”, c. 16, səh. 295.
[71] Biharul-ənvar, c. 1, səh. 131.
[72] Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 416, hədis:5904.
[73] Ğurərul-hikəm və durərul-kəlim, səh. 119, hikmət:548.

Digər bir hədisdə Rəsulullah (s) buyurur: *"Özünü sevdirmək dinin yarısıdır"*[74]. Demək ki, özünü sevdirmək təkcə ağılın deyil, həm də dinin yarısıdır. Bəs görəsən dinin yarısı nə deməkdir? Dinin iki hədəfi var: biri Yaradanla yaxşı əlaqələr qurmaq, o biri isə yaradılmışlarla xoş münasibətdə olmaq. Dinin yarısı Allahla düzgün rəftar etməkdir ki, bu da Allaha ibadət və Ona təslim olmaqda təmsil olunur. İkinci yarısına gəlincə isə bu, insanlarla xoş münasibətdir.

Həqiqətən, sevgi başqaları ilə doğmalıq və qohumluğa bənzər bir münasibət yaradır. Əmirəlmöminin Əli (ə)-dan nəql bir kəlamda o Həzrət buyurur: *"Sevgi fayda görülən qohumluqdur"*[75] . Yəni hər dəfə kiminsə sevgisini qazandıqda yeni qohumluq qazanırsan. İmam (ə), həmçinin, buyurur: *"Sevgi iki qohumluq yolundan biridir"*[76]. Belə ki, qohumluq ya doğmalıqla olur, ya da sevgi və məhəbbətlə. Hətta bəzi hədislər sevginin əhəmiyyətinin doğmalıqdan çox olduğuna işarə etməkdədir. Əmirəlmöminin Əli (ə) buyurur: *"Sevgi ən yaxın qohumluqdur"*[77]. Digər bir kəlamında isə buyurur: *"Sevgi ən yaxın doğmalıqdır"*[78].

Bəzi hədislər doğma qohumluqla (qan qohumluğu ilə) sevgi qohumluğu arasında müqayisə aparır. Rəsulullah (s) bu xüsusda buyurur: *"Ən yaxın insan, nəsli uzaq olsa da, segvinin yaxınlaşdırdığı insandır. Habelə ən uzaq insan, nəsli yaxın olsa da, sevginin uzaqlaşdırdığı insandır"*[79]. Əmirəlmöminin Əli (ə)-ın isə bu xüsusda belə bir gözəl kəlamı var: *"Hər bir*

---

[74] Biharul-ənvar, c. 71, səh. 392.
[75] Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 389.
[76] Ğurərul-hikəm və durərul-kəlim, səh. 65, hikmət:2053.
[77] Eyni mənbə, səh. 65, hikmət: 2055.
[78] Eyni mənbə, səh. 65, hikmət: 2054.
[79] əl-Kafi, c. 2, səh. 643.

*qohumluq sevgiyə möhtacdır"*[80]. Bir şəxsin sənin yaxın qohumun, yəni qardaşın, əmin oğlu və ya dayın oğlu olması, aranızda mehribanlıq və sevgi olmadıqca, yetərli deyil. Digər bir kəlamında Əli (ə) buyurur: *"Qohumluq sevgiyə möhtacdır, sevginin isə qohumluğa ehtiyacı yoxdur"*[81]. Həmçinin, İmam (ə) buyurur: *"Neçə-neçə qardaşların var ki, onları anan dünyaya gətirməyib"*[82]. Başqa bir kəlamında isə Əmirəlmöminin (ə) buyurur: *"Ən faydalı xəzinə qəlblərin sevgisidir"*[83]. Qəlblərin sevgisi ən mühüm sərvətdir. Ona görə də insan başqalarından sevgi və məhəbbət əldə etmək üçün pulunu, nüfuzunu və zəhmətini sərf edir.

**Tənə etmək və bir-birini pis ləqəblərlə çağırmaq pis əxlaqdır**

İslam cəmiyyətində insanın başqaları ilə qardaşlaşmasına və birgə yaşamasına kömək edən ab-havanın aydın və saf olması üçün İslam hər bir insanın cəmiyyətdəki mövqeyini və ehtiramını qoruyan bir sıra əxlaqi prinsipləri vurğulayır. Başqalarının insana hörmət etməsi ona məmnunluq hissi verir və onun daxilində insanlara ehtiram hissini artırır, nəticədə isə cəmiyyətdə hörmət münasibəti qarşılıqlı olur. Amma bir şəxsə pislik edildiyi və o da pisliyə pisliklə qarşılıq verdiyi zaman ab-hava korlanır və bu pis xüsusiyyət orada yayılır. Bu məqamda Qurani-kərimin söz və ifadələrindəki dəqiqliyini görürük. Belə ki, Allah-təala buyurur: **"Bir-birinizə tənə etməyin**

80 Biharul-ənvar, c. 75, səh. 7.
81 İbn Əbülhədid, Nəhcül-bəlağənin şərhi, c. 20, səh. 305, hədis:489.
82 Ğurərul-hikəm və durərul-kəlim, səh. 214, hikmət: 2.
83 Eyni mənbə, səh. 118, hikmət: 520.

**(ayıb tutmayın) və bir-birinizi pis ləqəblərlə çağırmayın"** *(əl-Hucurat, 11).*

İnsan özünə tənə edirmi? Bəli, insan dolayı yolla özünə tənə edir. Əgər o, başqasına tənə edirsə, özünə qarşı da eyni şəkildə davranılmasına və bu adətin cəmiyyətdə yayılmasına şərait yaradır. Şübhəsiz ki, gec-tez onun özünə qarşı da ya pislik etdiyi şəxs, ya da qeyrisi tərəfindən bu tərzdə davranılacaqdır. Mübarək ayədə insanlar arasında ehtiram münasibətini aradan aparan iki mənfi kəlmədən – tənə etmək və bir-birini pis ləqəblə çağırmaqdan bəhs edilir.

**Tənə etmək**

Tənə etmək bir insana özü olduğu yerdə eyib tutmaqdır. Bu, baş, göz və ya dodaq işarəsi ilə, yaxud gizli (pıçıltılı) danışıqla ola bilər. Bu, təbii ki, başqaları ilə münasibətdə pis hərəkət və kobud haqsızlıqdır ki, bir insanı üzünə qarşı və başqalarının yanında rüsvay edəsən, hiss və duyğularına məhəl qoymadan onu sərt şəkildə tənqid edəsən və nəticədə də onu həm intiqam haqda düşünməyə vadar edəsən, həm də onun daxilində bu təhqiri ona yönləndirən şəxsə və ona edilən haqsızlığı səssiz seyr edən cəmiyyətə qarşı qəzəb və hiddəti alovlandırasan. Heç bir insan nöqsandan və zəif tərəflərdən xali deyildir. Bu dünyada hər bir insan buna məruz qalır. İmam Şafii ona nisbət verilən bir şeirdə deyir:

*Heç bir insanın eyibini dilinə gətirmə,*

*Özün eyiblə dolusan və insanların da dili var.*

*Əgər gözün sənə başqalarının eyiblərini göstərirsə,*

*Onu (eyiblərə baxmaqdan) saxla və de ki, ey gözüm, insanların da gözləri var.*

Başqasının zəif tərəfi olduğu kimi, səndə də onda olan zəif tərəflər var, bəlkə də daha çoxdur. Odur ki, başqalarının eyiblərinə baxıb onlar haqqında danışma, unutma ki, sənin də eyiblərin var və insanların da sənin eyiblərinə baxacaq gözləri, sənin haqqında danışacaq dilləri var. Sənin insanlarla davranışın özünə əks olunacaq, ona görə də onlarla yaxşı davran. Bir şəxsin nöqsanını gördüyün zaman ona insanların yanında deyil, təklikdə öyüd-nəsihət verib doğru tərəfə yönəlt ki, onu alçaltmaq və təhqir etmək istədiyini düşünməsin. Çünki belə düşünmək ədavət odunu alovlandırır və fitnə yaradır.

**Bir-birini pis ləqəblərlə çağırmaq**

Bunu ifadə edən “ən-Nəbz” (yaxud ayədəki “ət-tənabuz) kəlməsi başqalarını alçaldıcı pis ləqəblərlə adlandırmaq mənasındadır. Bu, heç kimin qəbul etməyəcəyi pis bir işdir, qruplar arasında olduqda isə daha pisdir. **“Bir-birinizi pis ləqəblərlə çağırmayın”**. Yəni bir-birinizə pis ləqəblər verib qarşı tərəfi qəzəbləndirməyin. Bəzən bu, uzaqlaşma və yadlaşmaya da səbəb ola bilər.

**Fərdlər arasında bir-birini pis ləqəblərlə çağırma**

Biz tez-tez kiminsə mübahisə, istehza və ya hansı səbəbdən başqa bir insana ləqəb verdiyini görürük və bu ləqəb həmin adamı hər zaman təqib edən, hətta bəzən ölümündən sonra da ondan ayrılmyan bir əlamət olaraq qalır. İnsanlar bu işin fərdin özünə və cəmiyyətə olan mənfi təsirlərinin fərqində olmadan və Qurani-kərimin çəkindirdiyi bir-birini pis ləqəblərlə çağırma mövzusuna aid olduğunu anlamadan buna öyrəşmişlər. Bir insana axsaqlıq kimi fiziki qüsuruna görə ləqəb verərək onu topal çağırırlar və o, bundan sonra ancaq bu ləqəblə tanınır. Məşhur şəxsiyyətlərlə bağlı bu

xüsusda çoxlu faktlar var. Onlara ləqəblərin verilmə səbəbi ya "əl-Ərəci" (topal), "əl-Əsməi" (kiçik qulaq) və "əl-Cahiz" (donbagöz) ləqəbləri kimi, xəstəlik və ya zahiri görünüşlərindəki qüsurlar, ya da böyük qrammatika alimınə verilmiş "əl-Mübərrəd" (sərinlənmiş) ləqəbi kimi müəyyən bir hadisə olmuşdur. Beləcə, bəzi adamlara ləqəblər verilmiş və onlar bu ləqəblərlə tanınmışlar. Nəticədə isə bu ləqəblər soyadlara çevrilmiş və bunun acısını da övladlar çəkmişlər.

**Qəbilələr və qruplar arasında bir-birini pis ləqəblərlə çağırmaq**

Görünür, bu adət (İslamdan əvvəlki) cahiliyyət dövründə geniş yayılmışdı. Belə ki, o dövrdə bəzi qəbilələr hansısa səbəbdən və ya səbəbsiz yerə aralarında rəqabət, ya da münaqişə yarandığı zaman digər qəbiləyə ləqəb düzəltməyə çalışır və bu ləqəblə onları qəzəbləndirirdilər. Bəzən bu ləqəblərə görə müharibələr olurdu. Necə ki, "Dəvənin burnu" ləqəbi verilən qəbilə ilə bağlı belə bir hal baş vermişdi. Bu, onların babaları Cəfər ibn Qərii adlı şəxsin ləqəbi idi. Cəfərə bu ləqəbin verilməsinin səbəbi isə bu idi ki, günlərin birində onun atası bir dəvə kəsib öz xanımları arasında bölüşdürürdü. Cəfərin anası da onu ət paylarını almaq üçün atasının yanına göndərdi. Lakin Cəfər atasının yanına çatanda artıq o, dəvəni bölüşdürmüş, heyvandan geriyə ancaq başı və boynu qalmışdı. Atası dedi: *"Onu götür apar"*. Cəfər də əlini dəvənin burnuna salıb başı sürüyə-sürüyə aparmağa başladı və beləcə, ona bu ləqəb verildi. Onun qəbiləsi bu ləqəblə adlanmaqdan qəzəblənərdi və bu səbəbdən bir sıra problem və münaqişələr baş verdi. Ta o vaxta qədər ki, Hətiiə adlı şair onları belə bir qəsidə ilə mədh etdi:

*Onlar burun adlanan bir qövmdürlər, qeyriləri isə quyruq,*

*Dəvənin quyruğu onun burnuna bərabər tutula bilərmi?!*

Bundan sonra onlar bu mənsubiyyətləri ilə lovğalanmağa başladılar[84].

Bu vəziyyət cahiliyyət dövrünün cəmiyyətlərində adi idi və bir-birinə pislik etməyə həvəsli olan cəmiyyətlərdə indi də mövcud olduğu üçün deməк ki, onun təsirləri hələ də qalmaqdadır. Həmin cəmiyyətlər bu xislətin qalması və hər dəfə deyildikdə əhlinin bununla təhqir olunması üçün bir-birlərinə mənfi dini, siyasi və ya ictimai çalarlı sözlər deyirdilər. Bu neqativ hal tez-tez bir ölkə ilə digəri, bir qrupla digəri arasında münaqişələrə və ixtilaflara səbəb olurdu.

**Dini ortamlarda**

Dindar müsəlmanın ona gözəl əxlaqla zinətlənməyi öyrədən əzəmətli bir kitabı və əməl edib həyata keçirdiyi təqdirdə onu yüksək kamillik səviyyələrinə çatdıracaq İslam təlimləri vardır. Elə isə o, başqaları ilə pis rəftar etdiyi təqdirdə necə üzrlü sayıla bilər?! Ən pisi də odur ki, bu, dinin adından və dinin müdafiəsi ünvanı ilə olsun. Məsələn, əhli-beyt tərəfdarları alçaldılmaq və təhrik edilmək üçün müxalifləri tərəfindən "Rafizilər" (Rəddçilər) adlandırılmışlar. Bu isə onları narahat edir və qıcıqlandırırdı. Hətta İmam Cəfər ibn Məhəmməd Sadiq (ə) onları sakitləşdirmək, onlara təsəlli vermək üçün və qarşıdurmaya sürüklənməsinlər deyə belə deyərdi: *"Fikir verməyin, sizdən nə istəyirlər? Sizə nəyi nöqsan tuturlar? Sizə Rafizi (rədd edən) deyirlər. Bəli, Allaha and olsun ki, yalanı (batili) rədd edib haqqın ardınca getdiniz..."*[85] . Lakin bu (Rafizi ləqəbi) başqaları tərəfindən şiələrə verilən ləqəb olaraq qalır. Bu isə Qurani-kərimin **"bir-birinizi pis**

[84] Əbdülqadir ibn Ömər əl-Bəğdadi, "Xəzzanətul-ədəb və lubbu lubabi lisanil-ərəb", c. 3, səh. 271.

[85] Biharul-ənvar, c. 26, səh. 36, hədis: 66.

**ləqəblərlə çağırmayın!”** qadağasının misdaqıdır. Təəssüflər olsun ki, bəzi məzhəblərdə hələ də populyardır. Onu radiolarda və mediada eşidir, bəzi fətvalarda və dini kitablarda da oxuyuruq. Bəzi şiələr də sünniləri “Nasibi” (düşmənçilik edən) adlandırırlar. Hansı ki, bu, əhli-sünnəyə deyil, yalnız əhli-beytə (ə) nifrət bəsləyənlərə aiddir. Bu ləqəbin sünnilərə verilməsi də bir-birini pis ləqəblərlə çağırmaqla bağlı qadağanın misdaqıdır.

Eyni məzhəbin daxilində məsələnin hələ də mövcud olduğunu görə bilərsən. Belə ki, bir qrup eyni məzhəbdən olan digər bir qrupa alçaldıcı ləqəb verərək – bunlar filan qrupdan olan adamın ardıcıllarıdır, bunlar filan tərəfin camaatıdır – deyirlər. Bir qrupu müəyyən bir müctəhidə, ya liderinə, ya da öz cəbhəsinə aid etmək ayıb deyil. Əksinə, hər bir insan bağlı olduğu ilə fəxr edir. Amma əgər sənin niyyətin aşağılama və təhqirdirsə, bu, caiz deyil və mömin şəxsə yaraşmır. Dini ortamımızda da üstünlük təşkil etməsi ayıbdır. Biz bu işə son qoymalı və onun bizə bəlalar gətirən mənfi təsirlərindən agah olmalıyıq.

**Pis təsir**

Bu neqativ halla cəmiyyətdə mübarizə aparılmalıdır ki, insanlar öz aralarında qarşılıqlı hörmət şəraitində yaşasınlar. Bu, insanın hiss etməli olduğu ən vacib şeydir. Cəmiyyət öz üzvlərinə hörmət etmədiyi halda onlar hörməti harada görəcəklər?!

Zəiflik, zillət və rəzalət içində yaşayan Şərq insanının psixoloji probleminin dərinliyini araşdırsaq, görərik ki, bunun səbəbi onun rəzalət kölgəsində böyüməsi və laqeydcəsinə məcbur edildiyi zillətlə üzləşməsidir. Uşaqlıqda ona hörmətlə müraciət olunmur, böyüyüb məktəbə gedəndə isə o, döyülmək, təhqir edilmək və sərt şəkildə danlanmaq kimi yanlış tərbiyə

üsulları ilə alçaldılır. Keçmişdə ata oğlunu müəllimin yanına aparıb ona təfil verərək deyərdi: "Əti götür, onu sümük kimi mənə qaytar!" Yəni ona istədiyin kimi cəza ver, əsas odur ki, öyrənsin. Cəmiyyətdə də uşaq qaynayıb-qarışdığı adamlarla ünsiyyətdə bu münasibətlə üzləşir. Elə isə ondan güclü şəxsiyyətə, yüksək mənəviyyata və böyük inama sahib olmasını necə gözləyə bilərik?! Halbuki inkişaf etmiş cəmiyyətlərdə, onlardan əvvəl də İslamın təlimlərində və ədəb qaydalarında bunun tam əksini görürük. Belə ki, imamlar (ə) öz övladlarına künyə (ayama) seçər və onları künyələri ilə çağırardılar. İnsanlara da bunu tapşırardılar. İmam Sadiq (ə) bu xüsusda belə buyurmuşdur:

*"Biz övladlarımıza pis ləqəb qoyulmasından ehtiyatlanaraq onları uşaqlıqdan künyə ilə çağırırıq"*[86] .

İmam Rza (ə) isə buyurmuşdur: *"Ona (övladına) ən yaxşı künyəni ver!"*[87]

Uşaq ətrafındakıların onda ancaq eyib tutduqlarını, ona çox da əhəmiyyət vermədiklərini görə-görə böyüyür. Ona görə də böyüyəndə öz şəxsiyyəti və fikri olduğunu sübut etmək üçün onun şikayətçi və üsyankar olduğunu, təcrid olunmağı qəbul etmədiyini görürsən. Bu psixoloji meyldir. Bəzən onun bu üsyanı uşaqlıqdakı tərbiyə üsulları ondan aldığını aldıqdan sonra gec ola bilər.

Yazıçı və tədqiqatçılardan birinin dediyi kimi, bizdə uşaqlarımıza ad qoymağımız belə onları alçaldır. Bəziləri uşağı "Əyyil" (uğursuz), bəziləri də "Vir" (xeyirsiz) və ya "Cahil" adlandırır. Bu adların hamısı nöqsan, cəhalət və təhqir hiss etdirən eyni məzmuna yaxın sözlərdir.

Bizim bir-birimizə qarşı məsuliyyət hiss etməyimiz çox mühümdür. Çünki cəmiyyət üzvlərinin bir-birinə hörməti uşaqlıqdan başlayaraq öz daxilindəki

---

[86] əl-Kafi, c. 11, səh. 371, hədis: 11.
[87] Biharul-ənvar, c. 104, səh. 116, hədis: 43.

dəyərini yüksəltməkdir. Hər bir şəxs digərini alçaltdığı təqdirdə isə hamı zəlil və alçaldılmış vəziyyətdə yaşayar. Odur ki, bu mübarək ayələr bizi məhz bu həqiqətlərdən agah edir: **"Bir-birinizə tənə etməyin və bir-birinizi pis ləqəblərlə çağırmayın"**.

### Qeybət və ictimai münasibətlərin pozulması

İnsanın öz cəmiyyətində canı, malı və namusuna görə təhlükəsiz yaşamasından vacib heç nə ola bilməz. Çünki insan həm maddi, həm də mənəvi varlıqdır. Əgər onun fiziki və maddi təhlükəsizliyi maddi varlığının əsasıdırsa, mənəvi təhlükəsizliyi və adının qorunması da mənəvi və ictimai varlığının əsasıdır. Buna görə də İslam insanın canı və malı ilə bağlı toxunulmazlığını nə qədər vurğulayırsa, onun məqamı, nüfuzu və adı ilə bağlı toxunulmazlığını ondan daha ciddi şəkildə vurğulayır. Əgər insan fiziki zorakılıqla üzləşdiyi bir cəmiyyətdə yaşayırsa, şübhəsiz ki, o, əmin-amanlıq və sabitlik hiss etmir. Həmçinin, maddi mənfəətləri evinin talanması, torpağının mənimsənilməsi və pulunun oğurlanması kimi təcavüzlərə məruz qaldıqda da o, təhlükəsizlik və sabitlik hiss etməyəcək. İnsanın ləyaqəti və reputasiyası tapdalandıqda, yəni o, böhtana və şərləməyə məruz qaldıqda da eyni hal baş verir, o, belə bir cəmiyyətdə özünü təhlükəsiz hiss etmir. Bu cür cəmiyyətlər orada yaşayanları cəlb etməz və onları nə onu sevməyə, nə də onun mənsubu olmağa həvəsləndirməz.

Qərb cəmiyyətlərində hakim fəlsəfə materialist fəlsəfə olsa da, onlar maddi və mənəvi yönlərdə insanların hüquqlarını qoruyan qanunlar qoymuşlar. Heç kim qanun qarşısında cavab verməli olacağı üçün başqasının malına, puluna toxuna bilmədiyi kimi, başqasının adına, nüfuzuna da xələl gətirə bilməz, çünki bu halda da o, qanun qarşısında cavab verməli olur. Ona

görə də sən bir şəxsə qarşı iddia qaldırdıqda və sonra onun haqlı olduğu sübuta yetirildikdə o, kompensasiya və dəymiş mənəvi zərərin ödənilməsi tələbi ilə sənə qarşı iddia qaldırır.

**Qeybət**

İslam təlimləri dönə-dönə vurğulayır ki, insanların malına, mülkünə, namusuna və nüfuzuna bərabər dərəcədə hörmət edilməlidir. Mübarək ayədə buyurulur: **"Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir). Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!"** *(əl-Hucurat, 12)* Başqasının şəxsiyyətinə onun haqqında onu incidəcək və adına xələl gətirəcək şəkildə danışmaqla təcavüz etməyin açıq şəkildə qadağan edilməsi, hansı ki, buna qeybət deyilir.

Bütün müsəlmanların həmfikir olduğu kimi, dinin zərurətlərindən biri də qeybətin haram olması və böyük günahlardan sayılmasıdır. Hansı ki, onun tərk edilməsi qəti şəkildə tapşırılmış, onu edənlər cəhənnəm odu və şiddətli əzabla hədələnmişdir.

Ayədə: **"Bir-birinizin qeybətini qırmayın"**, – deyə vurğulanır, yəni biriniz digərinə qarşı bu təcavüzkarlığı etməsin. Qeybət müsəlman cəmiyyətdə, hətta demək olar ki, ümumi şəkildə insan cəmiyyətində haram sayılır.

Ardınca ayə qeybətin çirkinliyini açıqlamaq üçün misal gətirir və bu, başqasının qeybətini edən şəxsin ölü qardaşının ətini yeyənə bənzədilməsidir. Heç qardaşının cənazəsinin yanında oturub ondan ət götürüb yeyən insan görmüsünüzmü?! Bu mənzərənin çirkinliyini hiss edirsinizmi? Başqasının arxasınca pis danışanın həqiqi halı budur. Bənzətmə aydındır, belə ki, ölünün

ətini yemək özünü müdafiə edə bilməyənə təcavüz etməkdir. Başqalarının arxasınca, yəni onlar özlərini müdafiə edə bilmədikləri bir vəziyyətdə pis danışmaq da eynilə bunun kimidir. Qeybət – olmamaq, iştirak etməmək sözündən götürüldüyünü nəzərə alsaq – insanın olmadığı, özünü müdafiə edə bilmədiyi yerdə arxasınca onun eyiblərindən danışmaqdır. Yəni sanki bu, ölünün müqavimət göstərə bilməməsindən istifadə edib onun ətini yemək kimi, başqasının yoxluğundan, özünü müdafiə edə bilməməsindən istifadə edib onun haqqında istəmədiyi sözlər danışmaqdır.

**Qeybətin pis təsirləri**

Alimlər və fəqihlər qeybətə bir neçə tərif vermişlər. Bəlkə də onların ən çox tərcih etdikləri tərif budur: Qeybət – özü olmadığı yerdə insanın gizli eyiblərindən danışmaqdır. Bəzən insan bəzi pis xislətlərini aşkar şəkildə göstərir və onun bu xislətlərindən danışmaq qeybət sayılmır. Çünki o, onları nöqsan kimi görsəydi, aşkar şəkildə göstərməzdi. Bəzən isə insan bir nöqsanı etsə də, onu aşkarda bildirmək istəmir və kimsənin də onun adını bu nöqsanla hallandırmasından xoşu gəlmir. Ona görə də özü olmadığı yerdə onun haqqında xoşu gəlməyən şeyləri danışdıqda onun qeybətini etmiş olursan. Bu isə aşağıdakı səbəblərə görə caiz deyildir:

1. Bu, qeybətini etdiyin şəxsin reputasiyasına və şəxsiyyətinə təcavüzdür.

2. İnsan bu işə öyrəşir. Bir şəxs haqqında pis danışsan, sonra başqası haqqında da bunu edəcəksən və beləliklə, bu iş sənin üçün adiləşəcəkdir. Mübarək ayənin bənzətməsindəki kimi, bir dəfə ölü əti yesən, onu başqa

vaxtlarda da yeməyin adiləşəcək. Əmirəlmöminin Əli (ə) buyurur: *"Özünü qeybət etməyə öyrəşdirmə, həqəqətən, ona öyrəşənin günahı böyükdür"*[88] .

3. Cəmiyyətin ab-havasını neqativ şeylərlə korlamaq və onun yayılmasına yardım etmək. Sən hansısa bir şəxsin eyibindən danışdığın zaman onun eyibi haqqında danışmağın camaat üçün başqasının eyiblərini dinləməyi adiləşdirər və onlar qeybət etməyə cürətlənərlər. O həddə qədər ki, bir gün öz qeybətini də eşidərsən. Necə ki, İmam Cəfər Sadiq (ə) buyurmuşdur: *"Qeybət etmə ki, sonra sənin də qeybətini edərlər"*[89] .

4. Başqasının əks reaksiyasına səbəb olmaq. Qeybəti edilən şəxs onun barəsində danışılanlardan bu və ya digər şəkildə xəbər tuta və qisas ala, yaxud özünü müdafiə edə bilər ki, bu da cəmiyyəti qarşıdurma, düşmənçilik və nifrətin yayıldığı meydana çevirər.

5. Allaha itaətsizlik, yaxşı əməllərini pis əməllərlə yandırmaq və yaxşı əməllərinin çəkisini ağırlaşdırmaq üçün onlara ən çox ehtiyac duyduğun bir gündə (qiyamət günündə) onları başqasına verməyə məcbur olmaq. Rəsulullah (s) bu barədə buyurmuşdur: *"Qiyamət günü bir şəxs gətirilib Allahın hüzuruna çıxarılar və ona əməl dəftəri verildikdə o, orada yaxşı əməllərini görməyib deyər: "İlahi, bu mənim əməl dəftərim deyil, mən orada itaətlərimi (yaxşı əmələrimi) görmürəm". Ona deyilər: "Rəbbin kimsənin haqqını nə itirməz, nə də unutmaz. Sənin əməllərin insanların qeybətini etdiyinə görə puç olub getdi. Sonra başqa bir şəxs gətirilər və ona əməl dəftəri verildikdə o, orada çoxlu yaxşı əməllərin olduğunu görüb deyər: "İlahi, bu mənim əməl dəftərim deyil, mən bu yaxşı əməlləri etməmişəm". Allah-təala*

---

88 Ğurərul-hikəm və durərul-kəlim, c. 2, səh. 327.
89 Biharul-ənvar, c. 72, səh. 249, hədis:16.

*ona buyurar: "Filankəs sənin qeybətini etdiyinə görə onun yaxşı əməlləri sənə verildi"."*[90] . Bu, qeybəti edilənin işini asanlaşdırar. Çünki onun haqqı Allah yanında qorunur. Ona görə də bir adama filankəs sənin haqqında filan-filan sözlər dedi söyləndiyi zaman, o, adi bir adam olsa, qəzəblənər və bəlkə də (qeybətini edən şəxsə qarşı o da) eynisini edər. Amma dərrakəli bir mömin olsa, buna əhəmiyyət verməz, bəlkə də ona pislik edəni bağışlayar.

**Onların sözləri nurdur**

Dini mətnlərin qeybət məsələsini kəskin şəkildə vurğulaması insanı heyrətə gətirir. Buradan anlaşılır ki, şəriət başqalarının adını və onların cəmiyyətdəki mənəvi mövqeyini qorumağa nə qədər önəm verir. Buna görə də biz Peyğəmbər (s) və əhli-beyt (ə) tərəfindən buyurulmuş qeybəti şiddətlə qadağan edən çoxlu hədislərə rast gəlirik. Bunlardan biri Rəsulullahın (s) Vida xütbəsində söylədikləridir. Biz bu xütbənin nə qədər əhəmiyyətli olduğunu bilirik. Belə ki, Allahın Rəsulu (s) burada ümmət üçün mühüm olan əsas məsələlərə diqqət yetirmişdir. Xütbənin bir yerində Həzrət (s) buyurur: *"Bilin ki, sizin qanınız, malınız və namusunuz bu məmləkətinizdə bu ayınızdakı bu gününüzün haramlığı (müqəddəsliyi) kimi haramdır (müqəddəs və toxunulmazdır)*[91]. Namus insanların mənəvi mövqeyi anlamını daşıyır.

Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) buyurmuşdur: *"Allahın ən nifrət etdiyi məxluq qeybət edəndir"*[92] .

Böyük səhabə Əbuzər əl-Ğifari deyir: *"Peyğəmbər (s) mənə nəsihətində belə buyurdu: "Ey Əbuzər, məbadə qeybət edəsən, həqiqətən, qeybət zinadan*

[90] Ağa Hüseyn Bürucirdi, "Camiu əhadisiş-şiə", c. 16, səh. 327, hədis: 33.
[91] Biharul-ənvar, c. 23, səh.165, hədis:118.
[92] Ğurərul-hikəm və durərul-kəlim, c. 1, səh. 195.

*pisdir". Dedim ki, ya Rəsulullah, atam-anam sənə qurban, nə üçün belədir? Həzrət buyurdu: "Çünki insan zina etdikdən sonra tövbə edə və Allah da onun tövbəsini qəbul edə bilər. Qeybət isə (qeybəti edilmiş haqq) sahibi tərəfindən bağışlanmayınca bağışlanmaz"."*[93] .

Odur ki, qeybət iki cəhətdən cinayətdir: həm Allah-təalaya itaətsizlikdir, həm də kiməsə təcavüzdür.

Bu xüsusda başqa hədislər də vardır ki, onlardan biri hədisi-qüdsidə Allah-təalanın Öz peyğəmbəri həzrət Musa (ə)-a xitab edərək belə buyurmasıdır: *"Qeybətə tövbə etmiş halda dünyadan köçən şəxs Cənnətə ən son daxil olan şəxs olacaq, qeybətə davam etdiyi halda dünyadan köçən şəxs isə Cəhənnəmə ən birinci daxil olan şəxs olacaqdır"*[94].

Başqa bir hədisdə Rəsulullah (s) buyurmuşdur: *"Qeybəti tərk etmək Allah-təala üçün on min rəkət müstəhəb namazdan daha üstündür"*[95].

**Qeybət məclisləri**

Mömin başqalarının qeybəti edilən məclisdə iştirak etdiyi zaman onun vəzifəsi nədir?

Elə məclislər var ki, başqalarının qeybətini etməklə xarakterizə olunur. Sanki onların əsas məşğuliyyəti insanların büdrəmələrini izləməkdir. Təəssüf ki, bəzi dini ortamlarda da fikir ayrılıqlarına və ya maraqların toqquşmasına görə belə hallara rast gəlinir. Bəzi insanlar başqalarının eyiblərini deyirlər. Sanki bu işin ən böyük günahlardan olduğunu unudublar. Bəzi dindarlar içki içmədiklərinə, zina etmədiklərinə və böyük günahların heç birini

[93] Şeyx Tusi, "əl-Əmali", səh. 537.
[94] Mirzə Hüseyn Nuri, "Müstədrəkul-vəsail", c. 9, səh. 126, hədis: 10438.
[95] Biharul-ənvar, c. 72, səh. 261, hədis: 66.

etmədiklərinə görə özlərində bir üstünlük görürlər. Onlar başqalarının belə günahlara düçar olduğunu gördükdə və ya eşitdikdə Allaha onu bu günahlardan xilas etdiyinə görə şükr edər, amma başqalarının eyiblərindən danışaraq, bu əməl böyük günahlardan deyilmiş kimi, doyunca onların qeybətini edərlər. Halbuki bu əməl heç də digər günahlardan geri qalmır. Necə ki, Rəsulullah (s) buyurmuşdur: *"Qeybət zinadan pisdir"*.

Elə isə, belə bir məclisdə iştirak etdiyin zaman vəzifən nədir? Sən qeybət etməmiş ola bilərsən, bəs başqasından qeybət eşitməyə məruz qaldığın zaman mövqeyin necə olmalıdır?

Fəqihlər vurğulayırlar ki, qeybəti eşitmək də onu danışmaq kimi günahdır. Sən mömin bir şəxsin qeybətini edən adamı dinlədiyin zaman sussan, mömin qardaşını müdafiə etməsən, bu qeybətə şəriksən. Buna görə də sən qeybəti rədd etməli, onu qəbul etməməlisən. Bəziləri utanmaqlarını bəhanə gətirirlər, amma bu, qəbuledilməz bir bəhanədir. Məgər içki içməyə çağırıldığın zaman imtina etməyə utanmağın onu içməyin üçün üzr sayıla bilərmi?! Eləcə də bir adamın ölü əti yediyini gördüyün zaman o, səni bu işdə ona qatılmağa çağırdığı təqdirdə utanmağın ona qatılmağına və ya bu cinayətə səssiz qalmağına əsas verə bilərmi?!

Bəzilərini başqalarının haqqında pis danışmaqdan çəkindirdikdə və danışdıqları qeybəti rədd etdikdə sənə deyərlər ki, mənim dediklərim doğrudur. Bu isə qeybət etməyə əsas vermir. Qeybət elə insanda olanları onun arxasınca deməkdir. Rəsulullahdan (s) nəql olunmuş bir hədisdə o həzrət belə buyurmuşdur: *"Kim (mömin) qardaşına onun olmadığı yerdə kömək edərsə (yəni, onun qeybətinə imkan verməzsə, onu müdafiə edərsə), Allah da dünya*

*və axirətdə ona kömək edər"*[96] . Həmçinin, Allahın Rəsulu (s) buyurmuşdur: *"Bir insanın qeybəti edilən zaman onların (qeybət edənlərin) içərisində olsan, o (qeybəti edilən) insana kömək et, qeybət edənlərə acıqlanıb onları danla, ya da qalxıb onların yanından uzaqlaş"*[97] . Qeybət məclisində oturmağı özünə rəva bilmə, çünki o çirkin məclisdir.

Dostlardan biri mənə danışır ki, bir dəfə o, böyük alimlərdən birinin məclisində olarkən orada iştirak edənlərdən biri bir alim haqqında pis danışdı. Bu zaman məclisdəki böyük alim qəzəblənib onu belə sözlər danışmaqdan çəkindirərək dedi: *"Əgər bu işin əzabına dözə biləcəksənsə, o zaman azadsan (seçim sənindir), ancaq biz buna dözə bilmərik, ona görə də bizim məclisimizdə bir daha bu işi təkrarlama"*. Düzgün mövqe budur.

**"Bir qövm digərini lağa qoymasın"**

Başqaları ilə münasibətinə onlara ilk baxışın təsiri edir. Sənin yanına bir nəfər gəldiyi zaman əgər sən ona hörmət və təqdirlə yanaşsan və ya onunla əvvəllər yaxşı münasibətin olmuş olsa, ona qarşı olan hisslərin səni onunla yaxşı davranmağa sövq edəcək. Əgər, əksinə, bu adamla bağlı pis təəssürat almış olsan, onunla münasibətin ona qarşı olan hisslərinə əsaslanacaq.

**Müalicə kökdən başlayır**

Həqiqi İslam və onun tolerant təlimləri insanı başqaları ilə mehriban yaşamaq və gözəl əxlaqda tərbiyə etmək istəyir. Bu, insan cəmiyyətlərində birlik və harmoniya şəraitini möhkəmləndirməyə ən doğru çağırışdır. Buna

---

[96] Məhəmməd Nasiruddin Əlbani, "Səhihul-camiis-səğir və ziyadətuh", hədis: 6574.
[97] Kənzul-ummal, c. 3, səh. 586.

görə də İslam bu psixoloji vəziyyəti kökündən müalicə etməyə, ilk baxışı və üzərində başqaları ilə münasibətin təməldən qurulacağı hiss və duyğuları istiqamətləndirməyə çalışır. Təməl güclü olsa, üzərindəki bina da möhkəm olar.

**“Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd etməsinlər). Bəlkə, onlar (rişxənd olunanlar) o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar”** *(əl-Hucurat, 11).*

Mübarək ayə başqaları ilə münasibətdə psixoloji hisslərdən qaynaqlanan bir sözdən bəhs edir ki, bu da lağa qoymaq sözüdür.

**Lağa qoymaq** – başqalarını ələ salmaqdır. Lağa qoymağın psixoloji halı insanın başqalarına yuxarıdan aşağı baxması, alçaldıcı və istehzalı baxışlarla yanaşmasıdır. Bu baxış onun onlarla danışdığı sözlərdə, onlara yönəlik eyhamlarında öz əksini tapır. Qurani-kərim isə bu xoşagəlməz vəziyyəti əks mənfi təsirlərinə görə qəti şəkildə qadağan edir. Normal insan başqalarına hörmət və təqdirlə baxmalıdır. Çünki o, özü də ona belə baxılmasını xoşlayır.

**Yuxarıdan aşağı baxmaq**

Bəs niyə bəzi insanlar başqalarına yuxarıdan aşağı baxır?

Mübarək ayə bu suala obyektiv cavab verir. Çünki bu baxışı doğuran aşağıdakı iki səbəbdən biridir:

**Birinci səbəb:** İnsanın özünü başqalarından üstün görməsi. Burada insan öz-özlüyündə düşünüb bu suala cavab verməlidir: sən lağa qoyduğun insandan üstün olduğuna əminsənmi? Bu insanın sənə görünməyən güclü tərəfləri ola bilər və o, gələcəyində – əgər hazırda elə deyilsə – sənin

çatmadığın yüksək məqama çata bilər. Bundan başqa, mömin şəxs Allah-təala ilə müxalif mövqedə olmağı qəbul edərmi? Belə ki, ilahi dərəcələr və məqamlar var və insanın həqarətlə baxdığı bir şəxs Allah yanında böyük dəyər və məqam sahibi ola bilər. Elə isə o, Allahın dostlarından birini təhqir edib ona xor baxdığı halda Onun qarşısında öz mövqeyini necə əsaslandıracaq?

**İkinci səbəb:** Başqalarının zəif cəhətlərini şişirtmək.

Kimsə zəif cəhətlərinin olmadığını əminliklə deyə bilərmi? Bəzən bir insanda gördüyün zəifliklərə görə ona yuxarıdan aşağı baxarsan, amma bəlkə də səndə ondan daha çox və daha biabırçı zəifliklər var və bəlkə də o başqası öz zəifliklərinə haqq qazandıra bilər. Eynilə şair Diibəl əl-Xüzainin (vəfatı 246 h.q) dediyi kimi:

*Gözlə, dostunu qınamağa tələsmə,*

*Bəlkə də onun bir üzrü var, qınanılacaq sənsən.*

**Qadınlar və rişxənd etmək**

Allah-təala buyurur: **"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar (lağa qoyulanlar) o birilərindən (lağa qoyanlardan Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə (rişxənd etməsinlər). Bəlkə, onlar (rişxənd olunanlar) o birilərindən (rişxənd edənlərdən) daha yaxşıdırlar"**. Burada belə bir sual yaranır: Nə üçün ayədə təkcə qadın kateqoriyası xüsusi olaraq qeyd edilib? İki ehtimal var:

Birincisi: "Qövm" sözünün ərəblərdə bir qrup kişiyə deyilməsi. Ərəblərin şeirlərində buna dəlillər var. Bu mənada, ayədə əvvəlcə kişilər, ardınca isə qadınlar qeyd edilmiş olur: **"Bir qövm digərini lağa qoymasın"**, yəni bir

qrup kişi başqa bir qrup kişini lağa qoymasın. Ardınca isə: **“Qadınlar da bir-birinə (rişxənd etməsinlər)”**.

İkincisi: İkinci ehtimal budur ki, “qövm” kəlməsi həm kişiləri, həm də qadınları ehtiva edir, lakin bu kəlmədən sonra qadınların xüsusi qeyd edilməsi sözü gedən təzahürün (bir-birinə rişxənd etmənin) onların arasında, ələlxüsus da o dövrlərdə daha çox olmasına görədir. Bəlkə də bu təzahür bizim dövrümüzə qədər hələ də onların bəzi ortamlarında qalmaqdadır.

Bəs niyə bu təzahür qadınlar arasında daha çox olur?

Bəzi sahə sosial araşdırmaları göstərir ki, əksər qadın ortamları bir-birilə məşğul olur (bir-birilə rəqabət aparır, bəns edir) və bu, onlarda rişxənd hallarına baş verməsinə səbəb olur. Bəklə də bunun səbəblərindən biri bəzi cəmiyyətlərdə qadınların ictimai, siyasi və intellektual maraqlarının məhdud olmasıdır. Bu isə, böyük qayğıları olmayan kişilərdə olduğu kimi, onların cüziyyata (xırda məsələlərə) maraq göstərmələrinə səbəb olur. Məsələn, məhkumlar iş və ictimai həyat sahələrindən təcrid olunduqları üçün yatacaq yer və ya yemək üçün yarışmaq, yaxud onun-bunun dediyi sözləri müzakirə etmək kimi əhəmiyyətsiz maraqlara üz tuturlar. Qadınların, xüsusən də bəzi ərəb cəmiyyətlərimizdə, adətən böyük qayğıları olmadığı üçün onlar öz həmcinsləri ilə xırda fikir ayrılıqlarına maraq göstərirlər. Bölgəmizdəki kollektiv nikah layihəsi yalnız kişilər üçün nəzərdə tutulub. Bəzi təşkilatlara gəlinlər üçün ayrıca kollektiv toy məclisi təşkil etmək təklif olunsa da, onlar bildirmişlər ki, qadınlar geyim, zahiri görünüş və digər məsələlərdə detalları müqayisə etməklə məşğul olduqlarından onlar üçün bunu etmək çətin olur və bu məsələ bizi problemə və məşəqqətə sala bilər. Ola bilsin ki, məsələ şişirdilib, bu, qadının özündəki çatışmazlıqdan deyil, daha çox onun yaşadığı şəraitdən, yüksək maraqlar perspektivinin qadınlara açıq olmamasından irəli

gəlir. Odur ki, – bu rəyə əsasən – qadınların irəli çəkildiyi mühüm sahələrin daralması səbəbindən rişxənd etmə halları onlarda kişilərdən daha çox olur və ona görə də mübarək ayədə onların adı ayrıca çəkilir.

**Ayənin nazil olma səbəbləri**

Bu ayənin nazil olma səbəbləri ilə bağlı təfsirçilər tərəfindən qeyd olunan bir neçə rəvayət vardır ki, onlardan aşağıdakıları qeyd edirik:

**Birinci rəvayət:** Bu rəvayətdə deyilir ki, sözü gedən ayə Əmmar, Xəbbab, Bilal, Salman və Süheyb kimi yoxsul səhabələrə istehza edən bir qrup haqqında nazil olmuşdur. Bu adları çəkilənlər Qüreyşdən qeyri qəbilələrin köləlikdən azad etdiyi insanlar idilər və Qüreyş qəbiləsinin üzvlərindən bəziləri özlərini onlardan daha bacarıqlı və daha üstün gördükləri üçün onlara istehza edirdilər. Ona görə də onları bundan çəkindirən bu ayə nazil oldu[98].

**İkinci rəvayət:** Bu rəvayətdə deyilir ki, ayə Əkrəmə ibn Əbu Cəhl haqqında nazil olmuşdur. Əbu Cəhl İslama və Peyğəmbərə (s) qarşı düşmən mövqeyi ilə məşhur idi. Hətta ona bu ümmətin Fironu da deyilirdi. Əkrəməyə gəlincə, o, İslamın düşmənlərinə qarşı mübarizə aparan bir müsəlman idi. Lakin bəzi müsəlmanlar atasına görə ona tənə vurur, Əkrəmə onların yanına gəldikdə deyirdilər: “Ümmətin Fironunun oğlu gəldi”[99].

Bu sözlər təbii ki, onun hisslərini incidirdi, sanki o, atasının günah yükünü daşıyırdı. Bu isə yolverilməz olduğu üçün həmin ayə nazil oldu.

**Üçüncü rəvayət:** Üçüncü rəvayətdə deyilir ki, bu ayə Rəsulullahın (s) bəzi xanımları haqqında nazil olmuşdur. Belə ki, möminlər anası Səfiyyə bint

---

[98] Məhəmməd Hüseyn ibn Məsud əl-Bəğəvi, “Məalimut-tənzil fi təfsiril-Quran (Təfsir əl-Bəğəvi), c. 4, səh. 261.
[99] Seyyid Məhəmməd Şükri Alusi, “Təfsir ruhul-məani”, c. 26, səh. 152.

Hüyey ibn Əxtəb yəhudi əsilli bir xanım idi və sonradan İslamı qəbul edib Allah Rəsulunun (s) zövcəsi olmuşdu. Amma Səfiyyənin möminlər anaları olan bəzi günüləri yəhudi əsilli olmasına görə ona tənə vururdular. O, bundan Rəsulullaha (s) şikayət etdikdə Həzrət ona buyurmuşdu: *"Sən də onlara desənə, mənim atam Musa, əmim Harun, ərim isə Məhəmməddir"*[100] . Bəzi təfsirçilər qeyd edirlər ki, möminlər anası Aişə ona qısa boyuna görə rişxənd etdiyi üçün bu ayə nazil olmuşdur[101] .

**İmamların tövsiyələrindən**

Bu (mənəvi) xəstəlik vəziyyətinin müalicəsi üçün sözü gedən Quran hidayəti kontekstində İmam Zeynulabidin Əli ibn Hüseyn (ə)-dan gözəl bir rəvayət nəql olunmuşdur. İmam (ə) Zuhriyə tövsiyəsində ona buyurur: *"Ey Zuhri! Müsəlmanları öz ailən misalında hesab et. Böyüklərini atan yerində bil".* Kimsə öz atasına hörmətsizlik etməz. *"Kiçiklərini övladın yerində bil".* Normal insanın vicdanı onu öz övladını təhqir etməyə qoymaz. *"Səninlə həmyaşıd olanlarını isə qardaşın yerində bil. Bunlardan hansına zülm etmək istəyərsən? Hansına bəd dua etmək istəyərsən? Hansına hörmətsizlik etmək xoşuna gələr? Əgər Allahın lənətinə gəlmiş İblis sənə qiblə əhlindən kiminsə üzərində bir üstünlüyünün olduğunu göstərməyə çalışsa, bax gör əgər həmin şəxs səndən böyükdürsə, (özünə) belə de: o, iman və saleh əməldə məndən öndədir və ona görə də məndən üstündür".* Hansısa bir sahədə 30 illik praktiki təcrübəsi olan bir insanla, məsələn, on illik təcrübəsi olan insan bərabər deyil. Həmçinin, möminlərin də yaşa dolduqca saleh əməlləri və

[100] Əli ibn Əhməd əl-Vahidi, "Əsbabu nuzulil-Quran", səh. 393.
[101] Əbu Abdullah Məhəmməd əl-Qurtubi, "Təfsirul-Qurtubi", c. 16, səh. 325.

imanlarının artdığı güman edilir. *“Əgər səndən kiçik olsa, o zaman belə de: mən itaətsizlik və günahlarda onu qabaqlayıram (böyük olduğum üçün ondan daha çox itaətsizlik və günah etmək ehtimalım var) və buna görə də o, məndən üstündür. Həmyaşıdın olduğu təqdirdə isə de ki, mən öz günahımın olduğunu yəqin bilirəm (əminəm), onun əməlləri barədə isə şəkdəyəm (günah edib-etmədiyini dəqiq bilmirəm), bu səbəbdən də şəkkimə görə yəqinimi əldən verə bilmərəm (öz günahıma olan yəqinimi kənara qoyub onun günah edib-etməməsi ehtimalına görə özümü ondan üstün saymağa haqqım yoxdur). Müsəlmanların sənə təzim, ehtiram və pərəstiş etdiklərini gördükdə de ki, bu onların lütfüdür”.* İnsanların sənə təzim etməsi onların sənə bir lütfüdür, ona görə də lovğalanmağın və təkəbbür etməyin düzgün deyil. Eynilə Kumeyl duasında deyildiyi kimi: *“(Barəmdə insanlar arasında) neçə-neçə layiq olmadığım gözəl təriflər yaymısan”.* Sonra İmam Zeynulabidin (ə) sözünü belə tamamlayır: *“Onların sənə cəfa etdiklərini və səndən uzaqlaşdıqlarını gördükdə de ki, bu mənim etdiyim günahdandır. Əgər belə etsən, həyatın asanlaşacaq, dostların çoxalacaq, düşmənlərin də azalacaqdır”*[102] . Beləcə, İmam Zeynulabidin (ə) bizə başqaları haqqında necə xoş gümanda olmağı, eləcə də başqalarını ittiham edib özümüzə bəraət qazandırmağı deyil, özümüzü məsuliyyətli olmağa cəlb etməyi öyrədir.

## Qruplar arasında lağa qoyma

Bir insanla digəri arasında bir-birini lağa qoyma pis bir hərəkətdir, lakin bunun qruplar arasında olması, bir qrupun digər bir qrupu lağa qoyması daha pisdir. Bu zaman vəziyyət daha dəhşətli olur, çünki bunun təsirləri daha

[102] Əhməd ibn Əli ibn Əbu Talib ət-Təbərsi, “əl-İhticac”, c. 2, səh. 158, 159.

əhatəli və kütləvidir. Ona görə də Quran bu halları qadağan etməyə xüsusi önəm verərək: **“Bir qövm digərini lağa qoymasın”,** – buyurur.

Təəssüf ki, bu neqativ hal geridə qalmış cəmiyyətlərdə geniş yayılır. Belə ki, bəzi qruplar ya nəsil mənsubiyyəti, ya nüfuz, ya da mal-dövlətə görə digər qruplardan üstün olduqlarına inanırlar. Bu isə İslamın mübarizə apardığı bir məsələdir. Əgər fiqh kitablarında, məsələn, nikah bölməsinə müraciət etsək, görərik ki, İslam insanları evlənmək istəyən şəxsin filan qəbilədən olmasına deyil, özünə baxmağa yönəldir. Nəsil mənsubiyyətinin insanın davranışına təsir edəcək şəkildə bir rolu olsa da, insan bu təsiri aşdığı təqdirdə heç bir bəhanə qalmaz. Bu, çoxlarının diqqətindən qaçan bir məqamdır. Ad-san və əsl-nəcabət ilkin təsəvvür üçün meyardır. Belə ki, sənin yanında tanımadığın bir şəxsin adı çəkildikdə, onun təqva və salehliklə tanınan bir ailədən olduğu söyləndikdə bu şəxsin yaxşı biri olduğunu düşünürsən. Amma adı çəkilən şəxsi əməlisaleh və ya pis adam kimi tanıdığın təqdirdə ehtimal yəqinə çevrilir.

Bəzən lağa qoyma bölgələr səviyyəsində olur, bu və ya digər bölgənin camaatını ələ salanlara rast gəlirsən. Bu, bəzi cəmiyyətlərdə mövcud olan xoşagəlməz bir vəziyyətdir.

Bəzən də lağa qoyma iqtisadi səviyyənin əsasında olur və varlılar kasıblara həqarətlə baxırlar. Bəzən ictimai və hətta dini mənsubiyyətlər də həqarətli davranışa səbəb olur ki, bu da lağa qoymanın ən pis formalarındandır. Bir insanın filan məzhəbə, ya filan partiyaya mənsub olduğu, yaxud filan müctəhidə bağlı olduğu deyildikdə bir çox istehza mənalı ifadələr eşidirsən. Sanki bu ifadələri söyləyən özünü və onunla birgə olanları ən yüksək, başqalarını isə ən aşağı mərtəbədə görür. Təbii ki, bunlar xoşagəlməz şeylərdir və biz bunları qəbul etməməliyik.

Təcrübələr sübut etmişdir ki, özlərinə narsist kimi baxan və başqalarını onlardan daha aşağı görən toplumlar əvvəlki şan-şöhrətlərin ipəkləri üzərində yaşadıqları üçün adətən daha az effektiv, fuksional və aktiv olurlar. Bu təzahür (narsisist düşüncə), Allah-təala tərəfindən nifrətlə qarşılanmaqla yanaşı, ciddilik anında sahiblərini utancverici vəziyyətlə üz-üzə qoyur və onlar görürlər ki, başqaları onlardan daha bacarıqlıdır, onların isə keçmiş şan-şöhrətdən başqa heç nələri yoxdur. Şair demişdir:

*“Əmr ibn Gülsümün söylədiyi bir qəsidə,*

*Bəni-Təğlibi bütün gözəl işlərdən saxladı”.*

Ümid edirik ki, cəmiyyətlərimiz bu pis təzahürlərin öhdəsindən gələcək və biz Quranın, Allah Rəsulu (s) və onun pak əhli-beytinin əxlaqı ilə zinətlənəcəyik.

## Casusluq və başqalarının sirlərini ifşa etmək

İnsanlar arasında yaxınlıq və harmoniya əsasında ictimai münasibətlər qurmaq üçün cəmiyyət üzvləri arasında qarşılıqlı hörməti qoruyan, ayrı-ayrı şəxslərin və qrupların hüquqlarını hər cür sui-istifadə və təcavüzdən hifz edən möhkəm bir mənəvi baza yaratmaq lazımdır. Mübarək ayədə buyurulur: **“Casusluq etməyin (bir-birinizin eyibini, sirrini arayıb axtarmayın), bir-birinizin qeybətini qırmayın”** *(əl-Hucurat, 12).* Bu, casusluqdan açıq-aydın çəkindirmədir. Casusluq gizli yolla araşdırmadır. Bu söz ərəb dilindəki “əl-ciss” (gizlicə axtarmaq) kəlməsindən götürülmüşdür və bu işi görənə “casus” deyilir. Yəni casusun missiyası başqalarının şəxsi məlumatlarını arayıb-axtarmaqdır.

Hər bir insanın özünə xas varlığı, fikirləri və işləri var və o, heç kimin bunlardan xəbər tutmasını xoşlamır. Ona görə də heç kimin haqqı yoxdur ki,

başqasının sirlərini və gizlətmək istədiklərini öyrənməyə can atmaqla onun ehtiramını tapdalasın. Mübarək ayə bundan çəkindirir.

**Şəxsi məsələlər niyə gizli saxlanılır?**

İnsan aşağıdakı səbəblərdən birinə görə həyatının bəzi məsələlərini və tərəflərini gizlətməyə meyllidir:

1. Ya zəif nöqtələri olduğu üçün bunu edir, belə ki, heç kim başqalarının onun zəif tərəflərini bilməsini istəmir.

2. Bu onun güclü tərəfləri ola bilər, amma o, qorxur ki, kimsə onları bilib korlayar və ya onlara zərər verər. O, iqtisadi bir layihə haqqında düşünə bilər və bu layihə özü və ya başqaları tərəfindən yayıldığı təqdirdə onun ideyası götürülə və ondan əvvəl başqaları onun üzərində işləyə bilər. Siyasi, ictimai və ya başqa sahələrdə də belədir. İnsanı bəzi hallarda şəxsi işlərini gizlətməyə təşviq edən dini mətnlər (hədis və rəvayətlər) də var.

3. İnsan öz şəxsi işlərini, məsələn, həyat yoldaşı və ya uşaqları ilə münasibətlərini insanların qarşısında gizlətməklə rahatlıq tapa bilər. O, tam bəzənmiş halda insanların qarşısına çıxır, lakin evində geyimlərinin çoxunu yüngülləşdirir. Bu, hər bir insanın qanuni hüququdur.

**Şəxsi məlumatlar nə üçün aranıb-axtarılır?**

Bəzən insan maraqdan və müdaxilə istəyindən hansısa bir şəxsin sirlərini və şəxsi məlumatlarını gizli yolla öyrənir. Bu isə pis vərdişdir. Fikir və rəyləri oğurlamaq da belədir. Belə ki, hərdən insan bir şəxsin hansı kateqoriyadan olduğunu öyrənib ona qarşı mövqe tutmaq üçün onu tanımağa, onun nə düşündüyünü, filan məsələyə münasibətinin necə olduğunu bilməyə çalışır. Rəsulullahın (s) belə buyurduğu nəql olunur: *“Mənə insanların*

*ürəklərindəkilərlə bağlı axtarış aparmaq əmr olunmayıb"*[103] . İnsanların niyyətlərini təftiş etmək caiz deyil, bu, düşmənçiliyə səbəb olur. İmam Sadiq (ə) buyurur: *"İnsanların dinlərini (imanlarını, ürəklərindəkiləri) təftiş etmə, dostsuz qalarsan!"*[104] .

Bəzən də başqalarının şəxsi məlumatlarını öyrənməyə çalışmağın səbəbi onlara zərər vermək üçün zəif cəhətlərini və çatışmazlıqlarını izləmək olur. Bu, casusluğun ən çox haram sayılan növlərindən biridir.

**Casusluq vasitələri**

Elmin inkişafı ilə casusluq vasitələri də inkişaf edir. O, artıq hər kəs üçün əlçatan olub və böhran mənbəyinə çevrilib. Bir dəfə ər-arvadı barışdırmaq üçün onların arasındakı sosial bir məsələni müzkirə edirdim. Arvad deyirdi ki, onun əlində ərini günahlandırmaq üçün səs yazısı var. Ər də onu səs yazısı ilə günahlandırdığını iddia edirdi. Hər biri digərinə qarşı xəbərçi kimi çıxış edirdi. Bu ən pis ər-arvad münasibətlərindən biridir, inamsızlıqla başlayıb casusluğa qədər yuvarlanan bir münasibətdir və bu, şəri baxımdan haramdır.

Kimliyindən asılı olmayaraq, heç kimin başqalarına qarşı casusluq etməyə haqqı yoxdur. Nə atanın öz həddi-büluğa çatmış yetkin övladlarına, nə də ərin arvadına qarşı və ya əksinə. Tərbiyə və islah aspekti istisna edilə bilər, lakin bu məsələ ilə bağlı belə bir xəbərdarlıq var ki, şübhə və məkrli vasitələrdən istifadə əks nəticələrə və pis reaksiyalara səbəb ola bilər.

Hətta azyaşlıların belə əlində olan mobil telefonun audio və videoçəkiliş funksiyası var. Lakin bu vasitələrdən istifadə edərək başqalarını alçaltmaq,

[103] Səhihul-Buxari, əl-Məğazi bölümü, hədis: 4116.
[104] Tuhəful-uqul, səh. 369.

onların zəif cəhətlərini və nöqsanlarını yaymaq yolverilməzdir. Hər kəsin gizli saxlamaq istədiyi şeyləri gizlətmək hüququ var və bu qərara hörmətlə yanaşmaq sənin şəri borcundur.

**Dini tövsiyələr**

Rəsulullahdan (s) və onun pak əhli-beytindən nəql olunan bir çox hədislər casusluq etməkdən çəkindirir, insanların toxunulmazlığını və bu toxunulmazlığa təcavüz etməyin çirkinliyini vurğulayır. Rəsulullah (s) belə buyurmuşdur: *"Müsəlmanların büdrəmələrini izləməyin (güdməyin), kim müsəlmanların büdrəmələrini izləsə, Allah da onun büdrəməsini izləyər, Allah isə büdrəməsini izlədiyi kimsəni xar edər!"*[105]

Mənim başqalarının zəif cəhətlərini güdməyim və başqalarının da mənim zəif cəhətlərimi güdməsi bu pis davranışın yayılmasına səbəb olur. Bəzən Allah-təala, casusun başqalarına etdiyi kimi, onun özünün qüsurlarını və zəifliklərini üzə çıxaracaq şəxsi ona müsəllət edir və bu həm onun, həm də başqalarının qarşısını alır.

Bəzən sənin bir dostun olur və bu münasibət sayəsində o, bəzi sirlərini və şəxsi məlumatlarını sənə bildirir. Lakin bəziləri bu etibardan sui-istifadə edərək həmin sirləri saxlamaq üçün ona bir arxiv yaradır (bu sirləri yaddaşına həkk edir) və onunla dostu arasında ədavət yarandıqda bu gizli arxivi açıb oradakıların hamısını ifşa edir. Bu isə ən çirkin hərəkətlərdən biridir.

---

[105] əl-Kafi, c. 4, səh. 79, hədis: 4.

İmam Baqir (ə) buyurmuşdur: *“Bəndənin küfrə ən yaxın olduğu halı onun bir insanla din əsasında qardaşlıq edərək onun xətalarını və büdrəmələrini bir gün ona kobud şəkildə tənə vurmaq üçün saymasıdır”*[106].

Abdullah ibn Sinanın belə dediyi nəql olunur: *“Bir gün İmam Sadiq (ə)-dan soruşdum:“Möminin övrəti möminə haramdır?” Həzrət buyurdu: “Bəli”. Mən dedim: “Sağrısınımı qəsd edirsən?” İmam (ə) buyurdu: “Sənin dediyin deyil, bu (övrətdən məqsəd) onun sirrini yaymaqdır”*[107] .

İmam Əli (ə) isə buyurmuşdur: *“Nöqsanları güdmək ən çirkin nöqsanlardan və ən pis əməllərdən biridir”*[108] .

İmam (ə) başqa bir kəlamında buyurmuşdur: *“Kim başqalarının sirlərini arayıb-axtarsa (öyrənməyə çalışsa), Allah onun sirlərini aşkara çıxarar”*[109] .

Bu sahədə pis hərəkətlərdən biri də iki nəfərin danışdığını və öz söhbətlərinin kimsə tərəfindən eşidilməsini istəmədiklərini gördüyün zaman onların nə pıçıldadıqlarını eşitmək üçün onlara diqqət kəsilməyindir. Sən öz sirlərinə hörmət edilməsini istədiyin kimi, başqalarının sirlərinə də hörmət etməlisən. Rəsulullah (s) buyurmuşdur: *“Kim bir qrup insanın söhbətinə onlar bunu istəmədiyi halda qulaq asarsa, Allah onun qulaqlarına qalay (qurğuşun) doldurar”*[110] .

**Casusluğun haram olmasında istisnalar**

---

[106] Eyni mənbə, c. 4, səh. 77, hədis: 1.
[107] Eyni mənbə, c. 4, səh. 86, hədis: 2.
[108] Ğurərul-hikəm və durərul-kəlim, səh. 325.
[109] Ğurərul-hikəm və durərul-kəlim, səh. 638.
[110] Şeyx Səduq, “əl-Xisal”, səh. 109, hədis: 77.

Qeyd etdiyimiz və bir çox başqa hədislər insanların ehtiramını (toxunulmazlığını) və onların şəxsi işlərinə hörmət etməyi vurğulayır. Lakin burada belə bir sual ortaya çıxır: casusluq mütləq mənada haramdırmı?

Casusluğun haram edilməsində bəzi istisnalar var ki, onların ən barizləri aşağıdakılardır:

**1. Dövlətin öz məmurlarına qarşı onların iş sahəsi ilə bağlı casusluğu.** Dövlətin haqqı çatır, hətta vəzifəsidir ki, məsələn, Audit Bürosu kimi səlahiyyətli qurumun vasitəsilə məmurlarının fəaliyyətinə nəzarət etsin və bu qanunauyğundur. Allahın Rəsulu (s) ordu göndərdiyi zaman onun üzərində bir əmir təyin etməkdən əlavə bu əmirin xəbərlərini, onun idarə etmə tərzini izləyəcək bir nəzarətçi də təyin edər və bu nəzarətçi Rəsulullahı (s) məlumatlandırardı. Əmirəlmöminin Əli (ə) da Malik Əştərə əmr edərdi ki, şəxsi məsələlərə qarışmamaq şərti ilə vəzifəli şəxslərin işlərinə nəzarət etsin və öz vəzifələrini yerinə yetirdikləri sahələrdə onlara qarşı casusluq etsin.

**2. Düşmənlərə qarşı casusluq etmək.** İstənilən dövrdə hər bir ölkədə nəzarət orqanının olması zəruridir və onun işi istər daxili, istərsə də xarici düşmənlərin xalq üçün hazırladıqları təxribatları izləməkdir. Xalqın başqaları ilə üzüyumuşaq və sadəlövh davranması düzgün deyil, çünki bu, onun əmin-amanlığına təhlükə yaradar.

**3. Pis adamlara və insanların təhlükəsizliyini pozanlara qarşı casusluq.** Dövlət insanların təhlükəsizliyinə və namusuna qəsd edən oğru və quldur dəstələrinin olduğunu bildikdə xüsusi təhlükəsizlik və ya mühafizə orqanları vasitəsilə şəxsi həyata ehtiyac duyulandan kənar toxunmayacaq şəkildə bu dəstələri ifşa etməyə çalışmalıdır. Burada düşmənlər deyildikdə şəxsi və fikri (insanın fikirləri ilə bağlı) işlərə müdaxilə etmədən xalqa, vətənə zərər vermək istəyənlər nəzərdə tutulur. Bir çox hədis və rəvayətlərin

məzmunu bundan ibarətdir ki, başçı camaatın sirlərini saxlamalı və onların öz gizli eyiblərini açmalarını tələb etməməlidir. Əmirəlmöminin (ə)-ın Malik Əştərə məktubunda Həzrət ona belə yazırdı: *"Rəiyyətin, özündən ən çox uzaqlaşdıraraq düşmən saymalı olduğun adamı camaatın eyiblərinin açılmasını ən çox tələb edəni olmalıdır. Çünki camaatın eyib və nöqsanları var və onları gizli saxlamaq ən çox başçının borcudur. Ona görə də əsla onların (camaatın eyiblərinin) sənə gizli olanını tapıb üzə çıxartma. Sənin vəzifən, sadəcə, sənə məlum olan qüsurları düzəltməkdir. Səndən gizlin olanlar barəsində isə Allah hökm edəcəkdir. Odur ki, bacardığın qədər camaatın eyiblərini ört ki, Allah da sənin rəiyyətdən gizlətmək istədiyin eyiblərini örtsün"*[111]. Bu o deməkdir ki, dövlətin şəxsi qüsurlara qarşı casusluq etmək hüququ yoxdur. İnsan başqalarının haqqını pozmadan özü ilə nəfsi arasında bir günah etdiyi zaman nə dövlətin, nə də heç bir qurumun ona nəzarət etmə haqqı yoxdur. Fəqihlər, xüsusən də son illərdə islamçılar iqtidarda vəzifəyə gəldikdən sonra bu mövzularda araşdırma yazılar yazmış və dövlət tərəfindən kəşfiyyat mövzusunu, nəyin caiz, nəyin haram olduğunu araşdırmaqla maraqlanmağa başlamışlar. Fəqih Şeyx Hüseyn Əli Müntəzəri özünün "Vilayətul-Fəqihlə bağlı araşdırmalar" kitabında, eləcə də fəqih Şeyx Cəfər Sübhani özünün "İslam hökümətinin əlamətləri" kitabında bu haqda geniş yazmışdır. Mərhum müctəhid Seyyid Məhəmməd Şirazi də İslam dövləti və onun siyasəti ilə bağlı kitablarında bu mövzuya toxunmuşdur. Onların hamısı bu qənaətə gəliblər ki, insanların sirlərinə qarşı casusluq mahiyyət etibarilə haram olsa da, nizam-intizamı, eləcə də dinin, cəmiyyətin

[111] Nəhcül-bəlağə, 53-cü məktub (İmam (ə)-ın Malik Əştər ən-Nəxəiyə yazdığı məktub).

və ümmətin mənafeyini qorumaq üçün tələb olunan şeylər şəriət prinsipləri çərçivəsində icazəlidir.

## Cəmiyyətdəki daxili ixtilaflar

Möminlər cəmiyyəti bəşər cəmiyyətidir və Allah-təalaya, dinə etiqad insanın fitrətini dəyişdirmir, əksinə onu saflaşdırır və hidayət edir. Çünki insan öz instinktləri və meylləri ilə insandır. Bəziləri düşünə bilər ki, möminlər arasında ixtilaf və ya qarşıdurma olmur. Bu, arzu və xəyal üçün yarayan idealist baxışdır, lakin real aləmdə gerçəkləşmir. Madam onlar bəşər övladıdır, deməli, aralarında ixtilaf və qarşıdurmanın olması mümkündür.

### İxtilafların səbəbləri

İnanclı cəmiyyətdə ixtilaf və münaqişələrin səbəbləri digər cəmiyyətlərdə olduğu kimidir və adətən aşağıdakı iki səbəbin birindən qaynaqlanır:

**Birinci:** Maraqlar fərqliliyi. Maraqlar toqquşduqda, istər bu maraqlar maddi, istər, ad-sanla bağlı, istərsə də siyasi olsun, ixtilaf baş verir.

**İkinci:** Fikir və istiqamətlər fərqliliyi. Çünki fikir və mənsubiyyətlərin çoxluğu digər cəmiyyətlərdə olduğu kimi möminlərin cəmiyyətində də ixtilaf və münaqişələrə səbəb ola bilər.

**“Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şünhəsiz ki, Allah insaflıları sevər! Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə,**

**(əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!** *(əl-Hucurat, 9,10)* Təfsir kitabları Hucurat surəsindəki bu iki mübarək ayənin nazil olmasından söhbət açarkən Rəsulullahın (s) dövründə Ous və Xəzrəc qəbilələrindən olan iki dəstə arasında baş vermiş bir münaqişə ilə bağlı məlumatları nəql edir. Onlar Mədinədə yaşayan iki qəbilə idi və aralarında tarixi müharibələr baş vermişdi. İslam gəldikdə isə onun bərəkəti ilə aralarında razılıq əldə olundu. Lakin bu razılıq heç də ötən dövrün bütün izlərinin yox olması demək deyildi. Məlumatlar göstərir ki, zaman-zaman bu iki qəbilə arasında baş verən ixtilafların səbəblərinin çoxu əhəmiyyətsiz olmuşdur. Hər iki qəbilədən münaqişəni başlayanlar isə adətən məqsəd güdən insanlar idilər. Barəsində yuxarıda qeyd olunan iki ayə nazil olmuş bu münaqişədə xurma yarpağı və başmaq kimi bəzi zorakılığa giriş müqəddimələrdən istifadə edilmişdir.

**Nəzarət və məhdudiyyətlər**

Münaqişələr və ixtilaflar möminlər cəmiyyətində baş verdikdə ona nəzarət və məhdudiyyətlərlə qarşı çıxılmalıdır ki, onlardan ən mühümləri aşağıdakılardır:

**Birincisi:** Əxlaqa və şəri hüdudlara riayət etməyi vurğulamaq.

**İkincisi:** Cəmiyyətin öz meydanında baş verən münaqişəyə görə məsuliyyət daşıması.

Münaqişə qarşısında tamaşaçı mövqeyi tutmaq yanlışdır, möminlər məsuliyyət daşımalıdırlar. Allah-təala yuxarıda qeyd olunan mübarək ayələrdə möminlərə öz ortamlarında baş verən münaqişəyə düzgün münasibət bəsləmələrini əmr edir: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə savaşsa, onları dərhal barışdırın"**. Ayədəki "iqtital" (savaşmaq) kəlməsi terminologiyada qılınc və müxtəlif silahlarla döyüşmək deməkdir. Lakin bu,

ən yuxarı həddir, istənilən münaqişəni savaş adlandırmaq olar və ayə buna işarə edir. Adətən, hər hansı bir münaqişə həll edilmədikdə gərginləşməyə doğru gedir. Buna görə də ayədə münaqişənin həlli üçün təşəbbüsün zəruriliyi vurğulanır: **"Onları dərhal barışdırın"**.

Təfsirçilərdən biri ayədəki müxtəlif əvəzliklərə diqqəti çəkir. Belə ki, ayənin əvvəlindəki ifadə təsniyə (ikilik)[112] şəklindədir: **"İki dəstə"**. Sonra isə cəm şəklə çevrilir: **Bir-biri ilə savaşsa (bir-birləri ilə savaşsalar)"**. Daha sonra isə yenidən təsniyə şəklinə qayıdır: **"Onları (o iki dəstəni) dərhal barışdırın"**. Çünki konflikt çox vaxt iki şəxs və ya iki qrup arasında başlayır, lakin gərginləşdikdə münaqişə iştirakçılarının dairəsi genişlənir və hamını əhatə edir.

Allah-təalanın barışdırma əmri bunun zəruriliyinə dəlildir və möminlər gərək öz çevrələrində baş verən ixtilaflara biganə qalmasınlar.

**Təcavüzkarlığa və düşmənçiliyə qarşı məsuliyyət**

Ardınca Allah-təala buyurur: **"Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun"**. Bu, mühüm məsələdir, çünki mübahisə və münaqişələrdə çox vaxt bir qrup digərinə qarşı təcavüzkarlıq edir və bu zaman möminlər cəmiyyətinin üzərinə iki məsuliyyət düşür:

**Birinci məsuliyyət: Sülhə çağırış**

İnsanlar arasındakı münasibətləri düzəltməyə dair çoxlu ayə və hədislər vardır. Allah-təala bu xüsusda buyurur:

---

[112] Ərəb dilində tək və cəmdən başqa "iki" sözü işlənmədən ikilik bildirən əvəzlik və şəkilçilər var və bunlara "təsniyə" deyilir (müt.).

**“Buna görə də əgər (həqiqi) möminsinizsə, Allahdan qorxun, aranızdakı münasibətləri düzəldin”** *(əl-Ənfal, 1)*.

**“Xeyir ancaq sədəqə verməyi, yaxud yaxşılıq etməyi və ya insanlar arasında sülh yaratmağı əmr edən kimsənin söhbətindədir”** *(ən-Nisa, 114)*.

Bir dəfə Rəsulullah (s) səhabələrinə belə buyurdu: *“Sizə oruc, namaz və sədəqənin məqamından üstün olan bir şey barədə xəbər verimmi?”* Dedilər: *“Əlbəttə, ya Rəsulullah!”* Həzrət buyurdu: *“(İnsanlar arasındakı) münasibətləri düzəltmək. Çünki münasibətlərin (pozulmasının) fəsadı daha kəskindir (dinə daha çox zərərlidir)”*[113] .

Başqa bir kəlamında o Həzrət (s) Əbu Əyyub Ənsariyə buyurdu: *“Səni Allah və Rəsulunun sevdiyi bir sədəqəyə yönəldimmi? İnsanlar bir-biri ilə düşmənçilik etdikləri və aralarındakı münasibətlər pozulduğu zaman onların arasında sülh yarat!”*[114]

Beləliklə, İslam bizə insanlar arasındakı münasibətləri düzəltməyi əmr edir. Bu, kifai vacibdir[115], bir və ya bir neçə nəfərin yerinə yetirməsi ilə hamının boynundan düşər, əks halda isə hamı günahkardır. Münasibətləri düzəltmək müxtəlif səviyyələrdə, ailəvi səviyyədə, ictimai səviyyədə səy göstərmək deməkdir. Mömin şəxsdən yaxşı işlərə əmr etmək və pis işlərdən çəkindirmək tələb olunduğu üçün onun tamaşaçı mövqeyində durması düzgün deyil. Mehribanlıq və vəhdətdən yaxşı, eləcə də düşmənçilik və qarşıdurmadan pis nə ola bilər?! Münaqişə və ixtilaf bütün cəmiyyətə ziyan

---

[113] Məhəmməd ibn İsa ət-Tirmizi, “Sunənut-Tirmizi”, hədis: 2509.
[114] Hafiz əl-Munziri, “Səhihut-tərğib və vət-tərhib”, hədis: 2820.
[115] Hamıya vacib olan, lakin bir və ya bir neçə nəfərin yerinə yetirməsi ilə hamının boynundan düşən, hamı üçün yetərli sayılan vacib əməl (müt.).

vurur. İxtilafdan məqsəd (irqi, milli və s.) fərqliliklərin, fikir və mövqe müxtəlifliliyinin olması deyil, bunların cəmiyyətin təhlükəsizliyini və sabitliyini təhdid edən münaqişə və qarşıdurmaya çevrilməsidir. Odur ki, cəmiyyət islah və barışdırıcılıq vəzifəsini yerinə yetirməyə çalışmalıdır. Bunun üçün isə barışıq və razılığa sövq edən şüurlu bir mədəniyyət yetişdirməyə, islahatçıların səyini birləşdirməyə ehtiyac var. O ki qaldı məclislərdə bəzilərinin cəmiyyətdəki, yaxud da görkəmli şəxsiyyətlər arasındakı bəzi ixtilaflara görə giley-güzar etməsinə, bu, problemin həllinə heç bir töhfə vermir ki, hələ üstəlik bir qədər də çətinləşdirə bilər. Buna görə də hər bir şüurlu insan cəmiyyətdə baş verən ixtilaf və münaqişələrə qarşı öz rolunu oynamağa iddialı olmalıdır.

**İkinci məsuliyyət: Təcavüzü qınamaq və zorakılığa qarşı çıxmaq**

Bir qrup tərəfindən digərinə qarşı zorakılıq edildikdə cəmiyyət üzvlərinin bitərəf qalması düzgün deyil, mütləq təcavüzkar tərəfə qarşı mövqe ortaya qoyulmalıdır. Allah-təala buyurur: **“Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun”**. Bitərəf mövqe tutmaq isə iki məsələyə görə düzgün deyil:

**Birincisi:** Bitərəflik mövqeyi haqsızlığa uğrayan tərəfə bir növ xəyanət hesab olunur. Halbuki məzluma kömək etməyin zəruriliyi ilə bağlı hədislər mövcuddur. Əmirəlmöminin Əli ibn Əbu Talib (ə) buyurmuşdur: *“Ən yaxşı ədalət məzluma kömək etməkdir”*[116] .

[116] Ğurərul-hikəm və durərul-kəlim, səh. 192.

Həmçinin, İmam (ə) oğlanları Həsən və Hüseynə (ə) son vəsiyyətində buyurmuşdur: *“Zalıma düşmən, məzluma isə yardımçı olun!”*[117]

İmam Zeynulabidin (ə) isə “Məkarimul-əxlaq” (əxlaqi gözəlliklər) adlı duasında məzluma kömək etməməyi Allahdan bağışlanma və üzrxahlıq dilənilləcək bir günah olaraq ifadə edir. Belə ki, Həzrət həmin duada buyurur: *“Ey Allahım, mən Səndən qarşımda zülm olunarkən kömək etmədiyim məzluma görə üzr diləyirəm!”*[118]

Odur ki, bir qrup digərinə qarşı təcavüzkarlıq etdikdə cəmiyyətin sadəcə seyr etməsi düzgün deyil.

**İkincisi:** Zülm qarşısında susulduqda o, yayılır və çoxalır. Ona görə də təcavüzkar tərəfə qarşı mövqe ortaya qoyulmalıdır. Fikir fərqliliyi qanunauyğundur, lakin həddi aşmaq haqsızlıqdır və bunun qarşısında susmaq düzgün deyil.

**Mənəvi təcavüzlər**

Təcavüzün maddi və ya mənəvi olması arasında heç bir fərq yoxdur, təcavüzü rədd etmək zərurəti hər iki tərəfi əhatə edir. Bir tərəfin digər tərəfə etdiyi mənəvi təcavüzlər qarşısında bir çox insanlar susur və bu, şəri baxımdan düzgün deyil. Söhbət cəmiyyətdəki hər hansı bir qrup və ya şəxsiyyətdən gedirsə, o söhbəti dinləyən şəxs özü vəziyyətə diaqnoz qoymalıdır (mövqeyini müəyyən etməlidir). Söhbət cəmiyyətdəki müxtəlif tərəflər və ya şəxsiyyətlər arasında fikir ayrılığı məqamlarının və baxış nöqtələrinin aydınlaşdırılması kontekstindədirsə, bu, araşdırma və elmi

---

[117] Nəhcül-bəlağə, İbn Mülcəmin zərbəsindən sonra Həzrətin Həsən və Hüseynə (ə) vəsiyyətindən.
[118] Səhifətus-Səccadiyyə, dua: 38.

müzakirədir, məqbul mədəni konfliktdir. Amma əgər söhbətdə digər qrupa qarşı təcavüz və haqsızlıq, yaxud onun dini ilə bağlı şəkk-şübhə, ya da namusuna təcavüz varsa, burada susmaq düzgün deyil, əksinə, rədd və etiraz olmalıdır. Möminlər dil və qələm (danışmaq və yazmaq) kimi müxtəlif vasitə və üsullardan istifadə edərək istənilən təcavüzə qarşı açıq mövqe tutmalıdırlar. Çünki təcavüzkar tərəf cəmiyyətin onun əməllərini rədd etdiyini görsə, ən az arzu edilən nəticə bu cür əməllərə son qoyulması olar. Təəssüf ki, bəzi tərəflər öz ətrafında olanların bir hissəsindən buna təşviq görür və elə düşünür ki, bu, cəmiyətin fikrini ifadə edir. Cəmiyyətin əksəriyyəti narazı ola bilər, amma bu, səssiz əksəriyyət olur. Bu səbəbdən də səssiz əksəriyyət öz susqunluğundan çıxmalı, digər tərəflərə qarşı zülm və təcavüzü pisləyib rədd etməlidir. Əgər bir qrup başqa qruplara qarşı zülm və təcavüzü rədd etməsə, o zaman, belə hallarda olduğu kimi, özünün təcavüz və zülmə məruz qalmaq növbəsini gözləsin.

Zülm və təcavüzü pisləmək və rədd etmək üçün ictimai ab-hava yaradılmalıdır ki, bütövlükdə cəmiyyətdə bu bəlaya yoluxmağa qarşı immunitet yaransın.

Yuxarıdakı mübarək ayələr möminlərin qardaşlığını vurğulamaqla yekunlaşır: **“Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, (əvvəlki günahlarınız bağışlanıb) rəhm olunasınız!”** Möminlər deyildikdə, Allah-təalaya, Onun Rəsuluna və axirət gününə iman gətirənlərin hamısı nəzərdə tutulur. Onlar qardaşdırlar, ona görə də barışdırma yanaşması onların hamısının arasında üstünlük təşkil etməlidir.

## Böhranlarla mübarizə və alovları söndürmək

İctimai meyllər adətən uzanma xarakteri alır və öz ətraflarından ən uzaq olan çevrələrə belə zərər vermək təhdidi yaradır. Buna görə də İslam bizi müxtəlif fərdi və ictimai münaqişələrə qarşı ən yüksək dərəcədə məsuliyyət daşımağa çağırır və onların qarşısında tamaşaçı mövqeyində dayanmağı qəti şəkildə rədd edir. Bu da ondan irəli gəlir ki, cəmiyyətdə özünə yer edən hər hansı bir problem və ya münaqişə öz çevrəsində qalmır, bütün cəmiyyətə mənfi təsir göstərir və onun zərəri təsəvvür ediləndən çox-çox uzaqlara yayılır. Yetkin cəmiyyət problemləri alovlanan kimi onları nəzarətə götürüb həll etməyə başlayan cəmiyyətdir. Başlanğıcda kiçik və əhəmiyyətsiz görünə bilən problemlər qarşısında sükut edildiyi zaman bu problemlər, əvvəldən onları həll etməyə çalışan tapılmadığı təqdirdə, tezliklə böyüyüb genişlənir. Eynilə yanğın kimi ki, hər hansı bir yerdə alovlanmağa başlayanda qonşu ərazilərə keçməməsi üçün hamı onu dərhal söndürməyə tələsməlidir. Çünki ona etinasız yanaşmağın bədəli ağır olur.

Beləliklə, hər bir cəmiyyətdə ictimai yanğınsöndürmə qrupları adlandıra biləcəyimiz (alovlanan problemləri həll edən) qüvvələr olmalıdır.

**Ər-arvad arasında barışıq yaratmaq**

Qurani-kərim ər-arvad arasındakı ixtilaf məsələsinə, aralarındakı mübahisəyə son qoymaq üçün ictimai məsuliyyətin ortaya çıxması lazım olan kiçik bir nümunə kimi yanaşmışdır. Çünki şəriət cəmiyyətə ailə münaqişələrinin həllində rol oynamağı vacib edir. Allah-təala bu xüsusda buyurur:

**“(Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına)**

**göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların arasında uyğunluq yaradar (onların köməyi olar). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər işdən) xəbərdardır!"** *(ən-Nisa, 35)*

Bir qrup alim bu qənaətdədir ki, mübarək ayə vaciblik mahiyyəti daşıyır, yəni cəmiyyətə ər-arvad arasındakı ixtilafı həll etmək üçün müdaxilə etməyi və ona qarşı etinasızlıq mövqeyini rədd etməyi vacib edir. Bu, sözügedən ixtilafın yarada biləcəyi mənfi təsirlərlə bağlıdır. Belə ki, ərlə arvad cəmiyyətin bir üzvüdür və aralarındakı ixtilaf onların psixikasına, davranışına və məhsuldarlığına mənfi təsir göstərir. Hətta bu, övladların tərbiyəsinə də təsir göstərə bilər. Bundan əlavə, ixtilafın ər-arvadın ailələrinə də sirayət etmə ehtimalı var. Hələ mən ailənin dağılması və bunun ər-arvadın ümumi əxlaqi davranışlarına əks olunması nəticəsində cəmiyyətin əxlaqi təhlükəsizliyinə göstərə biləcəyi mənfi təsirləri demirəm. Ona görə də şəriət cəmiyyətin evlilik problemlərinə səssiz qalmasını və onları seyr etməsini qəbul etmir. Həll yolu isə mübarək ayədə Allah-təalanın buyurduğu kimidir: **"Kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib (onların yanına) göndərin. Əgər onlar (bu iki vasitəçi ər-arvadı) barışdırmaq istəsələr, Allah da onların arasında uyğunluq yaradar (onların köməyi olar)"**. Bəzi müfəssirlər ayədəki "**göndərin**" əmrinin şəriət hakimindən asılı olduğunu söylədiyi halda digər təfsirçilər bunu cəmiyyətin şüurlu üzvləri üçün kifayi-vacib hökmü hesab etmişlər. Bir başqaları isə bunun məsuliyyətinin ər-arvadın ailələrinin üzərinə düşdüyünü demişlər. Ayə açıq şəkildə göstərir ki, ər-arvadın və ya vasitəçilərin nəzərdə tutulmasından asılı olmayaraq, barışdırmanı həyata keçirmək məsələsi müvafiq tərəflərin iradəsinə bağlı olaraq qalır.

**Barışıq istəyi**

Daha geniş miqyasda deyə bilərik ki, islami ortamımızı münaqişə ortamına, ictimai-siyasi problemlərin səhnəsinə çevirən barışmazlıq vəziyyətinin davam etməsi və mübahisə edən tərəflərdə barışıq istəyinin olmamasıdır. Sabitlik və əmin-amanlıq neməti içində yaşayan aktiv cəmiyyətlər, ictimai sülhü gücləndirən qurumların olması ilə yanaşı, əgər ilk növbədə ictimai sülhün vacibliyinə inanmasaydılar və ikinci növbədə qanunun aliliyini təmin etməsəydilər, buna nail ola bilməzdilər. Bu, münaqişə və qarışıqlıq meydanına çevrilmiş müsəlman cəmiyyətlərimizdəki vəziyyətlə ziddiyyət təşkil edir. Bu ümmət, bütün cəmiyyətin üzərinə problemləri nəzarətə götürüb onları həll etmək məsuliyyətini qoyan Qurani-kərimə mənsub olmasına rəğmən, müxtəlif problemlərin tapdağı altında əzilməyən ölkə demək olar ki, yoxdur. Problemləri nəzarətə götürüb onları həll etmək sülh və barışıq istəyinin olmasından asılıdır. Allah-təalanın buyurduğu kimi: **“Əgər onlar (vasitəçilər) barışdırmaq (və ya ər-arvad barışıq) istəsələr”**. Lakin yetkinliyin olmaması və şüurun yoxluğu çox vaxt təkəbbürə və müxtəlif münaqişə tərəflərinin bir-birinə qarşı barışmazlığına gətirib çıxarır ki, bunun da nəticəsində hər hansı bir barışıq istəyi qalmır.

Barışıq istəyinə nail olmaq və və ictimai problemləri həll etmək üçün bir sıra şərtlərin mövcud olması gərəkdir. Bu şərtlərin başında ağıla müraciət etmək və hər addımda zərər və qazancı hesablamaq gəlir. Ağlını işlədən istənilən bir ağıllı insan münaqişə və ixtilafın heç bir tərəfə xeyir gətirməyəcəyini görə bilər.

Münaqişələri qızışdıran amillərdən biri də bəzi tərəflərin irrasional düşüncəyə meyl etməsi və hər bir tərəfin münaqişəni rəqibləri və əleyhdarları

hesabına öz xeyrinə həll etməyə çalışmasıdır. Qlobal arena münaqişələrin idarə olunması sahəsində böyük müdaxilənin şahidi olur. Belə ki, hər hansı bir yerdə lokal münaqişələr artıq xarici müdaxilədən kənar deyil, əksinə, istənilən bir bölgədəki münaqişə onun qızışdırılmasına, dərinləşdirilməsinə və istismar edilməsinə "töhfə" verən digər iradələrin müdaxiləsinə məruz qalır. Allah-təala buyurur: **"Şübhəsiz ki, Şeytan aranıza ədavət və kin salmaq istər"** *(əl-Maidə, 91)*. Bu illər ərzində ərəb və İslam regionumuzda tüğyan edən münaqişələr nəticəsində fantastik gəlirlər əldə etmiş müharibə tacirləri və öldürücü silah istehsalçıları da bu şeytanlardandır. Silah sənayesi karteli kimi tanınanlar müharibə və münaqişə vəziyyətlərində daha çox xoşbəxt olurlar. Bu adamlar kimsənin onların öldürücü ticarətlərinə son qoymağa çalışmasına imkan verməzlər. Bunun bəlkə də ən bariz nümunəsi ABŞ administrasiyası ilə Konqresdə güclü təsirə malik olan ABŞ silah sənayesi karteli arasındakı münaqişədir. ABŞ prezidenti Obama Amerikada silahdan sui-istifadə hallarının kəskinləşməsi səbəbindən fərdi silahların əldə edilməsinin məhdudlaşdırılması şüarını qaldırmışdı. Lakin bu, silah istehsal edən kartelin təsiri altındakı Konqresin maneəsi ilə üzləşdi. İstənilən ağıllı təfəkkür təbii olaraq belə bir nəticəyə gətirib çıxaracaq ki, İslami arenada ixtilafların kəskinləşməsindən birinci dərəcəli faydalananlar ümmətin düşmənləridir.

İkinci şərt isə münaqişə tərəflərinin psixoloji tarazlığıdır. Belə ki, münaqişə edənlər adətən psixoloji tarazlıqlarını itirir ki, bu da psixoloji problemlərin hakim olmasına, qisas sevgisi hallarına və qarşı tərəfdən intiqam almaq istəyinə yol açır. Belə olduqda isə artıq ağıllı düşünmə olmur, münaqişə tərəfləri emosiyaların və duyğuların təsiri altına düşür ki, bu da hər hansı bir barışıq istəyinin qalmaması ilə nəticələnir.

Sonuncu şərt barışıq və sülhün bərqərar edilməsi üçün əlverişli mühitin olmasıdır. Şüurlu xalqlarda barışığa, sülhə nail olmağa və sabitlik istəyinə sövq edən ictimai mühit və mədəni zəmin var. Bunun əksi isə bizim müsəlman cəmiyyətlərindədir. Bizdə bəzən dini adlar altında, bəzən də tarixi ixtilafların davamı olaraq münaqişələrə sövq edən müharibə mühiti var.

**Müharibə vəziyyətindən çıxmaq**

İslam dinimiz bizim hamımızdan sülh, əmin-amanlıq və sabitlik tərəfdarı olmağı tələb edir. Bu isə fərqli tərəflər qarşılıqlı güzəştlərə getməyə hazır olmayınca baş verməyəcəkdir. Əgər bu istək olarsa və ardınca problemlərin yaranmasına səbəb olan kökləri aradan qaldırmağa yönələrsək, cəmiyyətlərimizdə sülh və sabitlik vəziyyətinə nail ola bilərik. Amma əksinə, tərəflərdən hər biri digərini özünə tabe etməkdə israrlı olarsa, bu, sabitliyə nail olmaq vəzifəsini müşkül bir məsələyə çevirər.

Cəmiyyətlərimizdə baş verən münaqişələr böyük ağrılı nəticələr doğurdu. İnkişaf dayandı, sərvətlər tükəndi, canlar bir-birinə yükləndi, müxtəlif adlar altında cəbhələr və səngərlər yaradıldı, İslam ölkələri öz əmin-amanlıq və sabitliyini itirdi, küçələrində gecə-gündüz qan tökülməyə başladı. Bu dəhşətli vəziyyət nə vaxta qədər davam edəcək? Bəs ümmətin ağıllı insanları hara getdilər? Bəs niyə sülh və barışıq təşəbbüsləri təqdim etməli olan qurumlar yoxa çıxıb? Məgər bu barışdırıcı səy, ümmətin onun roluna və təşəbbüsünə bu gün daha çox möhtac olduğu görünən İslam Əməkdaşlıq Təşkilatının təşəbbüslərindən asılı deyilmi? İslam Əməkdaşlıq Təşkilatı İslam ölkələri, xalqlar və hökumətlər, məzhəblər və məzhəb davamçıları arasındakı alovları söndürmək üçün hərəkətə keçməlidir. Din alimləri, mütəfəkkirlər və ağıllı insanlar da bu istiqamətdə hərəkət etməlidirlər. İslahatçıların hər zaman çətin

vəziyyətdə qalmalarını nəzərə aldıqda bu vəzifənin çətin olacağı şübhəsizdir. Belə ki, hər bir tərəf öz imkanları ilə onlara təzyiq edir ki, onun cəbhəsində, onun tərəfində olsunlar. Lakin bu təzyiq və çətinlik ümmətin mənafeyi və onun xalqlarının gələcəyi üçün can yandıran ağıllı insanların boynundan bu vəzifəni götürmür.

## Quran dialoqu

**Professor Məhəmməd Şəbib:** Möhtərəm Şeyx Həsən Səffar canabları, yarandığı gündən tərəfinizdən diqqət, dəstək və qayğı görmüş bir mərkəzə xoş gəlmisiniz. Biz Qurani-Kərim Elmləri Mərkəzi olaraq sizin bu foruma təşrif buyurmağınıza görə məmnunluq hissi duyuruq. Mərkəzimiz böyümə və inteqrasiyanın yeni mərhələsindədir ki, bu da Qurani-kərim elmləri üzrə diplomun verilməsi mərhələsidir. Ümid edirik ki, bu görüş, inşallah, fürsət düşdükcə və dəyərli vaxtınızı sizin məsləhətlərinizdən, qayğınızdan faydalanmaq üçün bizə ayırdıqca daha geniş tərkibdə görüşlər üçün bir başlanğıc olacaq.

- **Başlanğıcda Şeyx həzrətləri, bir çox İslam ölkələrinə dəfələrlə səfərləriniz və həm ümumi İslami fəaliyyətə, həm də ictimai fəaliyyətə olan ehtimamınız çərçivəsində İslam dünyasının Qurani-kərimə diqqətini necə görürsünüz? Bu diqqət tələb olunan səviyyəyə çatırmı? Bəs Qurani-kərimi tərk edənlərin faizi nə qədərdir? Bu azalır, yoxsa mənfi və ya müsbət olaraq artır?**

**Şeyx Səffar:** Əvvəlcə bu gözəl Quran proqramında iştirakınızdan böyük məmnuniyyət və dərin xoşbəxtlik hissi duyduğumu bildirmək istəyirəm. Həmçinin, Qurani-Kərim Elmləri Mərkəzində olan dəyərli qardaşlara

çəkdikləri zəhmətə və Allahın əzəmətli kitabına göstərdikləri böyük xidmətlərə görə, eləcə də Qurana xidmətlərinə görə kollektivə təşəkkürümü bildirirəm. Həqiqətən, onlar hər cür təşəkkür və təqdirə layiqdirlər. Allah-taaladan onlar üçün böyük mükafat və ümidləri, arzuları onların əlləri ilə gerçəkləşdirməsini diləyirəm. İslam dünyasının Qurani-kərimə olan diqqəti ilə bağlı verilən suala gəlincə, İslam dünyasının müxtəlif yerlərində Qurani-kərimə bir çox sahələrdə və bir sıra layihələr çərçivəsində diqqətin olduğunu görürük. Lakin biz İslam dünyasının reallığının ümumi mənzərəsini çəkmək istəsək, görərik ki, bu dövrdə Qurani-kərimə İslamın əvvəlki dövrlərinin heç birində olmamış böyük bir təhqir yönəldilib. Bu qloballaşma dövründə, ağılların və zehinlərin açıldığı, bəşəriyyətin Qurani-kərimdə olan mənəvi bulaqlara susuz olduğu bir dövrdə, bəli, məhz belə bir dövrdə ümmət dünya ictimai rəyi qarşısında Quranın və İslamın təhrif olunmuş görüntüsünü yaradan cərəyanlara mübtəla olmuşdur. Keçmiş tarixdə Qurana və İslama qarşı mədəni və media səviyyəsində bu dövrdəki səviyyədə (dil uzadılmağa) cəsarət edilməyib. Qərb cəmiyyətlərində İslamı təhqir etmək üçün yarışan siyasətçilərə və ziyalılara rast gələ bilərsiniz. Quranı, İslamı və Rəsulullahın (s) həyat tarixçəsini təhrif etməyə çalışan o yazıçının, mürtəd Salman Rüşdinin mükafatlandırılması xəbərini bir neçə gün əvvəl bəlkə də izlədiniz. O, Britaniyada ən yüksək səviyyələrdə, Britaniya Kraliçası tərəfindən medalla təltif edilməklə mükafatlandırıldı. Aydın məsələdir ki, bu mükafat onun İslama qarşı təhqiredici roluna görə verilən mükafatdır. Bundan əvvəl Danimarkada Allah Rəsulunu (s) təhqir edən karikaturaların nəşri ilə baş verənlər, Amerikada çıxan yazılar və müxtəlif vasitələrlə medianın təhrif edilməsi, eləcə də hər dəfə beynəlxalq ictimaiyyətin dünyanın müxtəlif yerlərində arxasında İslama mənsub olan və Quranı müqəddəs hesab edən

insanların olduğunu bildiyi terror əməllərinin baş verdiyini eşitməsi böyük təhrifdir. Hesab edirəm ki, bu gün İslam dünyasının aparmalı olduğu və müsəlmanların bu dövrdə qatılmalı olduqları böyük savaş Quranı xilas etmək və İslamı onu ələ keçirənlərin əlindən qurtarmaq uğrunda olmalıdır. İslam bu dövrdə ekstremizm və terror cərəyanları tərəfindən ələ keçirilib. İslam ələ keçirilib və onun dünya ictimai rəyi qarşısında təhrif olunmuş mənzərəsi çəkilib. Bəziləri deyə bilər ki, onlar müstəmləkəçi qüvvələrin böyük hiylələridir. Bu doğru ola bilər, lakin müsəlmanlar arasında bu cərəyanların böyüməsinə kömək edən münbit zəmin olduğunu da gözardı edə bilmərik. Məhz buna görə də biz hesab edirik ki, İslam aləminin bu dövrdə dünya ictimai rəyi qarşısında təhrif olunmuş İslam imicini və Quran müqəddəsliyini qaytarmaq və bunun qarşısını almaq üçün böyük səylərə ehtiyacı var. Müsəlman cəmiyyətlərimizdə Quranla bağlı bəzi fəaliyyətlərin olmasına görə özümüzdən razı qalmağımız əsla düzgün deyil. Biz İslam və Quranın dünya qarşısındakı nüfuzu ilə bağlı yaranmış bu zəifliyi aradan qaldıra bilmərik. Bunun üçün ancaq mümkün qədər çox sayda İslam alimlərinin terrorizmə, geriliyə və tiranlığa qarşı çıxış etdiyi geniş bir kampaniya başlatmalıyıq ki, Qərb dünyası İslam və müsəlmanların həqiqi simasını görsün. Bu inadkar ekstremist terror meyllərinə görə imicimiz dünya qarşısında biabır olub. Beləliklə, İslam dünyasının müxtəlif yerlərində mövcud olan, Quranın çapına ayrılan diqqətdən tutmuş onu əzbərləmək, oxumaq və tilavət etmək marağına qədər Quran fəaliyyətlərini təqdir edirik. Lakin bütün bunlar rəqabət səviyyəsində deyil, İslam və Quran üçün çəkilən təhrif edilmiş mənzərəni dəyişdirə bilməz.

- **Professor Məhəmməd Şəbib: Möhtərəm Şeyx, əhli-beyt ardıcılları arasında Qurana diqqətin səiyyəsini necə qiymətləndirirsiniz?**

**Şeyx Səffar:** Etiraf etməliyik ki, bizim elmi hövzələrimiz (dini mədrəsələrimiz) və cəmiyyətlərimiz səviyyəsində böyük nöqsanlar və çatışmazlıqlar var. Bu, kiminsə elmi hövzələrə yönəlmiş ittihamı deyil, həmin nöqsanı görüb onu aradan qaldırmağa və həll etməyə çağıran elmi hövzələrimizdəki böyük alimlərin etirafıdır. Bizim elmi hövzələrimizdə Qurani-kərim səqəleynə (iki dəyərli əmanətə), yəni Allahın kitabına və Rəsulullahın (s) əhli-beytinə mənsub olan cəmiyyətdə tutmalı olduğu yeri tutmamışdır. Rəsulullahın (s) buyurduğu kimi, bu iki əmanətdən yapışmaq lazımdır: *"Əgər bu ikisindən yapışsanız, heç vaxt yolunuzu azmazsınız"*. Əhli-beyt (ə) isə bizə əmr edərdi ki, onların hədislərini və onlar haqqında nəql olunanları Qurani-kərimlə tutuşduraq. Hesab edirəm ki, şiə irsimizə sızmış bəzi yanlışlıqlar və həddi aşmaların əsas səbəbi, ümumən deyil, əksəriyyət etibarilə, Quran mədəniyyətinin zəifliyi və Quranın əsas mehvər olmamasıdır. Əgər biz hədislərdə, rəvayətlərdə, adət-ənənələrdə, irsimizdə olan hər şeyi Quranla tutuşdursaydıq, bir çox cılızla samballını, doğru ilə yanlışı və qəbul edilməli olanla olmayanı ayırd edə bilərdik. İmamlarımız (ə) onlar haqqında çoxlu yalanların olması, kitablarına onlara aid olmayan hədislərin daxil edilməsi ilə bağlı bizə xəbərdarlıq etmişlər. Hişam ibn Həkəm deyir ki, həzrət Əbu Abdullah (ə)-ın (İmam Sadiqin) belə buyurduğunu eşitdim: *"Bizim yalnız Qurana və sünnəyə uyğun gələn, yaxud da (doğruluğuna) əvvəlki hədislərimizdən dəlil tapdığınız hədislərimizi qəbul edin. Allahın lənətinə gəlmiş Müğeyrə ibn Səid atamın səhabələrinin kitablarına atamın söyləmədiyi hədisləri gizlicə daxil etmişdir. Allahdan qorxun, bizim*

*adımızdan deyilmiş uca Rəbbimizin kəlamına və peyğəmbərimiz Məhəmmədin (s) sünnəsinə müxalif olan hədisləri qəbul etməyin!”*[119]

Həqiqətən də, bizim elmi-nəzəri müstəvidə tam etimad edə biləcəyimiz səhih (hədis) kitablarımız yoxdur. Bəlkə də bizim sünni qardaşlarımızın məzhəbi ilə aramızda olan əsas fərqlərdən biri odur ki, onların “Səhihul-Buxari” və “Səhih-Müslim” kimi səhih hesab etdikləri bəzi kitabları var, amma bizim alimlərimiz heç bir kitabı və hədis toplusunu toxunulmaz və bütünlükdə səhih hesab etməmişlər. Əvvəlki alimlərimizdən bəziləri arasında dörd kitabda: “əl-Kafi, “ət-Təhzib”, “əl-İstibsar” və “Mən la yəhzuruhul-fəqih” kitablarında qeyd olunanların səhih olduğuna dair bəzi fikirlər var. Lakin təhqiqatçı alimlərimizin rəyi, habelə fəqihlərimiz arasında üstünlük təşkil edən rəy budur ki, bu hədis toplularında olan hər bir hədis rəvayət və dirayət elminin (hədisin mətnini və sənədini öyrənən elmin) qaydalarına tabe olmalıdır. Buna əsaslanaraq bu rəvayətləri və hədisləri elmi göstərişlərə uyğun şəkildə Allahın kitabı ilə tutuşduraraq seçməliyik. Bu, fiqh sahəsində tətbiq edilir. Fiqh araşdırmalarında böyük səylər göstərən, hər bir hökmdə əhkam ayələrini, rəvayətləri və fəqihlərin rəylərini araşdıran dəqiq fəqihlərin olduğunu görürük. Beləcə, bizdə hər bir fiqhi məsələ ətrafında fiqh yolundakı müşahidələrə əsaslanan elmi biliklər cəmləşib. Amma ideoloji və tarixi sahədə böyük problem yaşayırıq. Belə ki, etiqad məsələlərinin və tarixi hadisələrin təfərrüatlarını araşdırmaq üçün kifayət qədər səy göstərilməmiş, sözügedən sahə toplanmış bu mirasa və kənar rəylərə buraxılmışdır. Davranış və əxlaq sahəsində də belədir. Sünnə dəlillərindəki dözümlülük qaydasına əsasən müstəhəblər və sünnələr kimi ifadə olunan bir çox əxlaqi məsələlərin

---

[119] Biharul-ənvar, c. 2, səh. 250.

böyük bir hissəsi tədqiq edilməmiş və bu sahədə Quran ayələrinin əsas mehvər (əsas meyar) götürülməsinə nail olunmamışdır. Buna görə də bəzən zəif rəvayətlər və hədislər əsas mehvər olaraq Quran ayələrindən öndə tutulur. Əhli-beyt imamlarımız (ə) isə bunu rədd edirlər. Onlar, məsələn, vəhdətin, ədalətin və azadlığın dəyərini daha üstün tuturlar. Bunlar Quranın bir çox ikinci dərəcəli məsələlərdən üstün tutaraq bəyan etdiyi dəyərlərdir.

- **Professor Məhəmməd Şəbib: Konkret olaraq, Qətif bölgəsində bir çox Quran mərkəzləri var ki, illər əvvəl siz onları birləşdirməyin, adları arasında birlik yaratmağın, tədris proqramlarını çap etmək və birgə müsabiqələr keçirməyin vacibliyi ilə bağlı təklif vermişdiniz. Bu forumda bu mərkəzlə bağlı hansı tövsiyələriniz var?**

**Şeyx Səffar:** Siz bu təklifə toxunduğunuz üçün mən aydınlıq gətirmək istərdim. Bizim Qətif bölgəsindəki şəhər və kəndlərimizdə müxtəlif fəaliyyətlərimiz var və bu gözəl haldır. Bizim yeni mərhələyə ehtiyacımız var ki, bölgə səviyyəsində hər sahədə böyük mərkəzlərimiz və bu mərkəzlərin müxtəlif yerlərdə filialları olsun. Məsələn, Quran fəaliyyəti ilə bağlı hər bir şəhər və kənddə Quran mərkəzlərinin olması çox gözəldir. Lakin bölgə səviyyəsində mərkəzi bir qurum olmalıdır ki, bu Quran mərkəzləri əsasən onun filialları kimi fəaliyyət göstərsin. Qətif bölgəsi səviyyəsindəki bu Quran mərkəzinin daxilində milli və beynəlxalq səviyyələrdə qarşılıqlı əlaqə və metodlar üzrə əməkdaşlıq olsun. Hər bir kəndin digər kənddən fərqli xüsusi metodunun və ya xüsusi proqramının olmasını düzgün hesab etmirəm. Biz bu əyaləti həm bir bölgə, həm də bir sosial toplum kimi düşünməli və bu cür sahələr üçün bizdə mərkəzi qurumlar olmalıdır. Krallıq (Səudiyyə Ərəbistanı) səviyyəsində nəhəng Quran institutları var ki, həm dövlət, həm də dünya

onlarla qarşılıqlı əlaqə qurur. Biz hər kənddə kiçik qurumlar səviyyəsində əməkdaşlıq edə bilmərik. Bu, müzakirə edilə biləcək bir təklifdir. Bizə ixtisas və təcrübələrin toplandığı, milli və qlobal səviyyədə əməkdaşlığın olduğu mərkəzi qurum lazımdır. Məsələn, bizim müxtəlif bacarıq və qabiliyyətlərin paylaşıldığı bir Quran internet saytına ehtiyacımız var ki, o, onlarla, bəlkə də yüzlərlə insanın işlədiyi və milyonlarla ziyarətçisi olan nəhəng "İslam onlayn" və "İslam bu gün" saytları kimi qlobal bir sayt olsun. Bizim iki-üç nəfərin işlədiyi, yüz-iki yüz nəfərin daxil olduğu kənd və rayonlarımız səviyyəsində kiçik saytlarla kifayətlənməyimiz düzgün deyil. Bu, bizim geridə qoymalı olduğumuz bir səviyyədir, bizə hər bir bölgəni əhatə edən və bütün səylərin səfərbər olduğu bir Quran internet saytı lazımdır. Eləcə də digər sahələrdə Quran araşdırmalarımızla bağlı yüksək səviyyəni ifadə edən mərkəzi Quran jurnalına ehtiyacımız var. Bunun yaxşı bir ideya olduğu bilindiyi təqdirdə ona inanmalıyıq ki, psixoloji cəhətdən çevik olub hədəfə və əsas məqsədə doğru gedək. Kəndimin və camaatımın qələbəsi məsələsi bu bölgəni lazımi şəkildə təqdim etməyə və orada bilik və təcrübələr sərf etməyə çalışdığımız həddə deyil.

- **Professor Məhəmməd Şəbib: Dialoqu yekunlaşdırmazdan əvvəl, möhtərəm Şeyx, şiə və sünnilərdə çoxlu təfsirlər mövcuddur, siz şəxsi müstəvidə müqəddəs kitabın (Quranın) ayələrini araşdırarkən adətən bu təfsirlərdən hansına müraciət edirsiniz?**

**Şeyx Səffar:** Şəxsən mən istənilən bir ayədə bir qrup təfsirlərə müraciət edirəm. Bəzən mübarək ayənin daha dərinliyinə varmağa ehtiyac duyduğum zaman daha böyük bir təfsir toplusuna müraciət edirəm. Şiə müstəvisində mən Seyyid Təbatəbainin "əl-Mizan", Şeyx Məkarim Şirazinin "əl-Əmsəl"

(Nümunə), Seyyid Müdərrisinin “Min hudəl-Quran” (Quran hidayətindən) və Seyyid Fəzlullahın “Min vəhyil-Quran” (Quran vəhyindən) təfsirlərinə müraciət edirəm. Amma daha çox araşdırmaya ehtiyac duyduğum ayələr olduqda Seyyid Səbzvarinin təfsiri, Doktor Sadiqinin təfsiri, “Məcməul-bəyan” (Bəyanlar toplusu) təfsiri və Şeyx Məhəmməd Cavad Muğniyənin təfsiri kimi daha geniş təfsirlər toplusuna müraciət edirəm. Sünni qardaşlarımızın təfsirlərinə gəlincə, mən adətən İbn Aşurun “ət-Təhrir vət-tənvir” (Azadlıq və nurlandırma) təfsirinə, Səudiyyədə sələfi nöqteyi-nəzərini ifadə etdiyi üçün Şeyx Səədinin təfsirinə və Seyyid Qütbün “Fi zilalil-Quran” (Quranın kölgəsində) təfsirinə müraciət edirəm. Ayəni daha çox araşdırmağa ehtiyac duyduqda isə Fəxri Raziyə, Təbəriyə, Alusiyə və digər təfsirlərə müraciət edirəm.

## İstifadə olunmuş mənbələr


- Qurani-kərim.
- İbn Əbülhədid (əsl adı: İzzəddin Əbdülhəmid), “Nəhcül-bəlağənin şərhi”.
- İbn Səəd (əsl adı: Məhəmməd ibn Səəd ibn Mənii əl-Haşimi), “ət-Təbəqatul-kubra” , təhqiqatçı: Məhəmməd Əbdülqadir Ata.
- İbn Şübə əl-Hərrani (əsl adı: Həsən ibn Əli), “Tuhəful-uqul ən alir-Rəsul”.
- İbn Əbdülbirr (əsl adı: Yusuf ibn Abdullah ibn Məhəmməd), “əl-İstiiab fi mərifətil-əshab”, təhqiqatçı: Əli Məhəmməd əl-Bəcavi.

- İbn Kəsir (əsl adı: İsmail əl-Qərəşi), "Təfsirul-Quranil-əzim".
- İbn Hişam (əsl adı: Əbdülməlik), "əs-Siirətun-nəbəviyyə".
- Əlbani (əsl adı: Məhəmməd Nasiruddin), "Silsilətul-əhadisus-səhihə".
- Əlbani, "Səhihul-camiis-səğir və ziyadətihi".
- Alusi (əsl adı: Seyyid Məhəmməd Şukri), "Ruhul-məani fi təfsiril-Quran".
- Buxari (Məhəmməd ibn İsmail), "Səhihul-Buxari".
- Bürucirdi (əsl adı: Ağa Hüseyn), "Camiu əhadisiş-şiə".
- Bağdadi (əsl adı: Əbdülqadir ibn Ömər), "Xəzzanətul-ədəb və lubbu libabi lisanil-ərəb".
- Bəğəvi (əsl adı: Məhəmməd ibn Hüseyn ibn Məsud), "Məalimut-tənzil fi təfsiril-Quran" (Təfsir Bəğəvi).
- Tirmizi (əsl adı: Məhəmməd ibn İsa), "Sunənut-Tirmizi".
- Təmimi (əsl adı: Əbdülvahid əl-Amidi), "Ğurərul-hikəm və durərul-kəlim".
- Hafiz əl-Munziri, "Səhihut-tərğib vət-tərhib", təhqiqatçı: Məhəmməd Nasiruddin Əlbani.
- Hürrül-Amuli (əsl adı: Məhəmməd ibn Həsən), "Vəsailuş-şiə".
- Xalid Məhəmməd, "Ricalun haulər-Rəsul".
- Seyyid Məhəmməd Ruhani, "Minhacus-salihin".
- Vəhbə Züheyli, "əl-Fiqhul-İslami və ədillətuh".
- Zeynulabidin (əsl adı: Əli ibn Hüseyn (ə)), "əs-Səhifətus-Səccadiyyə".
- Nasir Məkarim Şirazi, "əl-Əmsəl fi təfsiri kitabillahil-munzəl".

- Səduq (əsl adı: Məhəmməd ibn Əli ibn Babuveyh), “əl-Xisal”, düzəliş və əlavə edən: Əli Əkbər əl-Ğifari.
- Səduq, “Mən la yəhzuruhul-fəqih”, təhqiqatçı: Əli Əkbər əl-Ğifari.
- Məhəmməd ibn Həsən əs-Səffar, “Bəsairud-dərəcat fi fəzaili ali Muhəmməd”.
- Təbatəbai (əsl adı: Seyyid Məhəmməd Hüseyn), “əl-Mizan fi təfsiril- Quran”.
- Təbərani (əsl adı: Süleyman ibn Əhməd), “Kitabul-əvail”.
- Təbərsi (əsl adı: Əhməd ibn Əli ibn Əbu Talib), “əl-İhticac”.
- Təbərsi (əsl adı: Fəzl ibn Həsən), “Məcməul-bəyan fi təfsiril-Quran”.
- Tusi (əsl adı: Məhəmməd ibn Həsən), “əl-Əmali”.
- Tusi, “Təhzibul-əhkam”.
- Əbdülhadi Fəzli, “Durusun fi üsuli fiqhil-imamiyyə”.
- Qurtubi (əsl adı: Əbu Abdullah Məhəmməd), “Təfsirul-Qurtubi”.
- Kuleyni (əsl adı: Məhəmməd ibn Yaqub), “əl-Kafi”.
- Leysi (əsl adı: Əli ibn Məhəmməd), “Uyunul-hikəm vəl-məvaiz”.
- Muttəqi (əsl adı: Əlauddin əli), “Kənzul-ummal”.
- Məclisi (əsl adı: Məhəmməd Baqir), “Biharul-ənvar”.
- Mürtəza Mütəhhəri, “Muhazirat fiddin vəl-icma”.
- Mufid (əsl adı: Məhəmməd ibn Məhəmməd ibn Nöman), “əl-İxtisas”, təhqiqatçı: Əli Əkbər əl-Ğifari.
- Mufid, “əl-İrşadu fi mərifəti hucəcullahi ələl-ibad”, təhqiqatçı: “Muəssəsətu alil-beyt litəhqiqit-turas”.
- Musəvi (əsl adı: Məhəmməd Rəzi ibn Həsən), “Nəhcül-bəlağə”, təhqiqatçı: Doktor Sübhi Saleh.

- Nuri (əsl adı: Hüseyn ibn Məhəmməd Təqi ibn Əli), "Mustədrəkul-vəsail".
- Vahidi (əsl adı: Əli ibn Əhməd), "Əsbabu nuzulil-Quran".
- Vəram ibn Əbu Firas, "Tənbihul-xəvatir və nəzhətun-nəvazir" .
- "əl-Mədinətus-Saudiyyə" qəzeti.
- "əl-Cəzirətus-Saudiyyə" qəzeti.
- "Araa hauləl-xəlic" saytı: /http://araa.sa

## İçindəkilər

Müqəddimə

**Birinci fəsil: "Quran barəsində düşünməzlərmi?"**

Tərk olunmuş Quran

Quran şəfadır

Quran moizədir

Gənclər və Qurana qayıdış.

**İkinci fəsil: İnsanların birgəyaşayış prinsipləri**

**"Bir-birinizi tanıyasınız deyə"**

**Üçüncü fəsil: İctimai yetkinlik mədəniyyəti**

Fikir azadlığı və cəmiyyətin tərəqqisi

İctimai özünütənqid   Ağrılar və ümidlər sözlə əməl arasında

İslahatçı fikirlər irəli sürmək cəsarəti

Çəkidə aldadanlar və iki mikyalla ölçmək

Fərdi məsuliyyət və şəxsiyyətin müstəqilliyi

**Dördüncü fəsil: İctimai münasibətlər haqqında**

Hüsnü-zənn və onun ictimai münasibətlərə təsiri

İnsanların sevgisini qazanmaq

Tənə etmək və bir-birini pis ləqəblərlə çağırmaq pis əxlaqdır

Qeybət və ictimai münasibətlərin pozulması

**“Bir qövm digərini lağa qoymasın”**

Casusluq və başqalarının sirlərini ifşa etmək

Cəmiyyətdəki daxili ixtilaflar

Böhranlarla mübarizə və alovları söndürmək

Quran dialoqu

İstifadə olunmuş mənbələr